**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**AKADEMİK Z.M.BÜNYADOV ADINA**
**ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

GÜLƏR QAFQAZLI

# Osmanlı hakimiyyəti dövründə Marağa və Soyuqbulaq bölgələri

(XVIII əsrin 20-ci illəri)

**Bakı – 2021**

*AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*

---

***Elmi redaktor:*** akademik Ş.M.Mustafayev

**Gülər Qafqazlı**. Osmanlı hakimiyyəti dövründə Marağa və Soyuqbulaq bölgələri (XVIII əsrin 20-ci illəri). Bakı: "Elm", 2021, – 180 s.

**ISBN** 978-9952-514-78-6

Monoqrafiyada Osmanlı arxiv sənədləri cəlb edilməklə, XVIII əsrin 20-ci illərində – Osmanlı hakimiyyəti dövründə Azərbaycanın tarixi əraziləri olan Marağa və Soyuqbulaq bölgələrinin sosial-iqtisadi vəziyyəti, o cümlədən şəhər həyatı və kənd təsərrüfatının inkişaf səviyyəsi, əhalinin dini və etnik tərkibi, demoqrafik durumu, qismən də bölgənin toponimikası və onomastikası ilk dəfə olaraq kompleks şəkildə tədqiq edilmişdir.

Əsər Azərbaycan tarixi mütəxəssisləri, universitetlərin tarix fakültələrinin tələbələri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

*© Gülər Qafqazlı, 2021*
*© AMEA akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2021*

# MÜNDƏRİCAT

**Giriş** ........................................................................... 4

**I Fəsil.** XVIII əsrin 20-ci illərində Azərbaycan ərazilərinin Osmanlı imperiyasının tərkibinə keçməsi ............................... 12
1.1. XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin ictimai-siyasi, iqtisadi və hərbi vəziyyəti .................. 12
1.2. Səfəvi-Osmanlı-Rusiya münasibətləri və onların nəticələri ................................................. 30

**II Fəsil.** Azərbaycanda Osmanlı idarə sisteminin tətbiqi və onun xüsusiyyətləri ................................ 44
2.1. Osmanlı inzibati bölgüsünün əsas xüsusiyyətləri ..................................................... 44
2.2. Şəhər həyatı, sənətkarlıq və ticarətin vəziyyəti, alınan vergilər ............................ 65

**III Fəsil.** Torpaq münasibətləri, kənd təsərrüfatından və digər sahələrdən toplanan vergilər ................................................... 88
3.1. Torpaq münasibətləri və bitkiçiliklə əlaqəli vergilərdən əldə olunan gəlirlər................................ 88
3.2. Heyvandarlıqla əlaqəli vergilər üzrə əldə olunan gəlirlər ........................................................ 123
3.3. Qeyri-təsərrüfat vergiləri və livalardan əldə olunan ümumi gəlirlər...................................... 133

**Nəticə** ........................................................................ 148

**İstifadə olunmuş ədəbiyyat** .................................................. 155

**Coğrafi adlar** ........................................................... 167

**Резюме** ...................................................................... 176

**Summary** .................................................................... 177

# GİRİŞ

Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutan, XVI yüzilliyin başlarında formalaşaraq Azərbaycanın tarixi torpaqlarını, eləcə də Yaxın və Orta Şərqin bir sıra qonşu ölkələrinin geniş ərazilərini əhatə edib 200 ildən artıq dövr ərzində mövcud olan Səfəvi dövləti XVII əsrin sonları – XVIII əsrin əvvəllərində öz qüdrətini itirmişdi. Bu zaman yaranmış ümumi siyasi-iqtisadi böhran, mərkəzi hakimiyyətin zəifləməsi, daxildə baş verən üsyanlar və xarici təcavüz nəticəsində Səfəvi dövləti tənəzzülə uğrayaraq, nəinki uzaq əyalətlərini, hətta mərkəzi aparatını belə idarə etmək iqtidarından məhrum olmuşdu.

Orta Asiya, Çin, Hindistan və Fars körfəzi ölkələrini quru ticarət yolları vasitəsilə Qara dəniz və Aralıq dənizi hövzələri ilə, Yaxın və Orta Şərq ölkələrini Dərbənd keçidi və Volqa-Xəzər su yolu vasitəsilə Rusiya ilə əlaqələndirən Səfəvi dövləti hər zaman qonşu imperiyaların diqqət mərkəzində olmuşdur. Regionda yaranmış bu böhranlı vəziyyətdən məharətlə bəhrələnən Rusiya və Osmanlı imperiyaları XVIII əsrin 20-ci illərində Səfəvi ərazilərinə müdaxilə etdilər. Beləliklə də, XVIII yüzilliyin əvvəllərində Azərbaycan torpaqlarının böyük bir hissəsi regionun iki qüdrətli dövləti – Rusiya və Osmanlı imperiyaları arasında bölüşdürüldü. Bakı və Dərbənd daxil olmaqla Xəzəryanı bölgələr Rusiyanın, İrəvan, Borçalı, Qazax, Gəncə, Qarabağ, Naxçıvan, Təbriz, Ərdəbil, Xoy, Urmiya, Xalxal, Həmədan, Marağa, Soyuqbulaq və digər Azərbaycan torpaqları isə Osmanlı imperiyasının tərkibinə daxil oldu.

Osmanlı imperiyası özünün ənənəvi dövlətçilik prinsiplərinə uyğun olaraq fəth etdiyi yerlərdə idarəçilik sistemini yenidən qurur və bu məqsədlə yeni inzibati-ərazi bölgüsü aparır, yerli əhalini və vergi obyektlərini dəqiqliklə siyahıya alırdı. Bir qayda olaraq, bu tədbirlərin nəticəsi öz əksini digər dövlət sənədləri ilə birlikdə yeni tərtib olunan maliyyə-vergi dəftərlərində (müfəssəl və icmal) tapırdı. Osmanlı maliyyə-vergi sistemində rəsmi dövlət sənədi statusuna malik olan bu dəftərlər bu gün həmin regionların sosial-iqtisadi vəziyyətinin və orada baş verən etnodemoqrafik proseslərin tədqiqi baxımından olduqca qiymətli və zəngin tarixi qaynaqlar hesab olunur. Səfəvi dövründən qalan sənədli mənbələrin azlığı nəzərə alındıqda, qeyd edilən Osmanlı arxiv sənədlərinin elmi dövriyyəyə daxil edilməsi və öyrənilməsinin elmi aktuallığı daha da artır. Çünki onların retrospektiv təhlili Azərbaycanın ayrı-ayrı əyalətlərinin yalnız Osmanlı hakimiyyəti dövründə deyil, ondan əvvəlki, yəni Səfəvi dövründəki tarixinə də işıq salmağa imkan yaradır.

Qeyd etmək lazımdır ki, XVIII əsrin əvvəllərində Osmanlı hakimiyyəti dövründə Marağa və Soyuqbulaq əyalətlərinin sosial-iqtisadi vəziyyəti indiyədək istər Azərbaycan tarixşünaslığında, istərsə də ümumi türkologiyada xüsusi olaraq elmi tədqiqata cəlb edilməmiş və bu barədə ayrıca tədqiqat əsəri yazılmamışdır. Monoqrafiya üçün seçilmiş mövzu Osmanlı hakimiyyəti dövründə həmin əyalətlərdə inzibati bölgü, iqtisadi vəziyyət, əhalinin etnik-dini tərkibi və demoqrafik proseslər kimi problemlərin elmi təhlilinə yönəlib. Bu baxımdan qeyd edilən məsələlər Azərbaycan tarixşünaslığında və dünya türkologiya elmində ilk dəfə olaraq burada öz həllini tapır.

Mövzunun tədqiqi Azərbaycan xalqının dövlətçilik tarixinin yeni mənbələr və faktlar əsasında öyrənilməsi, Osmanlı hakimiyyəti dövründə Azərbaycanın adları çəkilən tarixi ərazilərində gedən ictimai-siyasi və iqtisadi proseslər barədə yeni məlumatların üzə çıxarılması, XVIII yüzillikdə Azərbaycan ərazisində etnik-dini məsələlərin araşdırılması və təhlili, Marağa və Soyuqbulaq bölgələrinin inzibati-ərazi bölgüsünün müəyyənləşdirilməsi, kənd təsərrüfatı, sənətkarlıq və ticarət obyektlərinə dair tutarlı məlumatların əldə edilməsi baxımından olduqca önəmlidir.

Burada əsas məqsəd adından da göründüyü kimi, XVIII əsrin 20-ci illərində, yəni Azərbaycanda Osmanlı hakimiyyəti dönəmində Marağa və Soyuqbulaq bölgələrinin sosial-iqtisadi vəziyyətinin tədqiqi və təhlilidir. Bunun üçün ilk dəfə olaraq, Türkiyə Cümhuriyyəti Başbakanlık Osmanlı Arxivində saxlanan və hələlik bu bölgələrlə bağlı ən mötəbər mənbələrdən biri hesab edilən "*Dəftər-i müfəssəl-i liva-i Marağa*" adlı arxiv sənədi tədqiqata cəlb edilmiş, bu dəftərdə mövcud olan məlumatlar əsasında XVIII yüzilliyin əvvəllərində Marağa və Soyuqbulaq livalarında tətbiq edilmiş vergi siyasəti, onların şəhər və kəndlərinin təsərrüfat həyatı ilə bağlı məlumatlar, demoqrafik vəziyyət, əhalinin etnik tərkibi araşdırılıb üzə çıxarılmışdır.

Əsər XVIII əsrdə Marağa və Soyuqbulaq bölgələrinin Osmanlı hakimiyyəti altında olduğu dövrü, yəni 1723 – 1735-ci illəri əhatə etdiyindən Osmanlı mənbələri ilə yanaşı, orta əsr Azərbaycan tarixi ilə bağlı narrativ və sənədli mənbələrin, tarixi əsərlərin araşdırılmasına da xüsusi yer verilmişdir. Bu məqsədlə Səfəvi, Rusiya, Avropa qaynaqlarına, o cümlədən özündə çoxlu sayda zəngin tarixi məlumatları əks etdirən ərəb və farsdilli mənbələrə müraciət olunmuşdur.

Əsərdə ilk dəfə araşdırmaya cəlb olunmuş Osmanlı mənbəsi İstanbuldakı Başbakanlık Osmanlı Arxivində 909 sayı ilə qeydə alınıb saxlanan "*Dəftər-i müfəssəl-i liva-i Marağa*" adlı vergi reyestridir ("müfəssəl dəftər") (14). Monoqrafiyada əsas sənədli mənbə olaraq istifadə edilən "Marağa livasının müfəssəl dəftəri"ndə təhrir ilinin başlanması və sona çatması tarixləri göstərilməmişdir. 528 səhifədən ibarət olan, siyaqət xətti ilə yazıya alınan, sultan tuğrası və qanunnaməsi olmayan bu sənədin tərtib tarixi göstərilməsə də, aparılan araşdırmaya əsasən onun 1725-1728-ci illərdə tərtib edildiyini ehtimal etmək mümkündür. Bu məlumat A.Bilgili tərəfindən də təsdiqlənir. Belə ki, Marağa bölgəsi Osmanlı ordusu tərəfindən 1724-cü ilin mart ayının sonlarında ələ keçirilmiş və çox güman ki, bölgənin təhririnə bir il sonra başlanmışdır (66, s. 42; 36, s. 123).

Marağa dəftəri iki hissədən ibarətdir. Onun birinci hissəsi mərkəzi Marağa şəhəri olan Marağa livasının, ikinci hissəsi isə mərkəzi Soyuqbulaq qəsəbəsi olan Soyuqbulaq livasının siyahıya alınma (*təhrir*) məlumatlarını əhatə edir. Dəftər ənənəvi olaraq *fehrist*, yəni mündəricatla başlayır. Burada öncə Marağa livasına tabe olan Benacu, Səracu, Bukan, Gavdul, Miyandoab (Qoşaçay), Əcri, Leylan, Əkərtu nahiyələri və orada mövcud olan yaşayış yerlərinin, vergi ödəyən əhalinin, alınan vergilərin adları qeyd edilmişdir. İkinci hissədə Soyuqbulaq livasına tabe olan Şəhri-viran, Dəryaz, Yıltimur, Gilas, Mirabad, Tərkeş, Telyuş, Alan, Turcan, Axtaçı, Suldus, Lacan və Qıpçaq nahiyələrinin eyni qayda üzrə məlumatları verilmişdir.

Əsərdə digər Osmanlı arxiv sənədlərindən, o cümlədən sultanın əmr və hökmlərini ehtiva edən "*Mühimmə dəftərləri*" və "*Name-yi Hümayun*" dəftərindən də istifadə olunmuşdur (17, 18, 19, 20, 21, 22). XVI-XVIII yüzilləri əhatə edən

bu növ qaynaqlar sayəsində Azərbaycan tarixinin müxtəlif məsələlərinə dair vacib statistik məlumatlar üzə çıxarılmış və bir sıra problemlərə aydınlıq gətirilmişdir.

Yeri gəlmişkən nəzərə çatdıraq ki, Osmanlı tarixi və Osmanlı arxiv sənədlərinin Azərbaycanda tədqiqi işinə keçən əsrin 80-ci illərindən başlanmışdır. Bu sahədə ilk dəfə akademik Z.Bünyadov, t.ü.f.d. H.Məmmədov (Qaramanlı), akademik Ş.Mustafayev, t.ü.f.d. E.Arıklı elmi tədqiqatlar aparmış, bununla bağlı bir sıra əsərlər çap etdirmişlər. Monoqrafiya üzərində işlədiyimiz zaman onların hazırladıqları və nəşr etdirdikləri "*İrəvan əyalətinin icmal dəftəri*" (41), "*Naxçıvan sancağının müfəssəl dəftəri*" (50), "*Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı)*" (58), "*Lori vilayətinin icmal dəftəri*" (47) ,"*Ərdəbil livasının müfəssəl dəftəri*" (37) adlı nəşrlərdən, eyni zamanda əlyazmaları İstanbulda Osmanlı Başbakanlık Arxivində qorunub saxlanan "*Urmiya, Xalxal livası və Salmas qəzasının müfəssəl dəftəri*" (15) və "*Təbriz livasının müfəssəl dəftəri*"ndən (9, 13) də istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətində *tapu-tahrir* dəftərlərinin tədqiqi daha əvvəlki illərə təsadüf edir. Belə ki, araşdırma zamanı bu növ dəftərlərdən Kərkük (79), Ayntab (62), Aydın (61), Şam (85) və Sivas (69) ərazilərinin dəftərlərində maraqlı faktlar diqqəti cəlb etmişdir. Məsələn, Kərkük dəftərində rast gəlinən Marağa kəndinin tarixinin tədqiqində göstərilir ki, bu yaşayış məntəqəsi Cənubi Azərbaycanın Marağa şəhərindən köçmüş türk əhalisi tərəfindən salınmışdır (79, s. 27). Daha sonra bu dəftərdə suldus tayfası və Leylan kəndinə də rast gəlinir (79, s. 13, 19). Ayntab livasının müfəssəl dəftərində də tədqiq etdiyimiz dəftərin toponimikası ilə eyni yer adları aşkarlanmışdır (62, s. 55, 80, 88-91). Sivas livasının müfəssəl dəftərində isə

Naxçıvan zaviyəsinin adı çəkilir ki, araşdırdığımız dəftərdə də Naxçıvan kəndinin adı mövcuddur (69, s. 13). Şam livasının müfəssəl dəftərində burada türk tayfalarının (bunlardan İnallı, Otuz ikili, Qaraqoyunlu tayfasının adı da çəkilir) yaşaması, Təbriz məscidinin olması barədə məlumatlar verilmişdir (85, s. 13, 30, 47,700).

Osmanlı narrativ mənbələri, Osmanlı qaynaqları, müasir türk tarixçilərinin əsərləri bir çox məsələlərin aydınlaşmasında böyük rol oynamışdır. Bu əsərlərlə yanaşı, Səfəvi-Rusiya münasibətləri rus və Avropa müəlliflərinin əsərlərinə də müraciət edilmişdir. Monoqrafiyanın hazırlanmasında, həmçinin müxtəlif səyahətnamə əsərləri də önəmli tarixi qaynaq rolunu oynamışdır.

Mövzunun araşdırılması zamanı yuxarıda sadaladığımız sənədli və narrativ mənbələrlə yanaşı, qeyd edilən məsələlərlə əlaqədar elmi ədəbiyyat, o cümlədən Azərbaycan, Türkiyə, Rusiya və Qərb ölkələrinin alimlərinin tədqiqat işlərindən də geniş istifadə olunmuşdur. Belə ki, Azərbaycan torpaqları Osmanlı hakimiyyəti altında olduğu dönəmdə burada baş verən siyasi, iqtisadi və hərbi proseslərlə bağlı məsələlər bir sıra tarixçilərin marağına səbəb olmuşdur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, haqqında bəhs olunan dövrdə Marağa və Soyuqbulaq bölgələrinin tarixi müstəqil bir tədqiqatın mövzusu olmamışdır.

Müasir dövrdə Azərbaycan tarixşünaslığında araşdırdığımız dövrün tarixinə həsr edilmiş əsərlərdən dövrün ictimai-siyasi vəziyyətinə, Səfəvi dövlətini tənəzzülə aparan məsələlərə, dövlət quruluşuna, siyasi-hərbi mənzərəyə, dövlətin diplomatik münasibətlərinə, mövcud ticarətə dair məlumatlar toplanmışdır.

Osmanlı hakimiyyəti altında olan Şərqi Anadoluda sosial-iqtisadi məsələləri və bölgədə həyata keçirilən vergi siyasətini çoxsaylı tarixi sənədlər, o cümlədən qanunnamələr əsasında tədqiq və təhlil etmiş Ş.M.Mustafayevin "*Şərqi Anadolu: Ağqoyunlulardan Osmanlı imperiyasına*" adlı monoqrafiyası bu əsərin hazırlanmasında özünəməxsus yer tutur (118). Belə ki, monoqrafiyada irəli sürülən fikirlər tədqiq etdiyimiz mövzunun bir sıra problemlərinə aydınlıq gətirməkdə mühüm əhəmiyyət kəsb etmişdir.

Mövzunun işıqlandırılmasında çoxcildlik "Azərbaycan tarixi" (27), "İslam ensiklopediyası" (77) və "Azərbaycan uzaq keçmişdən 1870-ci illərə qədər" (28) adlı kitabların məlumatlarından da istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, A.S.Bilgilinin "*Osmanlı, İran və Azərbaycan – I. (16. və 18. yüzillər sosial və iqtisadi tarix)*" adlı əsəri diqqətəlayiqdir (66). Belə ki, müəllif Osmanlı arxiv sənədləri əsasında Osmanlı-Səfəvi münasibətlərini yeni aspektdən təhlil etmiş, Osmanlı hakimiyyəti altında olmuş Azərbaycan şəhərləri ilə bağlı bir sıra məlumatları üzə çıxarmış, sosial və etnodemoqrafik məsələlərə toxunmuş, eləcə də vəqf təsisatları barədə dəyərli məlumatlar vermişdir. Müəllif Osmanlı imperiyasının Azərbaycan ərazilərindəki hərbi əməliyyatlarını təhlil edərək, belə bir fikir ifadə etmişdir ki, həmin dövrdə osmanlılar Azərbaycan torpaqlarını fəth etdikdə burada baş verən bəzi dağıntılarla yanaşı, həm də quruculuq işlərinə böyük diqqət yetirmişlər, qısa müddətdə çox sayda yeni qalalar, tikililər inşa etdirmək istəmişlər. Bu fikri təsdiqləmək üçün müəllif çoxlu misallar gətirir, o cümlədən qeyd edir ki, sultan IV Murad Bağdada yürüşü zamanı: "Biz burada qızılbaş qırmağa gəlmədik. Bu qala-i Bağdad bizə əcdadlarımızdan mirasdır, bunun üçün gəldik... Məni istəyən

mənim, şahı istəyən şahın yanına varsın. Kimsəyə mane olunmayacaq...", - demişdir (66, s. 11-12).

Səfəvi dövlətinin sosial-iqtisadi tarixi, Azərbaycan torpaqlarına xarici təcavüz, Osmanlı-Rusiya-Səfəvi münasibətləri ilə bağlı məsələlərə rus və sovet tarixçiləri öz əsərlərində həmişə mühüm yer ayırmışlar və onların əsərləri də faydalı olmuşdur.

Araşdırılan dövrün tarixi ilə bağlı müraciət edilən farsdilli mənbələrlə yanaşı, müasir dövrdə fars dilində yazılmış əsərlər də nəzərdən keçirilmişdir.

Sizə təqdim olunan monoqrafiyanın işıq üzü görməsində bizə şərait yaradan institutumuzun direktoru akademik G.Baxşəliyevaya, monoqrafiyanın ərsəyə gəlməsində isə öz məsləhətini məndən əsirgəməyən elmi rəhbərim akademik Ş.Mustafayeva, mənə hər zaman dəstək olan Nizami adına Ədəbiyyat İnstitutunun "Cənubi Azərbaycan ədəbiyyatı" şöbəsinin elmi işçisi F.Süleymanoğluya, akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Türkiyə tarixi və iqtisadiyyatı" şöbəsinin əməkdaşlarına və zəhmət çəkən hər kəsə öz dərin təşəkkürlərimi bildirirəm.

# I FƏSİL

# XVIII ƏSRİN 20-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN ƏRAZİLƏRİNİN OSMANLI İMPERİYASININ TƏRKİBİNƏ KEÇMƏSİ

## 1.1. XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin ictimai-siyasi, iqtisadi və hərbi vəziyyəti

Avrasiya materikinin şərqi ilə qərbini və şimalı ilə cənubunu birləşdirən çox mühüm ticarət yolları üzərində yerləşən, o cümlədən ərazisindən "Böyük İpək yolu" keçən, vaxtilə Şərqin qüdrətli ölkələrindən biri olan Səfəvi dövlətini (*Dövlət-i Səfəviyyə*) XVII yüzilliyin sonları – XVIII yüzilliyin əvvəllərində bürümüş ümumi böhran, onun tərkibinə daxil olan Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərmişdi. Bu dönəmdə digər qonşu regionlar kimi Azərbaycan nəinki iqtisadi, həm də siyasi tənəzzül dövrünü keçirirdi. Şah, saray əyanları, eləcə də sayları məqbul həddi çoxdan aşmış dövlət məmurları get-gedə dərinləşib cəmiyyət həyatının bütün sahələrinə sirayət edən böhrandan qurtulmaq – boşalmış dövlət xəzinəsini doldurmaq üçün çıxış yolunu vergi və mükəlləfiyyətlərin sayını, həcmini artırmaqda görürdülər. Şah xəzinəsi tükəndikcə, onlar yeni-yeni vergi növləri "icad" edir, vergi toplamaq üsullarını daha da sərtləşdirir, vergi mükəlləflərinin maddi vəziyyətini nəzərə almadan, əhalidən vəsait yığmağı amansızcasına həyata keçirirdilər. Saray əyanları və dövlət məmurlarının fətvalarına uyan, dövlət işlərin-

dən uzaqlaşdırılaraq günlərini məscidlərdə ibadətdə və hərəmxanada keçirən, iradəcə zəif olan Şah Sultan Hüseyn (1694-1722) 1698-1701-ci illərdə vergi sistemini yeniləmək məqsədilə 15 yaşına çatmış hər kəsin siyahıya alınması barədə fərman verdi. Əhalinin var-dövləti, hər cür əmlakı, dini mərkəzlər, tacirlər, hətta səyahət edənlər belə, siyahıya alınır və buna uyğun olaraq yeni vergilər tətbiq olunurdu (27, s. 18-19). Belə total "səfərbərlik" nəticəsində şah məmurları əhalinin siyahısını tərtib etməkdə böyük çətinlik çəkirdi, çünki imkanı olan şəxslər ailə və əmlakını özü ilə götürüb acgöz şah məmurlarının təqibindən qaçaraq əlçatmaz yerlərdə gizlənirdilər. Ona görə də şah bu kimi halların qarşısını almaq məqsədilə yeni fərman verdi: "Gizlənən şəxsi kim tapsa və şaha bu barədə xəbər versə, onun başı şaha, əmlakı isə xəbər verən adama çatacaqdır" (27, s. 380; 108, s. 11).

Əhalinin vəziyyətinin getdikcə pisləşməsinin digər səbəbi isə 1700-1703-cü illərdə Azərbaycanda, xüsusilə də Şirvanda baş verən quraqlıq və bunun nəticəsində əmələ gələn aclıq, bahalıq və bazarlarda qiymətlərin bir neçə dəfə artması olmuşdur. Bu barədə Rusiyadan Azərbaycana gəlmiş elçi A.P.Volınski öz gündəliyində dövrün mənzərəsini dəqiqliklə ifadə edərək yazırdı: "Səfəvilər dövlətinin çörək ağası sayılan Azərbaycanda tarlalar yeddi ildir, əkilmir, ölkədə aclıq var" (27, s. 380; 28, s. 465).

Hollandiyalı səyyah Kornel de Bruin 1703-cü ildə Şamaxı şəhərinin vəziyyətini təsvir edərək yazırdı: "Biz şəhərə çatan zaman hava çox isti idi. İki-üç il ərzində bura yağış düşməmişdi və bu səbəbdən də hər şey olduqca baha idi. Bir çörəyin qiyməti beş dəfə artmışdı" (54, s. 31).

Şah sarayı yerli hakimlərə etibar etmir, vergi toplamaq üçün bölgələrə öz məmur və nökərlərini göndərir, onlar isə

əhalini əzab və işgəncələrlə vergi verməyə məcbur edirdilər. Məsələn, şaha yaxın olan və Təbrizdə oturan Azərbaycan bəylərbəyi Mirzə Tahir 1100 nəfərlik cəza dəstəsi ilə Qarabağa vergi toplamağa göndərilmişdi (27, s. 381; 108, s.19). Bu cür vergi toplamaq siyasəti dövlətin iqtisadi durumunu yaxşılaşdıra bilmədi, əksinə, maddi nemətlərin əsas istehsalçıları olan kəndlilərin ənənəvi təsərrüfatının dağılmasına və iqtisadi böhranın dərinləşməsinə gətirib çıxartdı (111, s. 307).

Mərkəzi hakimiyyətin zəiflədiyi bu dövrdə yerli hakimlər şaha tabe olmur, istədikləri özbaşınalıqları edir, Azərbaycandakı bəylərbəyilər hətta mərkəzin göstərişi olmadan vergilərin miqdarını və həcmini artırır, toplanan vergilərin böyük hissəsini xəzinədən gizləyib mənimsəyirdilər (122, s. 44). 1716-cı ildə Rusiyanın Azərbaycanda elçisi olmuş A.P.Volınski bütün bu halları müşahidə edərək öz gündəliyində yazmışdı: “Bəylərbəyilər toplanan vergilərin yalnız yarpağını şaha göndərirlər, meyvəsini isə özləri üçün saxlayırlar. Bu onlarda adət halını almışdır” (122, s. 44). O, Təbriz əhalisi ilə tanışlıqdan sonra isə bunları qeyd etmişdi: “Burada xalq Şamaxıya nisbətən daha çox özbaşınadır...”. Həqiqətən də, bu zaman Azərbaycan bəylərbəyilikləri, xüsusilə Şirvan, əslində, mərkəzi Səfəvi dövlətindən nominal asılılıqda idi (27, s. 381; 116, s. 6).

1720-ci ildən 1726-cı ilədək ömrünü İsfahanda keçirən katolik missioneri Kruşinski “*Xristian səyyahının tarixi*” adlı əsərində Şah Sultan Hüseynin hakimiyyətə keçdiyi zaman ağıllı, geniş ürəkli, gününü zahidlik və təqva ilə keçirən, dinin qadağan etdiyi əməllərdən çəkinən bir şəxs olduğu barədə məlumat vermişdir. O, Səfəvi şahının bu halından məmnun olan hakimlərin başlarının eyş-işrətə qarışaraq dövlət işlərini unutmasını və əyalətlərdə baş qaldıran narazılıqlardan

xəbərsiz olduğunu qeyd etmişdir. Hadisələrin şahidi olan müəllif yazır ki, əyanlarını sərxoş halda görən Şah Sultan Hüseyn ölkəsində qeyri-müsəlmanlardan başqalarına şərab içməyi qadağan etdi və bu qanun yerli hakimlər tərəfindən heç də xoş qarşılanmadı. Bunu görən saray əyanları hiyləyə əl atdılar, şahın anasının vasitəçiliyi ilə Şah Sultan Hüseynin özünü içkiyə qurşandırdılar və beləliklə, imperiyanın daha da tənəzzül etməsinə "yardımçı" oldular. Bundan əlavə, dövlətin süqutuna aparıb çıxaran səbəblərdən biri də hələ I Şah Abbas (1587-1629) dövründə yerli əhaliyə həcc ziyarəti icazəsi üçün padşaha böyük məbləğdə peşkəş verilməsi, eləcə də hökumət işlərini idarə edən məmurların, dövlətin keşiyində duranların və şah vəzirlərinin iki dəstəyə bölünərək bir-birilər ilə çəkişmələri idi (44, s. 18, 20-22).

Səfəvi dövlətində mövcud olan qayda-qanuna əsasən, yerlərdən toplanmış vergilərin onda bir hissəsi mərkəzi hakimiyyətin təhlükəsizliyini təmin edən hərbçilərə verilməli idi. Lakin yerli hakimlərin törətdikləri özbaşınalıqlar nəticəsində hərbçilərə ödəniləcək pay çatmır, bu da, öz növbəsində, yavaş-yavaş onların narazılığına səbəb olurdu (120, s. 19).

Yerli hakimlərin istismarının həddini aşması, hərbçilərə ödəniləcək payın verilməməsi, Səfəvi dövlətinin bir çox yerlərində olduğu kimi, Azərbaycanda da şah üsul-idarəsinə və yerli hakimlərə qarşı üsyanların baş qaldırmasına səbəb oldu. XVIII yüzilliyin əvvəllərində Azərbaycanda ilk üsyan 1707-ci ildə Təbriz sənətkarlarının və şəhər yoxsullarının mövcud duruma qarşı etirazı nəticəsində baş verdi (36, s. 51). 1711-ci ildə təbrizlilərin kəndli kütlələrini əhatə edən üsyanı yenidən təkrar olundu və bu növ kəndli üsyanları bir-birinin ardınca 1709-1715-ci illərdə Soyuqbulaqda və Muğanda da alovlandı. Bu şəhərlərdən sonra üsyan dalğası 1715-1717-ci illərdə Qəzvin və Gilanı bürüdü. 1707-ci ildən

başlayaraq aclıq və səfalətdən təngə gələn əhalinin etirazları 1717-ci ildə daha geniş təbəqələri əhatə edərək xalq üsyanına çevrildi. Üsyançılar şah sarayına hücum etdilər və bundan qorxuya düşən şah iqamətgahını tərk edərək qaçdı. Lakin sonradan böyük bir çətinliklə də olsa mərkəzi hakimiyyət bu üsyanı yatıra bildi (93, s. 36).

Şah xəzinəsinə vergi ödəməkdən azad edilmiş, həm də sərhəd bölgəsində yerləşdiklərinə görə sərhəd xidməti müqabilində şah xəzinəsindən maliyyələşən carlılar eyni ildə Şirvan bəylərbəyinin onlara ödəniləcək payı kəsməsi səbəbindən üsyana qalxdılar (113, s. 49, 51), lakin bu üsyan kortəbii olduğu üçün yatırıldı. Bir müddət sonra 1711-ci ildə yerli hakim Əli Sultan müstəqil olmaq və yeni ərazilər ələ keçirmək məqsədilə bütün etirazçı dəstələri öz ətrafında birləşdirməyi bacardı və carlılar yenidən ayağa qalxdılar (36, s. 52-53). Hələ 1673-cü ildə bu əraziyə səyahət etmiş Şardən qeyd edir ki, Səfəvi şahı orada ali hakim kimi tanınır, lakin mütləq hakim kimi tanınmır və bu ölkədə yaşayan xalqlar həmişə onun əmrinə tabe olmurlar. Onların şaha qarşı çıxışlarının sayı azaldılsa da, kökünü kəsmək mümkün olmamışdır (56, s. 57).

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin sərhəd bölgəsində yerləşən Dərbənd şəhərində olmuş A.İ.Lopuxin buradakı özbaşınalıqları müşahidə edərək yazmışdır: “Dərbənd sultanı guya qonaqlıq etmək adı ilə bütün qəzadan bizim üçün 1000 manatdan çox xərac yığmışdı. Lakin biz heç nə görmədik və eşitmədik. Belə axmaq hakimiyyətdən yaxşı heç nə gözləmək olmaz” (115, s.19).

Üsyançı dəstələr Şəki, Qəbələ, Ağstafa, Şəmşəddil, Zağam (indiki Zəyəm), Gəncəbasar, Kürəkbasara basqın etdilər və demək olar ki, Şamaxı ərazisinə qədər gəlib çıxdılar.

Əli Sultanın 8000 nəfərdən ibarət olan dəstəsinə qarşı şamaxılı Həsənəlixan şahın əmri ilə 15000 nəfərdən ibarət hərbi qüvvə çıxsa da, qarşı tərəfin qəfil hücuma keçməsi nəticəsində qoşun dağıldı, xan qətlə yetirildi, sağ qalanlar isə qaçmağa üz tutdular (120, s. 20; 29, s. 102). Üsyançılara qarşı yürüş edən gəncəli Uğurlu xanın qüvvələri də Şəmkir yaxınlığında müvəffəqiyyətsizliyə uğradı, xan qaçıb Gəncə qalasında gizləndi. Bir müddət üsyançı dəstəyə qarşı müqavimət göstərən Şəki hakimi Kiçikxan isə qətlə yetirildi. Üç dəfə qaçmağa cəhd göstərən Kaxetiyalı İmamquluxan 1721-ci ildə Bərdə yaxınlığında Gəncə və İrəvan xanlıqlarının hərbi qüvvələrini özünə birləşdirərək ayağa qalxmış üsyançı dəstəsinin qarşısını ala bildi.

Şirvan əhalisinin daha nizamlı şəkildə təşkil olunmuş üsyançı dəstələrinin qiyamı Azərbaycanın digər bölgələrindən bir qədər fərqli idi. Belə ki, yerli camaat Səfəvi dövlətinin rəsmi təriqəti olan şiəliyi qəbul etmir, sünni məzhəbinə inanır və bu səbəbdən də təriqət bayrağı altında şaha qarşı üsyana qalxmışdı (97, s. 63; 102, c. 1, s. 7-8).

Bu üsyanları yatırtmaq üçün Şah Sultan Hüseyn 1720-ci ildə özündən vassal asılılığında olan Dağıstan hakiminə hərbi dəstək almaq məqsədilə bir miqdar pul göndərir. Bunun müqabilində hərbi dəstə ilə köməyə gələn Qazıkumıklı Surxay xan Şirvan ərazisindən keçərkən Müşkür mahalının Dədəli kənd sakini Hacı Davud onu bu fikrindən daşındırır. Hacı Davud öz dəstəsini Surxay xanın qoşununa birləşdirir, beləliklə, Şabran və Xudat qalaları ələ keçirilir. 1721-ci ilin avqust ayında Əli Sultanın dəstəsi də onlara qoşulur və Şirvan bəylərbəyiliyinin mərkəzi hesab edilən, həmin dövrdə Azərbaycanın ən böyük şəhərlərindən biri olan Şamaxını tuturlar (114, s. 57). Hücum zamanı əhalinin bir hissəsi məhv

edilir, şəhər talan olunur, çoxlu miqdarda qənimət ələ keçirilir və həmin günlərdə şəhərdə olan rus tacirləri də qətlə yetirilir (108, s. 28). Hacı Davud burada mövcud olan inzibati qurumları tamamilə ləğv edir, bütün vergi reyestrlərini yandırır, daha mötədil töycü sistemini müəyyən edir və bununla da Şirvan bəylərbəyiliyinin mərkəzində heç kəsdən asılı olmayan yeni dövlət qurumu – xanlıq yaradır (55, s. 142-149).

Şamaxıda qazanılmış qələbədən ruhlanan Hacı Davud öz yürüşünü davam etdirmək qərarına gəlir, Kür çayını keçib gözlənilmədən İrəvan xanının qoşununa həmlə edir və döyüş üsyançıların qələbəsi ilə başa çatır.

Hadisələrin şahidi olan Yesai Həsən Cəlalyan yazır ki, daha sonra üsyançı dəstələr ara-sıra Qarabağın Xaçın, Dizaq və Vərəndə mahallarında göründülər. Bundan sonra Hacı Davud digər hərbi dəstələrlə birlikdə Gəncəni xanlardan azad edir, oradan Muğana yollanır, Muğanda özünə canişin təyin edərək Şirvana geri qayıdır (108, s. 29-30).

Səfəvi xanədanının laxlamasından istifadə edən kürdlər də şaha qarşı ayaqlanmış və 1715-ci ildə üsyana qalxmışdılar. Üsyanı bir neçə il davam etdirən kürdlər İsfahanı ələ keçirməyə cəhd göstərsələr də, öz istəklərinə nail ola bilməmişdilər (36, s. 53).

Səfəvi dövlətinin süqutuna gətirib çıxaran ən təhlükəli üsyanlardan biri də Qəndəharda Mir Veysin (1709-1716) başçılığı ilə gilzay əfqan tayfalarının şaha qarşı başlatdıqları üsyan idi. Döyüş sənətinə çox yüksək səviyyədə yiyələnmiş əfqan asilərin qaldırdıqları üsyan uğurla nəticələnmiş və onlar bundan daha da ruhlanaraq İsfahana üz tutmuşdular. Burada onların qarşısına böyük bir ordu ilə Qənədəhar bəylərbəyisi gürcüstanlı Şahnavaz xan (Kartli çarı XI Georgi) çıxmış və Mir Veys həbs edilmişdi (44, s. 22-32). Lakin hiylə-

gərlik işlədən Mir Veys Məkkənin sünni ruhanilərinin köməyi ilə həbsdən azad ola bildi və yenidən hərəkata başladı. Mir Veys gürcü Şahnavaz xanı qətlə yetirərək üç min adamla Qəndəhara daxil oldu, qaladakı əsgər və zabitləri amansızlıqla qılıncdan keçirdi (44, s. 32-40; 89, s. 44-50). 1722-ci il martın 8-də İsfahan yaxınlığında Gülnabadda şahın hərbi dəstələrini məğlub edərək İsfahanı mühasirəyə aldı, səkkiz aylıq mühasirədən sonra Mir Veysin oğlu Mahmud (1716-1725) şah taxtına əyləşdirildi (96, s. 2-3; 128, s. 22). Əfqanların üsyanından xəbər tutan Şah Sultan Hüseyn Tehrandan çıxıb İsfahana yollandı və Məşhəd yolu ilə Qəndəhara gəlib çataraq orada düşərgə saldı. Başına ordu toplayıb qoşunun başında şəxsən özü olmaqla əfqanlarla döyüşə başlamaq istədi, lakin canına birdən qorxu düşdü, ona görə də Məşhədi ziyarət edib geri qayıtdı. Şahın bu hərəkəti tutduqları mövqelərini daha da möhkəmlətmək üçün əfqanlara bir fürsət oldu (43, s. 24-28). Özünə yeni güc toplayan Şah Sultan Hüseyn əlavə qoşunla birlikdə yenidən İsfahana üz tutdu, əfqanlarla müharibəyə başladı və girdiyi döyüşdə məğlub olaraq yenidən geri qayıtmağa məcbur qaldı (43, s. 28-46). Mahmud məğlubiyyətə uğratdığı Şah Hüseyndən İsfahanın qeyd-şərtsiz təslim edilməsini istədi və 1722-ci ilin oktyabr ayında Səfəvi şahı öz tacını üsyançı Mahmudun başına qoymaqla onun bu istəyini yerinə yetirmiş oldu (86, s. 55-56; 111, s. 311).

Beləliklə, bu tarixi rüsvayçılıqdan sonra Azərbaycan ərazisinin bir hissəsinin üsyançıların əlinə keçməsi, eləcə də mərkəzi hakimiyyətin getdikcə tənəzzülə uğraması nəticəsində əsrlər boyu bu torpaqlarda gözü olan qonşu dövlətlərin bölgəni işğal etməsi üçün əlverişli şərait yaranmış oldu. Azərbaycan digər dövlətləri özünün təbii sərvətləri, mühüm strateji mövqeyi, dörd tərəfə uzanan ticarət yolları, ucsuz-

bucaqsız yaylaları, bol suları və burada mövcud olan doqquz iqlim qurşağının təsərrüfat işləri üçün yaratdığı münbit şəraiti ilə daim cəlb etmişdir. Bəlkə də, elə buna görə A.P.Volınski Azərbaycan haqqında yazırdı: "Bütün İran dövlətində mən Türkiyə sərhədindən başlayaraq İrəvan və Təbrizi ən yaxşı əyalətlər sayıram. Orada taxıl qıtlığı görmədim, alış-veriş baxımından da İrana az fayda vermirlər, çünki Türkiyədən gələn böyük karvanlar (bir neçə yüz dəvə ilə) oraya axışır, çoxları da gümüş gətirərək Təbriz ustalarına ondan İran pulu çəkdirir, sonra isə bu hazır pula İrandan istədikləri malları, ən çox da ipək alırlar... Xəzər dənizinə yaxın əyalətlərdən Şirvan və Gilan iranlılara böyük fayda gətirir. Mən çox yerlərdə oldum, amma onlardan qazanclısını görmədim. (Şirvanda) yaşayış yerləri çox, əhali sıxdır, hamısının da azuqəsi var, həqiqətən də, bu torpaq çox bərəkətli, çörəyi isə boldur, üzüm və başqa çeşidli mer-meyvəni heç Türkiyə vilayətində də görmədim; burada, xüsusən dəniz yaxınlığında istənilən qədər meşəliklər, bunlar bir yana, saysız yırtıcı heyvan və quş var; mal-qara və balıq da çoxdur, ən çox da ipək işinə maraq göstərirlər, istər dəniz yaxınlığında, istərsə də Kür çayına kimi olan yerlərdə çoxlu barama yetişdirilməkdədir və ipək fabriki olmayan az kənd var" (28, s. 464).

Avropa dövlətlərinə Azərbaycanın çox məşhur ipəyindən əlavə, pambıq, növbənöv parçalar, quru meyvələr və bəzək əşyaları ixrac olunurdu. Osmanlı dövləti Azərbaycandan dəvə karvanları ilə neft aparır, bu nefti dəniz savaşında rus gəmilərini yandırmaq üçün istifadə edirdi (120, s. 23). Rusiya isə Azərbaycana bir neçə növdə kürk, kağız, kəhrəba, iynə və s. kimi mallar göndərir, əvəzində buradan yanacaq, metal, kükürd, ipək, yun, pambıq, qızıl boya, çeşidli parçalar, duz, balıq kürüsü, çaxır, qızıl-gümüş, mis və s. idxal edirdi (127, s. 58). Bu gənc imperiya Azərbaycanı həm də

iqtisadi-ticari mənafe baxımından yeni qazanc və xammal qaynağı kimi görür, bu bölgəni ələ keçirmək, buradan cənubi Avropaya və cənub-şərqi Asiyaya yol açmaq, Osmanlı imperiyası və Səfəvi dövləti arasında əhəmiyyətli mövqeyə yiyələnmək, strateji əhəmiyyət verdiyi böyük planı – hərbi donanmasını Xəzər dənizində yerləşdirmək və Fars körfəzində limanlara yiyələnmək arzusunu reallaşdırmaq istəyirdi.

Çökməkdə olan Səfəvi dövlətinin bu ağır günlərində Şah Sultan Hüseyn Rusiyadan kömək almaq üçün onunla yaxınlaşmaq qərarına gəldi. Bu məqsədlə o, “dostluq və ticarət müqaviləsi” bağlamaq üçün 1713-cü ildə Fəzlulla bəyi Peterburqa göndərdi. Bu müraciət əslində I Pyotra özünün Şərq siyasətini reallaşdırması üçün gözəl bir fürsət yaradırdı. Həmin dönəmdə Türkiyə ilə uğursuz müharibə aparan rus dövləti 1711-ci ildə imzalanmış Prut müqaviləsinin şərtlərinə uyğun olaraq Qara dənizə çıxışdan əlini üzmüş və ümidini Xəzər dənizi hövzəsinə bağlamışdı (46, s. 12). I Pyotr bu məqsədlə 1714-cü ildən başlayaraq Xəzər dənizinin qərb sahillərini araşdırmaq üçün əraziyə xüsusi ekspedisiya yollamış, Şirvandan keçən karvan yollarının güzərgahının dəqiq öyrənilməsi məqsədilə özünün yaxın adamlarından birini A.P.Volınskini elçi kimi İsfahana göndərmişdi. I Pyotr, eyni zamanda A.P.Volınskiyə gizli, həm də xüsusi tapşırıq vermişdi. O, karvan yolları boyunca otlaqların olub-olmamasını, Xəzər dənizinə tökülən çayların vəziyyətini və bu çaylarda gəmilərin üzmə imkanlarını, bölgədəki qalaların möhkəmliyini, yerli qoşunların və müdafiə qurğularının vəziyyətini öyrənməli, buradakı xristianlarla əlaqə yaratmalı idi.

Yola düşməsi haqqında 1715-ci ildə qərar verilən A.P.Volınski hazırlıq işlərinə bir il vaxt sərf olunduğundan,

Həştərxana 1716-cı ildə gəlib çatdı və burada səfər üçün ayrılmış üç böyük gəmi ilə yoluna davam edərək Azərbaycanın Niyazabad limanına yanaşdı (27, s. 350).

Həmin vaxt Şirvanda baş verən ara-sıra üsyanlar səbəbindən Şirvan bəylərbəyi Keyxosrov rus elçisinin təhlükəsizliyini təmin etmək məqsədilə onu müşayiət etməyə 200 nəfərdən ibarət süvari dəstə göndərdi. Niyazabaddan Şamaxıya gəlib çatan qonağı təntənəli şəkildə qarşıladılar, hətta onun şərəfinə qala divarlarında yerləşdirilmiş toplardan yaylım atəşləri də açıldı. A.P.Volınski burada üç aydan artıq qalaraq dövlətini maraqlandıran məlumatları toplamaqla yanaşı, həm də illərdən bəri Şamaxıda məskən salmış rus tacirlərinin fəaliyyət problemlərini qaydaya salmağa çalışdı. Belə ki, Şamaxıdakı rus tacirləri elçinin gəlişini eşidərək ona şikayətlə müraciət etmiş, yerli tacirlərin və hakimlərin mərkəzi hökumətlə hesablaşmamaları barədə məlumat vermiş, mallarının ya zorla ucuz qiymətə alınması, ya da verdikləri borcların qaytarılmamasını çatdırmışdılar. A.P.Volınski tacirlərin şikayətləri əsasında Şamaxıda və Niyazabad limanında rus tacirlərinin yerli hakimlər tərəfindən incidilməməsi barədə rəsmi məktub yazıb Şirvan bəylərbəyi Keyxosrova göndərdi. Bəylərbəyi rus elçisinin məktubunu ehtiramla qəbul etsə də, heç bir tədbir görmədi, bunu görən rus elçisi şahdan Şamaxıda Rusiya konsulluğunun açılmasına icazə almağa müyəssər oldu (94, s. 51-52).

Şamaxını tərk edib İsfahana yola düşən A.P.Volınski yolboyu bir çox çətinliklərlə qarşılaşdı. O, üsyanlar səbəbindən Əhərə daxil ola bilməmiş, Təbriz istiqamətində hərəkət etməyə məcbur qalmışdı. Təbriz bəylərbəyi rus elçisini böyük ehtiramla qarşıladığından bu haqda A.P.Volınski öz gündəliyində təbrizliləri tərifləmiş, daha sonra isə buradan yollanaraq təntənəli şəkildə İsfahan şəhərinə daxil olmuşdu.

A.P.Volınski öz etimadnaməsini Şah Sultan Hüseynə təqdim etdikdən sonra etimad üd-dövlə Fətəli xanla görüşlər keçirərək müxtəlif məsələlərlə bağlı danışıqlar aparmış, İranla Rusiya arasında mövcud olan ticarət əlaqələrinin genişləndirilməsi barədə bir sıra təkliflər irəli sürmüşdü (94, s. 46-58).

Rus elçisi İsfahanda olduğu müddətdə gizli şəkildə dövlətin daxili vəziyyəti və şah ordusunun durumu və dislokasiyası barədə xeyli məlumat toplamış, onu şifrələnmiş məktubla Peterburqa, qraf Qolovkinə göndərmişdi. Məktubların birində o, I Pyotra Xəzər dənizi üçün nəzərdə tutulmuş gəmilərin Kazan şəhərində daha sürətlə inşa olunmasını tövsiyə etmiş, Rusiya – Səfəvi ticarətində Azərbaycanın Şamaxı, Dərbənd, Bakı və Şabran şəhərlərinin, habelə Niyazabad limanının mühüm rol oynadığını xüsusi vurğulamışdı (94, s. 53).

Şah hökuməti ilə ticarət müqaviləsi bağladıqdan sonra Rusiyaya qayıtmaq qərarına gələn A.P.Volınski əvvəlcə quru yolla Rəştə yollanmaq, oradan gəmi ilə Həştərxana üzmək və beləliklə də, yolüstü Gilan haqqında da kəşfiyyat məlumatları toplamaq istəyirdi. Lakin şah məmurları gec də olsa, ayıldılar və rus elçisinin əsl niyyətini başa düşdülər. Bu səbəbdən də ona yalnız gəldiyi yolla qayıtmağa icazə verildi. Şamaxıya 1717-ci ildə qayıdan A.P.Volınski yolların açılmasını gözləyərək səkkiz ay da burada qaldı və bu müddət ərzində I Pyotrun göstərişinə əsasən, Cənubi Qafqazın xristianları ilə görüşlər keçirdi, Kartlinin gələcək çarı VI Vaxtanqın nümayəndəsini qəbul etdi. Daha sonra, erməni tacirləri ilə görüş zamanı onlar Rusiya elçisinə gizlicə Dərbənd qalasının planını təqdim etdilər. Bu "hədiyyə" bölgəyə yürüşə hazırlıq ərəfəsində olan I Pyotr üçün böyük hərbi-siyasi əhəmiyyət daşıyırdı (27, s. 353).

A.P.Volınski Səfəvi dövlətinin karvan yollarının vəziyyəti ilə müəyyən qədər tanış olub öz gündəliyini xeyli zənginləşdirsə də, Şamaxıdan Həştərxana gedən yolu öyrənə bilməmişdi. O, Rusiya ilə həmsərhəd olan vilayətlərin karvan yolları haqqında ətraflı məlumat əldə etmək üçün öz dəstə üzvlərindən birini – zadəgan A.Lopuxini həmin istiqamətə göndərməyi qərarlaşdırdı. A.Lopuxin karvan yolu ilə Rusiyaya göndərilməsinin səbəbini belə açıqlayırdı ki, guya İran şahının I Pyotr üçün hədiyyəsi olan fili və iki bəbiri Həştərxana gəmi ilə yollamaq mümkün deyildir. A.Lapuxini yola salarkən ona xüsusi jurnal tərtib etməyi və həmin jurnala Niyazabad limanından Həştərxana gedən yolda müşahidə etdiklərini qeydə almaq tapşırılmışdı.

A.Lopuxini yola saldıqdan bir az sonra Azərbaycan torpağını tərk edən A.P.Volınski Həştərxana çatan kimi birbaşa Peterburqa gedib özünün səfəri barədə I Pyotra məlumat verdi. O, səfər əsnasında gəldiyi qənaəti öz raportunda belə ifadə etmişdi: "İrandakı zəifliyi gördükdən sonra biz heç nədən qorxmadan işə başlaya bilərik, çünki bütöv bir ordu ilə deyil, yalnız kiçik korpus ilə də çətinlik çəkmədən bu əraziləri Rusiyaya qata bilərik" (94, s. 81-82). Beləliklə, A.P.Volınskinin xidmətindən razı qalan I Pyotr öncə ona polkovnik, sonra isə general-adyutant rütbəsi verərək Həştərxana qubernator təyin etdi və qarşıdakı yürüş üçün hazırlıq tədbirləri görməsini tapşırdı.

1719-cu ilin may ayında Xəzər dənizinin qərb sahillərini öyrənmək üçün kapitan-leytenant Karl fon Verden və leytenant Fyodr Soymonovun rəhbərliyi altında bölgəyə ekspedisiya göndərildi (46, s. 14; 92, s. 10-14). Onlara Dərbənd, Niyazabad, Bakı və Kür sahillərinə xüsusi diqqət yetirmələri tapşırıldı, lakin Salyan əhalisi rus dənizçilərinin məlumat toplamalarına mane oldu. Bu səbəbdən də eyni

tərkibli ekspedisiya ikinci dəfə Kür sahillərinə göndərildi, onlar əvvəl Kür çayının mənsəbində araşdırmalar apardılar, sonra üzərək Astaraya, buradan Ənzəliyə, daha sonra Səfidrud çayı vasitəsilə Fuz çayına və oradan da Astrabada səyahət etdilər.

Ekspedisiyanın topladığı məlumatlar əsasında Xəzər dənizinin qərb və cənub sahillərinin xəritəsi hazırlanıb I Pyotra təqdim edildi, sonra bu xəritəyə dənizin şimal və şərq sahillərinin məlumatları da əlavə olunaraq imperatorun əmri ilə Paris Elmlər Akademiyasına göndərildi (46, s. 19; 120, s. 41).

Daha öncə də qeyd etdiyimiz kimi, 1722-ci ildə əfqan giləzi tayfasının İsfahanda üsyan qaldırması xəbərini alan I Pyotr Xəzəryanı bölgələri işğal etmək üçün hazırlığını başa vurmadan Həştərxana üz tutdu. Buradan Azərbaycan torpaqlarına qədəm qoyan I Pyotr özünü şahın müttəfiqi kimi qələmə verdi, əsl niyyətini gizlədərək buraya yalnız üsyanları yatırtmaq üçün gəldiyini bildirdi və bu məqsədlə türk dilində "Manifest" ("Müraciət") hazırlatdırıb ətraf bölgələrə yaydı (38, s. 78). "Manifest"in məzmunundan aydın olur ki, guya rus ordusunun bu yürüşdə əsas məqsədi Şirvan üsyanı zamanı Şamaxıda qətl və qarətə məruz qalmış rus tacirlərinin intiqamını almaq, habelə Rusiya dövlətinin dostu olan İran şahına qarşı qalxan üsyançılara, xüsusilə də Hacı Davuda və Surxay xana cəza verməkdən ibarətdir. Əslində, Şamaxıda hərc-mərclik zamanı rus tacirlərinə vurulan zərər başlıca məqsədin gizlədilməsi üçün bir bəhanə idi (30, s. 132-133). I Pyotr qoşunu ilə birgə Dərbənd şəhərinə daxil olarkən, ilk növbədə, tacirlər üçün gediş-gəliş yollarını bərpa etdi və onlara bu yollardan təhlükəsiz istifadə edə bilmələri üçün müvafiq fərman təqdim olundu (98, s. 39-43).

I Pyotrun ticarət yollarını bərpa etməsi barədə xəbəri alan Bakı tacirləri öz rifahlarını yüksəltmək və ticarət əlaqələrini genişləndirmək məqsədilə rus çarına məktub göndərərək onu Bakıda gözlədiklərini bildirdilər. Bu dəvət-məktubun müqabilində I Pyotr öz nümayəndəsi F.Lunini Bakıya göndərdi, lakin onu heç şəhərə daxil olmağa qoymadılar. Bakı sultanı Məhəmmədhüseyn xan və bir çox digər əyanlar bunun əleyhinə çıxdılar (98, s. 210-212). F.M.Əliyevin təbirincə desək, bakılıların bu hərəkəti I Pyotru təşvişə salmış və onu bu şəhərlə bağlı planlarını bir müddət təxirə salmağa məcbur etmişdi (93, s. 50).

Həmin dövrdə I Pyotrun əmri ilə gürcü çarı VI Vaxtanq 30 minlik ordu ilə Qarabağ tərəfə yürüş etmiş, burada onun ordusuna Qarabağ katalikosu Yesai Həsən Cəlalyanın başçılığı ilə 8 minlik xristian dəstəsi də qoşulmuşdu. Xristianların birləşmiş qoşun hissələri Gəncəyə çatarkən I Pyotrun geri dönməsi xəbəri gəlmiş, ona görə də VI Vaxtanq yürüşü dayandıraraq Gürcüstana qayıtmalı olmuşdu (108, s. 36).

I Pyotr Xəzərsahili vilayətlərdə möhkəmlənmək üçün Bakıdakı yerli camaatı – azərbaycanlıları köçürüb, onların torpaqlarında erməniləri, gürcüləri və rusları yerləşdirmək, özünə xaçpərəstlərdən ibarət istinadgah yaratmaq istəyirdi (91, s. 13-14). O bununla əlaqədar olaraq Matyuşkinə göstəriş vermişdi ki, erməni tacirlərini, sənətkarlarını və kəndlilərini həmin yerlərə cəlb etsin, onların bu ərazidə yaşaması üçün torpaq ayırsın. Bundan əlavə, I Pyotr ermənilərdən ibarət "Alban çarlığı" yaratmaq istəyirdi və bunu həyata keçirmək niyyəti ilə Qarabağ ermənilərinə Bakı, Dərbənd, Salyan və Gilana köçməyi məsləhət görürdü. Eyni zamanda bu ərazilərdə məskunlaşmaq üçün onlara torpaq və ev-eşik də təklif edirdi (32, s. 253).

I Pyotrun öz planını həyata keçirməsini əngəlləyən təkcə Bakı hakimi Məhəmmədhüseyn xanın rədd cavabı deyildi. Həmin vaxt Xəzər dənizində baş vermiş güclü fırtına nəticəsində rus əsgərlərinin azuqə və sursatı saxlanılan gəmilərin əksəriyyəti dənizdə batmış (36, s. 81; 46, s. 55), şimalda isveçlər Niştad sülh müqaviləsinin şərtlərini pozmağa cəhd etmiş, digər tərəfdən isə onların bu yürüşü Osmanlı sarayının kəskin etirazına səbəb olmuşdu (111, s. 115).

I Pyotr Şamaxıda olarkən Şirvan üsyançılarına rəhbərlik edən Hacı Davud məktubla ona müraciət edərək yardım istəmiş, lakin öz istəklərini həyata keçirmək arzusunda olan imperator bu məktubu cavabsız qoymuşdu. Bunun heç də yaxşı nəticələnməyəcəyini hiss edən Hacı Davud kömək üçün Türkiyəyə üz tutmalı olmuşdu. Öz növbəsində, Hacı Davudun hərəkətindən I Pyotr da ehtiyat edirdi, bu səbəbdən də İstanbuldakı səfiri İ.Neplyuyevə tapşırıq göndərmişdi ki, nəyin bahasına olursa olsun, Hacı Davudun Türkiyənin himayəsinə keçməsinə maneçilik törətsin.

Səfəvi dövlətinin daxilində baş verən ziddiyyətləri, Azərbaycan torpaqlarını bürüyən üsyanları, Xəzəryanı ərazilərə yürüş edən rus imperatorunun hərəkətlərini diqqətlə izləyən Osmanlı sultanı (həm də İslam xəlifəsi), sözsüz ki, Hacı Davudun yardım istəyinə biganə qala bilməzdi. I Pyotr Rusiyaya qayıtdıqdan sonra sultan Hacı Davuda xətti-şərif göndərib bildirdi ki, o, Türkiyənin təbəəliyinə Krım xanı səlahiyyətində qəbul olunur, həmçinin xan titulu verilməklə, Şirvan və Dağıstan hakimi kimi tanınır (22, s. 65). 1722-ci ilin dekabrından Şirvanı öz himayəsinə götürən Osmanlı sultanı bu qərarını Rusiya dövlətinə çatdırmaq üçün hətta Nişli Məhəmməd ağanı Peterburqa göndərdi (87, s. 56-57).

Rus qoşunları 1722-ci ildə Bakı və Şamaxını ala bilməsələr də, I Pyotr yürüşün nəticəsindən razı qalmış və bu işi

davam etdirmək məqsədilə Xəzər sahilinin qərbində yerləşən bütün əyalətləri tutub imperiya torpaqlarına qatmaq üçün buraya hərbi ekspedisiyalar göndərmişdi. Böyük hərbi-strateji və iqtisadi əhəmiyyət kəsb edən Bakı qalasını tutmaq əsas vəzifə hesab edildiyindən bu mühüm iş imperator tərəfindən general-mayor M.Matyuşkinə həvalə olundu. Həmin təlimata görə, M.Matyuşkin Bakını işğal etdikdən sonra cənuba doğru hərəkət etməli, Kür çayının sağında yerləşə bilən qala inşa etdirməli və nəhayət, Neva çayı sahilindəki şəhər kimi şəhər salınmalı idi (32, s. 247, 252).

Bakıya ikinci dəfə yürüş hazırlandığı bir zamanda – 1722-ci ilin oktyabr ayında Səfəvilərin paytaxtının əfqan tayfaları tərəfindən zəbt edilməsi, işğalçıların bununla kifayətlənməyib İranın digər şəhərlərinə basqın etməsi xəbəri Rusiya dövlətinə də çatdı. Artıq Gilan əyalətini də təhlükə gözləyirdi və buranı zəbt etmək istəyən I Pyotr hazırlığı tamamlanmış gəmilərlə vaxt itirmədən Gilan istiqamətində hərəkət etmək əmrini verdi.

1722-ci ilin dekabrında polkovnik Şipovun rəhbərlik etdiyi rus eskadrası Ənzəli limanına daxil oldu və heç bir müqavimətə rast gəlmədən Rəşt şəhərini tutdu. Rəştə daxil olmuş iki min rus əsgərini qarşılayan yerli əhali əfqanlara qarşı mübarizə aparmaq üçün onlara müraciət etsə də, rus əsgərləri "biz az əsgərik və ardımızca çoxlu əsgər gəlir" deməklə min bir bəhanə uydueraq yaxalarını kənara çəkdilər (43, s. 27). Bu hadisədən sonra səkkiz ay İsfahanda yaşamış Jozef Tiflisi Rəşt şəhərində Moskva zabitinin yanına gələrək baş verən hadisələri ona ərz etmiş, bunun müqabilində rusiyalı zabit ona səkkiz altun yol xərci ödəyərək burada qalmasını məsləhət görməmişdi. Jozef Tiflisinin yazdığı əsərdən məlum olur ki, Gilanın havasının ağırlığı rus əsgərlərinə pis təsir etmiş və onlardan bir qismi burada dünyasını dəyişmişdi (43, s. 55).

Bakını tez bir zamanda ələ keçirmək arzusunda olan I Pyotr təxminən 100 000 nəfərlik ordu ilə Həştərxandan üzərək Dərbənd üzərinə yeridi və bu şəhərdə ona müqavimət göstərənləri amansızcasına qətlə yetirdi. Dərbənddə bəzi kəndləri yandırtdıran, sakinlərini qətl edən I Pyotr daha sonra Bakı qalasına üz tutdu, lakin yarı yoldan geri qayıdası oldu. Bir neçə gün davam edən müharibə nəticəsində Bakı qalası ruslara təslim edildi (98, s. 209).

Lokkartın fikrincə, Bakının işğalı I Pyotr üçün ona görə zəruri idi ki, Bakı Xəzər sahilində yeganə təhlükəsiz limandır, Niyazabad yalnız dəniz reydlərini həyata keçirmək üçün nəzərdə tutulmuşdur, Dərbəndə gəlincə isə o, ümumiyyətlə, liman üçün yararlı deyil. Xəzər dənizi I Pyotr üçün həm də ona görə əhəmiyyətli idi ki, onu təkcə Səfəvi dövləti ilə deyil, həm də Fars körfəzi ilə, Cənubi Qafqazı Mərkəzi Asiya və Hindistanla bağlayan yeganə tranzit yolu idi (127, s. 59, 243-244).

Nəzərə çatdıraq ki, hələ əfqanlar İsfahanı mühasirədə saxladıqları zaman Şah Sultan Hüseyn Xəzərsahili vilayətləri Rusiyaya güzəştə getmək müqabilində rus dövlətinin Səfəvilərə hərbi yardım göstərməsi haqqında müqavilə bağlamaq üçün İsmayıl bəyi Peterburqa yola salmışdı (43, s. 54). İsmayıl bəy İranı tərk etməmiş əfqanların İsfahanı tutduğunu, II Təhmasibin özünü şah elan etdiyini duymuş və buna görə də səlahiyyətlərinin yeni şah tərəfindən təsdiqlənməsini vacib sayaraq geri dönmüşdü. II Təhmasib rus qoşunlarının Xəzərsahili bölgələri zəbt etdiyindən xəbərsiz olduğuna görə İsmayıl bəyin ona həvalə olunan tapşırığı yerinə yetirməsinə razılıq verdi. Lakin İsmayıl bəy yola düşdükdən sonra II Təhmasib rus qoşunlarının Rəştdə olması xəbərini eşidib onu geri çağırmaq istəsə də, polkovnik Şipov bunun qarşısını

hiylə ilə aldı. Hadisələrdən xəbərsiz olan İsmayıl bəy rus gəmilərinin birində Peterburqa yola düşdü.

İ.Hammer yazır ki, rus çarının Xəzərboyu vilayətlərə soxulması Qars bəylərbəyi Mustafa paşada şübhə oyatdı, onu təşvişə saldı və ona Şamaxıya doğru irəliləmək əmr olundu (74, s. 297).

Beləliklə, dövlət aparatının zəifliyi və məmurların özbaşınalığı Səfəvi dövlətinin tənəzzül etməsinə gətirib çıxartdı. Bu əlverişli fürsətdən istifadə edən əfqanlar dövlətin paytaxtı İsfahanı ələ keçirdi, digər tərəfdən isə Rusiya dövləti Azərbaycanın şimal ərazilərini işğal etdi. I Pyotr nəyin bahasına olursa olsun Xəzəryanı bölgələri öz nəzarəti altına keçirmək və bu ərazilərə hakim olmaq istəyirdi.

## 1.2. Səfəvi-Osmanlı-Rusiya münasibətləri və onların nəticələri

Osmanlı sultanı III Əhməd (1703-1730) bütün bu təhlükəli hadisələri kənardan diqqətlə izləsə də, ordusunun Səfəvi dövlətinin ərazisinə daxil olması barədə qərar verməkdə çətinlik çəkirdi. Həmin ərəfədə o, hələ Səfəvi dövlətinin ərazisinə girməmək və gözləmə mövqeyi tutmaq barəsində Ərzurum valisinə rəsmi məktubunda da bildirmişdi. Ona görə də Səfəvi şahının taxt-tacını ələ keçirən və özünü şah elan edən əfqan Mir Mahmudun son məqsədi aydınlaşıncaya qədər Ərzurum, Bağdad, Bəsrə, Mosul, Van, Şəhrizor və Çıldır valilərinə hərəkata başlamamaları əmr olundu (17, h.392).

Osmanlı imperiyasının (*Devlet-i Âliyye-i Osmaniyye*) gözləmə mövqeyi tutmasının digər səbəbi isə 1722-ci ilə qədər Avropa dövlətlərinin birləşmiş hərbi qüvvələri ilə apardı-

ğı müharibələr idi ki, bunun nəticəsində 1699-cu ildə Karlofça (Karlovits) müqaviləsinə görə tarixdə ilk dəfə böyük ərazi itkisinə məruz qalmışdı (116, s. 205). Osmanlı imperiyası Avropa ölkələrində itirdiyi torpaqlar uğrunda dəfələrlə müharibə etsə də, onları geri qaytarmaq mümkün olmadı. 1711-ci ildə Pruta, 1718-ci ildə Avstriya və Moreyaya hərbi yürüşlər edən Osmanlı imperiyası üçün yalnız Prut döyüşü uğurla nəticələndi. Digər müharibədə uduzan imperiya 21 iyul 1718-ci ildə İngiltərə və Hollandiyanın vasitəçiliyi ilə Pasarofça (Pojarovets) müqaviləsini imzalamağa məcbur oldu (36, s. 32; 120, s. 29, 82; 122, s. 41-43). Naima da məhz bu səbəblərə görə XVII əsri Osmanlı dövləti üçün geriləmə dövrü kimi xarakterizə etmişdir (80, s. 94).

Osmanlı imperiyası ilə Avstriya arasında siyasi cəhətdən çox əhəmiyyətli olan ikinci bir müqavilə – ticarət müqaviləsi 1718-ci il 27 iyulda imzalandı. Bu ticarət müqaviləsinə əsasən, Osmanlı imperiyasının ərazisindən keçən Avstriya – İran tranzit ticarət yolu ilə mallar sərbəst daşınacaq və bu mallar üçün Osmanlı imperiyasının sərhədində gömrük rüsumlarının şərtləri yüngülləşdiriləcəkdi. Müqavilənin şərtlərinə görə, Avstriyadan İrana və əks istiqamətdə daşınan malların dəyərinin beş faizindən artıq olmamaq şərti ilə gömrük rüsumu alınacaqdı. Məlumdur ki, o dövrdə İrandan ixrac olunan ən dəyərli mal ipək idi və ipək də əsasən Rusiyaya göndərilirdi. Avstriya bu mühüm xammaldan, Osmanlı imperiyası isə ipəyin tranzitindən əldə etdiyi gəlirlərdən məhrum olurdu. Ticarət müqaviləsinin şərtlərinə görə, bu məsələni həll etmək Osmanlı imperiyasına həvalə olundu və o da, öz növbəsində, Dürri Əhməd Əfəndini Səfəvi dövlətinə elçi qismində göndərdi (80, s. 30).

1720-ci illərin sonlarında Səfəvi dövlətinə gələn Dürri Əhməd Əfəndi Kirmanşah, Dərgüzn, Həmədan və Qəzvindən

keçərək Tehran şəhərində Şah Sultan Hüseyn ilə görüşdü. Osmanlı elçisini qəbul edən Şah Sultan Hüseyn 1721-ci il mart ayında ölkənin bəylərbəyilərinə, vəzirlərinə və digər səlahiyyətli şəxslərinə fərman göndərdi. Şah öz fərmanında Avropa ölkələrinə İrandan ixrac ediləcək mallar üçün Osmanlı dövlətinə Ərzurumda, yaxud İstanbulda malların dəyərinin beş faizi həcmində bir dəfə gömrük rüsumu ödənməsi, tacirlərə qarşı isə qanunsuz hərəkət edilməməsi haqqında əmr verdi. Bununla da bütün rəsmi şəxslərə Avropa ölkələri ilə ticarət edən tacirlərə mallarını başqa yollarla deyil, yalnız Osmanlı imperiyasının ərazisindən keçməklə Avropaya aparılmasına yardım etmək tapşırıldı (22, s. 23-24).

Şah Sultan Hüseynin verdiyi fərman Avstriya və Osmanlı imperiyasının maraqlarına uyğun gəlsə də, bu fərmana qədər tacirlərin mallarını ixrac etdiyi Rusiyanın iqtisadi maraqlarına zidd idi və ona ciddi ziyan vururdu. Ona görə də öz iqtisadi maraqlarını həmişə ön planda tutan Rusiya imperiyası bu müqaviləyə biganə qala bilməzdi.

Digər tərəfdən, Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizədə Osmanlı imperiyasını Fransa, xüsusilə də İngiltərə dəstəkləyirdi. Fransız tacirlərin Səfəvi dövləti ilə ticarət aparmaqla yanaşı, onların gəmilərinin Fars körfəzində sərbəst üzmə hüququ vardı. Buna görə də Fransa dövləti Rusiyanın cənuba doğru irəliləyişindən ciddi narahatlıq keçirirdi (91, s. 15). İngiltərənin ticarət kapitalı isə Səfəvi dövlətinə və digər ölkələrə Həştərxandan Xəzər dənizinə daxil olur, sonra quru yolu vasitəsilə Fars körfəzinə çatdırılır və oradan da regionun başqa ölkələrinə daşınırdı (107, s. 177). Bu səbəbdən də Avropa üçün belə tranzit ticarəti böyük əhəmiyyət kəsb edirdi. Ticarət yollarına nəzarəti əldən vermək istəməyən İngiltərənin dövlət katibi Karteret I Pyotrun Hindistandan gələn ipəyin daşındığı ticarət yollarını ələ keçirməsindən

qorxaraq çox böyük canfəşanlıqla İstanbuldakı səfiri S.Stenyana Osmanlı imperiyasını Rusiya dövlətinə qarşı müharibəyə sövq etdirməyi tapşırmışdı. Beləliklə, Osmanlı imperiyasının dövlət məmurları İ.Neplyuyevə dövləti bölgədəki əmin-amanlığı pozduğu təqdirdə buna biganə qalmayacaqlarını bildirdilər. Lakin əfqanların gözlənilmədən İsfahanı ələ keçirməsi və Osmanlı imperiyasının şərq vilayətlərinə doğru hərəkət etməsini görən Bağdad valisi Əyyubi Həsən paşa Kirmanşah istiqamətində hərbi əməliyyatlara başlamaq üçün öz dövlətindən icazə istədi. Peterburqdan qayıtmış Nişli Məhəmməd ağanın Rusiyanın Səfəvi dövlətinə qarşı işğalçılıq yürüşlərinə başlaması barədə gətirdiyi xəbər də Osmanlı imperiyasını hərbi hərəkətə başlamağa məcbur etdi (120, s. 54-66). M.Z.Şeyin dediyi kimi: "...osmanlılar öncə rusların hərbi əməliyyatlarına göz yumsalar da, bu hərəkətlərə qarşı anlaşılmazlıq kimi yanaşsalar da, I Pyotrun işğalçılıq siyasətinə qarşı səssiz qala bilmədilər və bu işdə onlara İngiltərə dövləti dəstək çıxdı..." (107, s. 52)

Səfəvi dövlətinə qarşı hərbi yürüşlərin başlandığı ərəfədə dövlət, əslində, iki yerə bölünmüşdü və burada ikihakimiyyətlilik mövcud idi. Belə ki, Səfəvi xanədanının varisi kimi II Təhmasib (1722-1732) Təbrizdə, üsyançı əfqanların başçısı Mir Mahmud isə İsfahanda şah taxtında əyləşmişdi. Onların hər ikisi öz hakimiyyətini qanuni hesab etsələr də, nə Osmanlı imperiyası, nə də Rusiya dövləti heç birinin hakimiyyətini qəbul etməmişdi.

1723-cü ildən başlayaraq Rusiyanın Dərbəndi və Bakını işğal etdiyini görən Osmanlı imperiyası buna cavab olaraq Səfəvi dövlətinə qarşı üç istiqamətdə – Qafqaz, Azərbaycan və İraq istiqamətində hərbi hərəkata başlamağa məcbur oldu (92, s. 35; 111, s. 115). Sultanın hökmləri ilə Qafqaz istiqa-

mətində sərəsgər Arif Əhməd paşa, Azərbaycan istiqamətində sərəsgər Körpülüzadə Abdulla paşa və İraq istiqamətində sərəsgər Əyyubi Həsən paşa irəliləyirdi (19, h. 230, 237).

Şirvana qədər gəlib çıxan Osmanlı ordusu komandanlığı Rusiya tərəfinin işğalçılıq siyasətindən əl çəkərək Xəzəryanı bölgələri tərk etməsini  təklif etsə də, bu heç bir nəticə vermədi, əksinə, Rusiya dövləti müharibəyə hazır olduğunu bildirdi. Bunu görən Osmanlı imperiyası Rusiya dövləti ilə danışıqlara girməyə, Səfəvi dövlətinin müqəddəratını həll etmək üçün fərqli bir yol axtarmağa başladı.

Rusiya dövləti ilə Osmanlı imperiyası arasında bu mövzuda aparılan danışıqlar Fransanın İstanbuldakı səfiri Markiz de Bonakın vasitəçiliyi ilə həyata keçirildi və altı ay müddətində (yanvar-iyun 1724-cü il) davam etdi (92, s. 67-83). Sultan III Əhməd Rusiyanın Xəzəryanı bölgələrdən geri çəkilməsi üçün Hacı Davuda xüsusi məktublarla müraciət etmişdi (92, s. 34; 114, s. 84). Bu məktublarda Hacı Davuda Rusiyanın ələ keçirmədiyi bölgələri təcili nəzarət altına alması və orada qoşun yerləşdirməsi tapşırılmışdı. Bununla da Osmanlı imperiyası Rusiyanın müharibəyə başlayacağı təqdirdə çıxacaq hərbə hazır olduğunu və öz mövqeyini möhkəmləndirdiyini göstərmək istəyirdi (18, h.209, 215, 339).

Bütün bu tədbirlərə baxmayaraq, Osmanlı imperiyası Rusiyanın işğalı altında olan Xəzər dənizi sahilindən ona qarşı heç bir təcavüz olunmayacağına dair zəmanət istəyir və bu məqsədlə danışıqları davam etdirirdi. Osmanlı imperiyası, nəhayət, istədiyi zəmanəti Rusiyanın İstanbuldakı səfiri İ.Neplyuyevdan Fransa səfiri Markiz de Bonakın vasitəçiliyi ilə əldə edə bildi.

Üç istiqamətdə hərəkətə keçən Osmanlı imperiyası Qafqazda Tiflis və Qorini, İraqda Kirmanşah, Ərdəlan və bir neçə kiçik şəhəri, Azərbaycanda isə Marağa, Salmas, Xoy,

Çorsu, Tasuc və Mərəndi ələ keçirərək Təbrizə yaxınlaşmışdı. Xoy şəhərində olan Köprülüzadə Abdulla paşa Naxçıvanı da ələ keçirmək üçün türk zabitlərinin rəhbərliyi ilə kürd əsgərlərindən ibarət dəstəni Naxçıvana yolladı və beləliklə, Naxçıvan da Osmanlı imperiyasının tərkibinə ilhaq edildi (127, s. 262).

Bununla da 27 iyun 1724-cü ildə Osmanlı imperiyası və Rusiya arasında İstanbulda Səfəvi dövlətinin ərazisinin böyük hissəsinin bölüşdürülməsini nəzərdə tutan müqavilə imzalandı (102, c. 1, s. 58-62). Bu müqaviləyə əsasən, Araz və Kür çaylarının birləşdiyi yerdən başlayaraq şimala doğru olan ərazilər, Şirvanın şərq hissəsi, Bakı, Dərbənd və Xəzər dənizi sahilləri Rusiyaya, Şirvan və Gürcüstan Osmanlı imperiyasına verildi (107, s. 55).

Müqavilədə göstərilirdi ki, Şirvan Osmanlı imperiyasının tərkibinə daxil olsa da, onun burada qoşun saxlamaq hüququ yoxdur, yalnız burada Osmanlı imperiyasına qarşı itaətsizlik hadisəsi baş verərsə, osmanlılar dərhal öz qoşun hissələrini həmin yerə çıxara bilərlər. Bölgədəki qarışıqlıq həll edildikdən sonra ordu hissələri geri çəkməli idi.

İstanbul müqaviləsinə əsasən, Tiflis, İrəvan, Gəncənin bir hissəsi, Naxçıvan, Təbriz, Marağa, Xoy, Urmiya, Çors, Salmas, Sinə, Həmədan və Kirmanşah şəhərləri Osmanlı imperiyasının payına düşürdü.

Müqavilənin digər bir şərtinə görə, Şah II Təhmasib Səfəvi dövlətinin bu ərazilərinin bölüşdürülməsinə razılığını bildirdiyi təqdirdə, Osmanlı imperiyası və Rusiya onun Səfəvi dövlətinin qalan ərazisi üzərindəki hakimiyyətini tanıyacaqdı. Şah II Təhmasib bu maddəyə əsasən, Osmanlı imperiyasının payına düşmüş ərazilərin ona qaytarılmasında is-

rar edərsə, Rusiyanın müqavilənin bu maddəsini Şah II Təhmasibə qəbul etdirməkdə Osmanlı imperiyasına yardım göstərəcəyi də nəzərdə tutulurdu (87, s. 158-159).

Müqavilənin başqa bir maddəsində qeyd edilirdi ki, əgər İranda başqa bir nəsil hakimiyyətə gəlsə və iki dövlətin tabeçiliyinə verilmiş torpaqları geri qaytarmaq istəsə, Rusiya və Osmanlı imperiyası birlikdə buna qarşı çıxacaqlar.

Həmçinin Şah II Təhmasib Səfəvi torpaqlarının müqavilənin şərtlərinə uyğun bölüşdürülməsini qəbul edəcəyi təqdirdə Rusiya və Osmanlı imperiyası əfqanların Səfəvi ərazisindən çıxarılması məsələsində ona lazımi köməklik edəcəklərini boyunlarına götürmüşdülər.

Müqavilənin ən mühüm şərtlərindən biri də bu idi ki, Şah II Təhmasib müqavilədə göstərilən ərazilərin Rusiyanın və Osmanlı imperiyasının tərkibinə keçməsinə qarşı çıxarsa, Rusiya və Osmanlı imperiyası həmin əraziləri zor gücünə alacaq, Səfəvi dövlətinin daxili işlərinə müdaxilə etmədən yeni şahın taxta çıxmasını gözləyəcək və müqaviləni ona qəbul etdirəcəklər (53, s. 45; 87, s. 158-169; 120, 81-83; 28, 483-484).

Bəzi türk tədqiqatçılarının fikrincə, osmanlılar bu sülh müqaviləsini bağlamaqla Rusiyanın Azərbaycanda işğalçılıq siyasəti həyata keçirməsinin qarşısını aldı və bunun nəticəsində o yalnız Xəzəryanı bölgələri ələ keçirməklə kifayətləndi (107, s. 55). İ.Hammer Səfəvi dövlətinin ərazilərinin iki ölkə arasında bu formada bölüşdürülməsini ədalətsizlik hesab etmişdi (107, s. 56). L.Lokkart isə belə bir fikir irəli sürür ki, bu anormal sövdələşmədir, belə ki, qatı müsəlmanlığın olduğu Dağıstan və Şamaxı bölgələri xristian çarın hökmranlığına keçdi, müsəlman olan Osmanlı sultanına isə xristianlığın əsas din olduğu Gürcüstan verildi (127, s. 236).

Sözsüz ki, Şah II Təhmasib haqlı olaraq İstanbul müqaviləsinə öz etirazını nümayiş etdirdi və bu müqavilənin heç bir şərtinə əməl etməyəcəyini bildirdi. Əslində, həmin dönəmdə Şah II Təhmasibin hakimiyyəti altında yalnız Təbriz, Ərdəbil, Tehran, Qəzvin, Rəşt, Zəncan, Qum və Xəzər dənizinin cənub əraziləri qalmışdı. Səfəvi dövlətinin digər torpaqlarının bir hissəsi Rusiya, bir hissəsi əfqanlar tərəfindən işğal edilmiş, yerdə qalan digər ərazilərdə isə Osmanlı imperiyasının qoşunları dayanmışdı.

Nəzərə çatdıraq ki, İstanbul müqaviləsi rus-osmanlı münasibətlərinə aydınlıq gətirsə də, səfəvi-osmanlı münasibətlərinin daha da gərginləşməsinə səbəb oldu. Beləliklə, Osmanlı imperiyası Səfəvi dövlətinin qalan ərazilərinə doğru yeni yürüşlərə başladı. Osmanlılar öncə Ordubadı, daha sonra isə Gəncə şəhərini tamamilə öz nəzarətləri altına aldılar və bununla da 1725-ci ilin avqust ayında Araz çayından şimalda olan bütün ərazilər səfəvilərin hakimiyyətindən çıxaraq Osmanlı dövlətinin ərazilərinə ilhaq edildi.

Osmanlılar İraq istiqamətində irəliləyərək Həmədanı, Nəhavəndi və Luristanın mərkəzi olan Hürrəmabadı ələ keçirməklə çox böyük hərbi uğurlar qazandılar. Bu istiqamətdə hərəkət edən osmanlılar artıq əfqanlara yaxınlaşdılar.

İstanbul müqaviləsinin imzalanmasına qədər Təbriz şəhərinə qədər gəlib çatan osmanlılara qarşı Şah II Təhmasib qoşun çıxarmış və şəhərin müdafiəsinə qalxmışdı. Təbrizin Osmanlı ərazisinə qatılmasına böyük önəm verən Sultan III Əhmədin Körpülüzadə Abdulla paşaya göndərdiyi fərmanda deyilirdi ki, qışı Təbriz ətrafında keçirmək lazım gəlsə belə, bu qalanı əldə etmək olduqca vacibdir. Eyni zamanda Sultan III Əhməd Bağdad valisinə də Təbriz qalasının alınması üçün fərman yollamış və onu köməyə çağırmışdı. Lakin köməyə ehtiyac olmadı, 28 iyul 1725-ci ildə osmanlılar Səfəvi ordusu

üzərində qələbə qazanaraq şəhərə daxil oldular, amma küçələrdə beş gün ərzində müqavimətlə rastlaşdılar. Küçə döyüşlərindən sonra osmanlılar Təbrizi tam ələ keçirdilər və hakimiyyətlərini qəbul etməyənlərə şəhəri üç gün ərzində tərk etmələri barədə əmr verdilər (96, s. 17-20). L.Lokkart qeyd edir ki, İrəvan və Təbriz Səfəvi dövlətinin ən möhkəm qalaları olan şəhərləri idi və burada ən güclü nizami ordu yerləşdirilmişdi (127, s. 236). Osmanlılar daha sonra avqust ayında Gəncə şəhərini, payız aylarında isə bir-birinin ardınca Qəzvini, Urmiyanı və nəhayət, dekabr ayında Ərdəbili ələ keçirməklə Azərbaycan torpaqlarının böyük bir hissəsini öz imperiyalarına ilhaq etmiş oldular (36, s. 123).

Nəzərə çatdıraq ki, saysız-hesabsız döyüşlərdən, qanlı üsyanlardan cana doyan Marağa əhalisi şəhərin qapılarını 1724-cü il mart ayının sonlarında osmanlıların üzünə açmışdı (66, s. 42). Lakin Soyuqbulaq əhalisi Osmanlı imperiyasına qarşı müqavimət göstərmiş, bunun müqabilində də osmanlılar altı yüz nəfərdən ibarət ordu ilə onların üzərinə hücuma keçmişdilər. Osmanlıların nizami ordusu türk, kürd, ərəb, fars əşirətlərindən və digər tayfalardan təşkil olunmuş bir ordu idi. Onların buraya yürüşünü görən ruslar Qoşaçaya (Miyandoaba), oradan da Ənzəli limanı vasitəsilə geriyə qayıtdılar. Sultaniyyə şəhərindən toplanmış Osmanlı ordusunun tərkibindəki kürdlər Soyuqbulaqda yerli əhalinin bir hissəsini qətlə yetirmiş, habelə burada yaşayan yəhudi ailələrinin evlərini qarət etmişdilər. Daha sonra isə Osmanlı ordusu Soyuqbulaqda üç hissəyə bölünərək bir hissəsi Urmiyaya, bir hissəsi Marağaya, digər hissəsi isə Təbrizə tərəf irəliləmişdi (144, s. 35-36).

Göründüyü kimi, 1723-1725-ci illər ərzində Osmanlı imperiyası Xəzər dənizi sahillərini çıxmaq şərti ilə Səfəvi

dövlətinin geostrateji və iqtisadi baxımdan ən mühüm hissəsi olan Azərbaycanı tamamilə öz ərazilərinə ilhaq etmiş və burada öz üsul-idarələrinin tətbiqinə nail olmuşdu.

Yeni fəth etdikləri Azərbaycan torpaqlarında osmanlıların öz üsul-idarələrini tətbiq etdiyi illər ərzində (1725-1735-ci illər) əfqanlarla baş vermiş hərbi qarşıdurmadan sonra yaranan münasibətlərdə gərginlik hələ də davam edirdi. Yerli əhali əfqan özbaşınalığına tab gətirmir, onlara qarşı qiyama qalxırdı. Hətta bu üsyanlar Qəzvində və Hansarda bir neçə min əfqanın qətli ilə nəticələnmişdi (110, s. 85). Bir tərəfdən Səfəvi şahı II Təhmasib, digər tərəfdən isə əfqanların başçısı Mir Mahmudu əvəz etmiş Əşrəf şah İran taxt-tacı uğrunda mübarizədən əl çəkmir, osmanlılara qarşı çıxır və torpaqların geri qaytarılmasını tələb edirdilər (19, h. 34, 145, 352; 86, s. 58; 110, s. 85).

Təbii ki, osmanlılar əfqanların iddiasını qəbul etmədilər və əksinə, Əşrəf şahla müharibəyə başlamaq üçün fətva da aldılar (19, h. 388). Bu fətvanı aldıqdan sonra osmanlılar ruslarla əlaqəyə girdi və əfqanlarla mübarizə aparan Şah II Təhmasibə hərbi yardım göstərmək qərarına gəldilər. Ruslar da, öz növbəsində, osmanlılarla birləşərək Səfəvi şahına yardım etməyi öz boyunlarına götürdülər və bu məqsədlə Dərbənddən 10 min piyada və 10 min atlı göndəriləcəyini bəyan etdilər. 1726-1727-ci illərdə hər iki dövlətin hərbi müdaxiləsi nəticəsində Əşrəf şah məğlub oldu, osmanlılar hərbi cəhətdən üstün olduğuna görə, Əşrəf şah osmanlılarla müqavilə imzalamaq məcburiyyətində qaldı. Bu müqaviləyə əsasən, Əşrəf şah osmanlılara qarşı torpaq iddiasından əlini üzdü və bu ərazilərin Osmanlı imperiyasına aid olduğunu qəbul etdi (90, s.186).

Təbriz və Ərdəbilin Osmanlı imperiyasına ilhaq edildiyi dövrdən etibarən Nadir şahın (1689-1744) hakimiyyətə gəlməsinə qədər Azərbaycanın bir çox yerlərində osmanlılara qarşı hərbi müqavimət hərəkatı baş qaldırmışdı. Bu illər ərzində osmanlılar onlara qarşı ayağa qalxmış şahsevənlər, şəqqakilər, təkəlilər, sabunçular, hacıishaqlılar, çəndruzlar və digərləri ilə mübarizə aparmağa məcbur qalmışdılar.

Qeyd etmək lazımdır ki, osmanlılar fəth etdikləri hər bir ərazidə tezliklə özlərinin üsul-idarə sisteminin tətbiqinə başlayırdılar, lakin 1725-1730-cu illər ərzində Azərbaycanda bunu etmək bir qədər çətin şəraitdə mümkün olmuşdur. Belə ki, 1730-1735-ci illərdə Nadir (Nadirqulu xan) osmanlılara qarşı bir neçə uğurlu yürüş keçirmiş və onların bu ərazilərdən çıxmasını tələb etmişdi (86, s. 59; 110, s. 93). 1730-cu ildə İsfahanı ələ keçirən Nadir Şah II Təhmasibi taxta oturtdu (25, c. 1, s. 65). Bununla da o, Şah II Təhmasibi hərbi cəhətdən dəstəklənmiş, Osmanlı imperiyası ilə mübarizəyə sövq etmişdi. Beləliklə, Nadir tərəfindən hərbi dəstək alan Şah II Təhmasib Osmanlı imperiyasından bu ərazilərdən çıxmasını və Azərbaycan torpaqlarını tərk etməsini tələb etdi. Səfəvi şahının atdığı bu addımı görən Sultan III Əhməd təşvişə düşdü, Bağdad valisi Əyyubi Həsən paşaya Həmədanın müdafiəsini gücləndirmək barədə fərman göndərdi. Lakin böyük vəzir İbrahim paşa iki dövlət arasında münasibətləri yumşaltmaq məqsədilə Şah II Təhmasibin elçisi Rzaqulu xanı qəbul etdi. Müqavilə imzalamaq üçün şərtləri onunla birlikdə nəzərdən keçirdi. Aparılan danışıqların nəticəsinə görə, Osmanlı imperiyası Həmədanı, Kirmanşahı, Ərdalanı, Hüveyzəni və Luristanı Səfəvi dövlətinə qaytaracaq və bu qaytarılan ərazilərin müqabilində Səfəvi şahı hər il Osmanlı xəzinəsinə yüz min qızıl pul

göndərəcəkdi. Digər ərazilər üzərində isə Osmanlı hakimiyyətinin hüququnun tanınması barədə razılıq əldə edilmişdi (36, s. 147). Lakin Nadir osmanlılar və Şah II Təhmasib arasında əldə olunmuş bu razılığı qəbul etmədi və on minlik qoşunla hücum edərək öncə Fərhanı, sonra isə Həmədan və Təbrizi geri qaytardı (96, s. 27-42).

Sultan III Əhməd Nadirin hərbi müdaxiləsini cavabsız qoymaq istəmədi, ordunun başında şəxsən özü olmaqla, valiləri ilə birlikdə Nadirə qarşı müharibəyə hazırlaşmağa başladı. Bu ərəfədə İstanbulda Patrona Xəlil paşa üsyanının baş qaldırması, böyük vəzirin edam edilməsi və sonda Sultan III Əhmədin taxtdan salınması ilə bütün bu hazırlıqlar yarımçıq qaldı (37, s. 23; 57, s. 5-7). Osmanlı imperiyasında yaranmış vəziyyət, bir tərəfdən də Nadirin osmanlılara qarşı qətiyyətli çıxışı Osmanlı imperiyasının əleyhinə bir dönüş oldu və demək olar ki, Azərbaycanda Osmanlı hakimiyyətinin sonu başladı.

1730-cu ilin dekabr ayında Şah II Təhmasib iki yüz minlik əsgərlə birlikdə İsfahandan hərəkət etməyə başladı. 1731-ci ilin fevral ayında Təbrizə gələn şah Rəvana doğru yola düşməyə hazırlaşarkən yeni sultanın taxt-taca əyləşməsini bəhanə edərək Vəliquluxan adlı elçisini İstanbula göndərdi. Elçi ilə Osmanlı dövlət adamları arasında sülh müzakirəsi edilsə də, heç bir nəticə əldə edilmədi (65, s. 207).

Bu dönəmdən etibarən Osmanlı imperiyası itirdiyi torpaqları geri qaytarmağa və həmin ərazilərdə hakimiyyətini möhkəmlətmək üçün yeni hərbi yürüşlərə başladı. İraq və Azərbaycan istiqamətində hərəkət edən osmanlılar 1731-ci ildə Kirmanşah, Həmədan, Urmiya və Təbrizi geri qaytara bildilər və bunu görən Şah II Təhmasib sülh bağlamağa razılıq verdi. Müqavilənin şərtinə görə, Araz çayı sərhəd böl-

gəsi seçildi, Araz çayından şimalda olan ərazilər osmanlılara, Araz çayından cənubda olan ərazilər isə Səfəvi dövlətinə verildi. 1732-ci ildə imzalanmış bu müqaviləni Nadir qəbul etmədiyini bildirdi və buna etiraz olaraq Şah II Təhmasibi taxtdan endirdi, onun hələ qundaqda olan oğlu Abbası şah, özünü də ona vəkil elan etdi. Beləliklə, Nadir müqaviləni rəsmi şəkildə tanımadığını nümayiş etdirərək osmanlıları hərb meydanına çağırdı və bu barədə fikirlərini məktubla Bağdad valisi Əyyubi Həsən paşaya göndərdi.

1732-1735-ci illər ərzində Nadirin başladığı hərbi yürüşlər Osmanlı – Səfəvi münasibətlərinin həllinin sonuncu mərhələsi idi. Bu mərhələdə baş verən döyüşlərdə gah Osmanlı imperiyası, gah da Nadir qələbə qazansa da, artıq Osmanlı ordusu nisbətən gücünü itirmişdi. Yaranmış vəziyyətdən məharətlə istifadə edən Nadirin ordusu yavaş-yavaş irəliləyərək öncə Cığatu çayını keçərək Miyandoabda Osmanlı qoşunu üzərində qələbə çaldı. O, Dimdim, Soyuqbulaq, Marağa və Dib-Hərəkanı geri qaytarmağa müvəffəq oldu (77, s. 737). Bundan ruhlanan Nadir hərbi yürüşlərini davam etdirdi və 1735-ci il iyunun 14-də Arpaçay döyüşündə osmanlılar üzərində yenidən zəfər çaldı. Bundan sonra Nadir bir-birinin ardınca Gəncəni, İrəvanı, Tiflisi ələ keçirdi və Gəncə-Qarabağ valisi Gənc Əli paşa vasitəsilə osmanlılara sülh müqaviləsi imzalamağı təklif etdi (20, h. 61).

Beləliklə, Osmanlı hakimiyyətini təmsil edən Gənc Əli paşa və Nadir şahın adından danışıqlara başlayan Mirzə Məhəmməd Muğan düzündə təşkil edilmiş qurultayda müqavilənin şərtlərini hazırladılar. Osmanlı tərəfi Sultan IV Muradın dönəmində mövcud olmuş sərhədləri yenidən bərpa etmək təklifini irəli sürdü və bunu qəbul edən Nadir şahın təmsilçisi isə qarşı tərəfə öz şərtlərini təqdim etdi. Təklif edilən şərtlərə əsasən, həccə gedənlərdən bac alınmamalı, cəfəri

məzhəbi beşinci məzhəb kimi osmanlılar tərəfindən tanınmalı, İstanbul və İsfahan şəhərlərində hər üç ildən bir digəri ilə əvəzlənəcək şahbəndlər (konsullar) təyin olunmalı və ən əsası, hər iki tərəf əsirləri sərbəst buraxmalı idi. İrəli sürülən təkliflərdən osmanlılar yalnız birini – cəfəri məzhəbini beşinci məzhəb kimi tanımağı rədd etdi, lakin digər şərtlər hər iki tərəfdən qəbul edildi (20, h. 61; 21, h. 10; 57, s. 10-14; 83, s. 55-56).

Bununla da imzalanmış sülh müqaviləsi nəticəsində Osmanlı imperiyası ilə son dərəcə gərginləşmiş münasibətlər barışıq yolu ilə həllini tapmış oldu. Səfəvi dövlətinin iqtisadi-hərbi zəifliyindən, mərkəzi hakimiyyətin boşluğundan işğalçılıq niyyəti ilə istifadə edən Rusiya dövləti də, öz sərhədlərini və İslam xəlifəsi olaraq müsəlman azərbaycanlıları ondan qorumaq adı ilə Azərbaycan torpaqlarına daxil olan Osmanlı imperiyası da bu ərazilərdə uzun müddət qala bilmədi. Şah II Təhmasibə hərbi cəhətdən böyük yardım edən Nadir xan fövqəladə sərkərdə istedadı nümayiş etdirərək işğalçılara qarşı qəhrəmanlıqla savaşdı və ölkəsini real parçalanmadan xilas etmiş oldu. Rusların Xəzəryanı bölgələri, Dərbənd və Bakı qalalarını "könüllü" şəkildə tərk etməsi isə Nadirin görünməmiş hərbi-diplomatik strategiyasının parlaq nümayişi idi.

# II FƏSİL

# AZƏRBAYCANDA OSMANLI İDARƏ SİSTEMİNİN TƏTBİQİ VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

## 2.1. Osmanlı inzibati bölgüsünün əsas xüsusiyyətləri

Osmanlı imperiyası ilə Rusiya arasında 1724-cü ildə İstanbulda bağlanmış müqaviləyə əsasən, Azərbaycanın bir sıra əraziləri ilə yanaşı, Marağa və Soyuqbulaq livaları da Osmanlı hakimiyyəti altına keçdi. Osmanlı dövlətinin tərkibinə yeni daxil olan digər ərazilərdə olduğu kimi, Azərbaycan torpaqlarında da Osmanlı üsul-idarəsinin tətbiqinə başlandı. Osmanlı idarə sistemi üç əsas tərkib hissədən ibarət idi: birincisi və ən önəmlisi, fəth edilən yeni əraziləri imperiyanın digər əyalətlərindəki sistemə uyğunlaşdırmaq üçün burada struktur baxımından yenidən ərazi bölgüsü aparmaq; ikincisi, maliyyə məsələlərinə nəzarət üçün yeni ərazilərdə bütün gəlir mənbələrini aşkarlamaq; üçüncüsü, qayda-qanunların tətbiqi və onların icra olunması üçün şəriət məhkəmələrinin fəaliyyətini təmin etmək. Sözsüz ki, sadalanan böyükmiqyaslı işlər təyin edilmiş məsul şəxslər tərəfindən təsbit edilmiş zaman kəsiyində icra olunurdu. Bu proses bir neçə il ərzində həyata keçirildi (73, s. 73-77).

Osmanlı üsul-idarə sistemi "*taşra*" (yəni yerli idarəetmə) sistemindən ibarət idi ki, burada da hərbi-inzibati idarəçiliyə nəzarət üçün *bəylərbəyi*, məhkəmə işlərinin icrası üçün *qazı*, maliyyə məsələlərinin yerinə yetirilməsi üçün isə

*dəftərdar* təyin edilirdi. Osmanlılar inzibati bölgüyə xüsusi diqqət ayırdıqları üçün ilhaq olunmuş yeni əraziləri aşağıdan yuxarıya – kənd (karye), nahiyə, qəza, sancaq və yaxud liva, nəhayət, əyalətə bölürdülər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Səfəvi dövlətinin inzibati quruluşu mütəşəkkil bir şəkildə olduğundan osmanlılar öz sistemlərini tətbiq edərkən bunu da nəzərə alırdılar (73, s. 78-80).

Ən böyük ərazi vahidi olan əyalətlərin hərbi, inzibati, siyasi, ədliyyə və maliyyə işlərinə rəhbərlik edən, həm də geniş səlahiyyətlərə malik olan bəylərbəyilər Səfəvi dövlətində olduğu kimi, Osmanlı hakimiyyətində də eyni funksiyanı yerinə yetirirdilər. Səfəvi dövlət quruluşu barəsində yazılan əsərdəki bir fərmanda bunlar qeyd olunmuşdur: "... Xasse-yi şərifə aid bəzi mahalların malcəhəti və bütün divan vergiləri yoxlansın və mahalların qayda-qanunları da əsas götürülüb, Gilanın bütün haqq-hesabı ədalət qanunları əsasında aparılsın. Vilayətin bütün iqtisadi məsələləri, yəni haqq-hesabı üzrə hörmətli seyidlər, əhali, əyanlar, kələntərlər, kəndxudalar onu tam hüquqlu vəzir hesab edib ona itaət etsinlər. Bütün ticarət və alver, itlaqat, həvalələr onun xətti və möhürü, rəqəmi ilə mötəbər bilib, bu işdə səhlənkarlıq etməsinlər. Özbaşına vergi almasınlar. Əziz oğlum Sultan Mahmud Mirzə və oğlumun lələsi, həm də Gilan bəylərbəyi olan Allahqulu sultan Ustaclı, yüksək əmirlər, darğalar xassə, yaxud başqa mahallarda Xacə Ruhullahın əlindən möhkəm tutub hər bir hadisədən onu xəbərdar etsinlər. Vəzir də yüksək divanın qanunnaməsindən kənara çıxmamaqla haqq-hesabı, vergiləri ədalət qaydalarına əməl edərək toplasın..." (31, s. 92-93). Sənəddən bir daha aydın olur ki, Səfəvi dövlətində bəylərbəyilik vəzifəsi mövcud olmuş və bu səlahiyyəti icra etmək üçün ya qızılbaş əmirlərindən biri, yaxud da yerli şahzadələrdən biri təyin edilmişdir.

“*Təzkirət əl-müluk*” əsərinin verdiyi məlumata əsasən, XVII yüzillikdə Səfəvi dövlətinin ərazisi bəylərbəyilərin idarəçiliyi ilə on üç inzibati ərazi vahidinə bölünürdü: 1) Şirvan; 2) Qarabağ və Gəncə; 3) Azərbaycan (indiki Cənubi Azərbaycan); 4) Çuxursəd; 5) Qəzvin; 6) Qələmrovi Əli Şakar (Həmədan); 7) Kuh Giluya (Fars); 8) Kirman; 9) Astrabad; 10) Məşhəd-i Müqəddəs-i Müəlla; 11) Herat; 12) Mərv-i Şahicahan; 13) Qəndahar (130, v. 7, a,b). Bu ərazilərdən gələn gəlirlərin məbləği 300 000-dən 500 000 tümənə çatırdı (130, s. 100-115). Lakin Şardən əsərində, ilk dəfə olaraq, Təbriz bəylərbəyinin dörd xanlıqdan – Qars, Urmiya, Marağa, Ərdəbil və iyirmi sultanlıqdan ibarət olması barədə məlumat vermişdir (56, s. 82).

V.Minorski belə zənn edir ki, Səfəvi dövlətini hakimlər idarə etmiş və “bəylərbəyi” termini ilk dəfə I Şah Abbasın hakimiyyəti dövründə meydana gəlmişdir (56, s. 163). Lakin İ.P.Petruşevki qeyd edir ki, bəylərbəyilik I Şah Abbasa qədər də mövcud olmuş və onlar digər səlahiyyətləri ilə yanaşı, hərbi hakimiyyətə də malik olmuşlar (122, s. 247). “Bəylərbəyi” ərəb dilindəki “*əmir əl-umara*” (əmirlərin əmiri) mənasını ifadə edir və onlar daxili məsələlərin həll edilməsində mərkəzi hakimiyyətdən asılı olmurdular. Bəylərbəyilər yerli əhalidən topladıqları vergini şaha çatdırır, hərbi məqsədlər üçün istifadə olunacaq silah-sursatı öz əllərində saxlayır, şah hərbi yürüşə hazırlıq əmri verdikdə müharibədə iştirak edir, yerli əhali üsyan qaldırarsa, onu yatırırdılar. Bəzi əyalətlərin bəylərbəyiləri öz var-dövlətlərini və sarayının cah-calalını şahlarınkı ilə müqayisə edirdilər (124, s. 272).

Özünün ənənəvi üsul-idarə sistemini tətbiq edən Osmanlı imperiyası Səfəvi dövlətində mövcud olan əyalət/bəylərbəyilik prinsipini bu ərazilərdə qoruyub saxlamış və hər bir əyalətin idarəçiliyini bir bəylərbəyiyə (və ya mirmirana)

vermişdi (131, s. 83). Qeyd etmək lazımdır ki, Səfəvi dövlətində bəylərbəyiliklər mahallara, mahallar isə nahiyələrə bölünmüşdür (104, s. 16). Dövlət vilayəti hesab edilən əyalət sərhəd bölgəsi hesab edildiyinə görə buranın təhlükəsizliyinin təmin edilməsi və hərbi məsələlərin həlli bəylərbəyiyə tapşırılırdı. Belə ki, əyalətdə Osmanlı hakimiyyətinə qarşı baş vermiş hər hansı üsyanla bəylərbəyi mübarizə aparmalı idi. Maliyyə məsələləri ilə məşğul olan bəylərbəyi torpaq sahəsinin (*timar*) gəlirlərinin bir hissəsini hərbçilərin məvacibi üçün ayırır və alaybəyləri vasitəsilə onlara çatdırırdı. Müharibə baş verdikdə bəylərbəyinin tabeliyində olan sancaqbəyilər hərbi yürüşdə iştirak edir və bu zaman əyalətin idarəçiliyi onları müvəqqəti əvəzləyən şəxs *mütəsəllimə* (təhvil-təslim alan) tapşırılırdı (73, s. 55-60).

Osmanlı idarə sisteminə uyğun olaraq, əyalətlər sancaqlara (və ya livalara) (42, s. 2032; 138, s. 1928)[1] bölünür, onları idarə edən şəxs "sancaqbəyi" adlanırdı (131, s. 83). Sancaqbəyilər bəylərbəyiyə tabe olur, onun göstərişlərini yerinə yetirir, hərbi və inzibati işlərlə bağlı əmrlər vermək hüququna da malik olurdular. Sancaq daxilində sabitliyi təmin etmək üçün sancaqbəyi törədilən cinayətə görə cinayətkarı cəzalandırır, cinayətə görə ödənilən verginin bir hissəsini və ya hamısını götürürdü (131, s. 83). Osmanlı qanunlarına görə o, torpağını tərk etmiş rəiyyəti geri qaytarma haqqına da sahib idi (68, s. 299). Sancaqbəyilər rəiyyətlə dövlət arasında əlaqə yaratmalı, onlara əsla əl qoymamalı, rəiyyət daim dövlətin

---

[1] *Sancaq* – bayraq mənası ifadə edən söz "yer, məkan" anlamını da bildirir. "Sancaq" sözü orduların, təmsil etdikləri dövlətin əlaməti olaraq daşıdıqları bayrağın adıdır. Ərəblər sancaq və bayraq əvəzinə, "liva" və "rayət" sözünü işlətmişlər (42, II cild, s. 2032). Osmanlı dövlətinin son dövrlərində "sancaq" və "liva" ifadəsi ərazi anlamı daşımışdır. Dr. Məhəmməd Moin də "sancaq"ın bayraq mənasında deyil, Osmanlı dövlətində əyalətlərdə inzibati vahid, hətta vilayət mənasında olduğunu qeyd etmişdir (138, s. 1928).

təminatı altında olmalı idi. Əgər xalq bəylərbəyidən və yaxud sancaqbəyidən şikayət edərdisə, bu zaman həmin bölgə üçün ədalətnamə hazırlanır və şikayətə uyğun olaraq dövlət məmuru cəzalandırılırdı. Beləliklə, rəiyyət Osmanlı dövlətində nə bəylərbəyinin, nə də sancaqbəyinin malı olmamışdır (68, s. 322-323). Qeyd edək ki, Səfəvi dövlətində bu vəzifəni mahal hakimləri olan xan və sultanlar icra edirdilər. Mahal hakimləri hərbi və iqtisadi səlahiyyətlərə malik idilər və hərbçilərin məvaciblərini bəylərbəyilər tərəfindən idarə edilən torpaqların gəliri hesabına ödəyirdilər (31, s. 139-141). Məsələn, İrəvan hakimi Səfiqulu xanın əyalətdən gələn gəliri otuz iki min tümən olmuşdur (56, s. 54). Ümumiyyətlə, Azərbaycan bəylərbəyiliklərinin illik gəliri isə 34 234 tümən və ya 4 906,5 dinar təşkil etmişdir (130, s. 60-72). Bu nümunədən aydın olur ki, bəzən səyyahlar həqiqətə uyğun olmayan məlumatlar da verirdilər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq demək olar ki, yeni tətbiq olunan Osmanlı idarəçiliyində bəylərbəyi və sancaqbəyi vəzifələri, Səfəvi dövlətinin bəylərbəyi və mahal hakimlərinin icra etdikləri vəzifəyə uyğun gəlirdi. Qeyd etmək lazımdır ki, Səfəvi dövlətinin bəylərbəyisi də şəhərin məhəllələrini gəzir, vacib olan əmrləri verərək əyaləti idarə edirdi. Lakin onun Osmanlı bəylərbəyisindən fərqli cəhəti ondan ibarət idi ki, hər hansı bir mənzilin qarşısında dayandıqda ev sahibi arzu edərdisə, ona hədiyyə ərməğan edirdi, istəməyən şəxs isə bunu etməyə də bilərdi (56, s. 54).

Osmanlı dövlətinin tərkibinə yeni qatılmış ərazilərdə həyata keçirilən yeni üsul-idarə sisteminə görə, bəylərbəyiyə tabe olan digər bir məsul şəxs də dəftərdar idi. Dəftərdar yeni ərazilərdə maliyyə məsələləri ilə məşğul olur, dövlətə gəlir gətirəcək mənbələri aşkara çıxarır, həm dövlət xəzinəsi, həm

də bəylərbəyi qarşısında hesabat verirdi (73, s. 60-72). Osmanlı imperiyasında dövlətin gəlir qaynaqlarının, gəlirlərinin hesabatına görə məsuliyyət daşıyan dəftərdar vəzifəsi olduqca mühüm bir vəzifə idi (131, s. 85).

Osmanlıdan fərqli olaraq, Səfəvi dövlətində maliyyə işlərinə baxan şəxslər isə kələntər və naqiblər idi, hər ayın sonunda əsnaflardan pul yığılması onlara tapşırılırdı (130, s. 81-82).

Fəth edilmiş yeni ərazilərdə qazıların başçılığı altında şəriət məhkəmələri fəaliyyət göstərirdi. Qazılar bəylərbəyiyə tabe idilər və qayda-qanunlara əməl olunmasına nəzarət edirdilər. Bundan əlavə, qazılar mülki məsələləri, torpaq məsələlərini, vərəsəlik məsələlərini həll edir və hər hansı bir qanunsuzluğun qarşısını almaqla məşğul olurdular. Qazılar qəza mərkəzlərində iqamət edir, nahiyələrdə isə onların vəzifələrini naiblər icra edirdilər (64, s. 101, 270).

Osmanlılarda olduğu kimi, Səfəvi dövlətində də qazılar iki yerə bölünürdü – qoşun qazısı (*qazi-yi əsgər*) və şəri məsələlərə baxan qazılar. Qoşun qazıları orduda dini iş və təbliğatla məşğul olur, şəriət qazıları isə yerlərdə dini məsələləri həll edirdilər (38, s. 38).

Səfəvi dövlətinin tənəzzülü ilə birlikdə onun ordusu da zəifləmiş və öz intizamını itirmişdi. Ona görə də Osmanlı orduları Azərbaycan ərazilərini fəth etdiyi zaman bəzi bölgələrin hakimləri onlara müqavimət göstərməmişdi. Bu bölgələrin hakimləri arasında Marağa bəyi, Çors xanı, Xalxal xanı və digər bəy və xanlar var idi. Lakin Təbriz, Ərdəbil, Gəncə və İrəvan kimi bölgələrin hakimləri osmanlılara qarşı sonuna qədər müqavimət göstərmişdilər. Osmanlılar da bu bölgələrdə onlara müqavimət göstərməyən hakimlərə bəzən toxunmamış, ancaq müqavimətlə rastlaşdıqları bölgələrin hakimlərinin yerinə ya yerlilərdən, ya da öz hərbçilərindən

hakim təyin edərək həmin ərazilərin statusunu öz strukturlarına uyğunlaşdırmışdılar (84, s. 158-171). Onlar Cənubi Qafqazda və Azərbaycanda fəth etdikləri əraziləri İrəvan, Tiflis, Gəncə-Qarabağ, Təbriz, Urmiya, Marağa və Həmədan əyalətlərinə bölmüş, sonra bu bölgünü bir daha nəzərdən keçirərək Marağa və Urmiya əyalətinin statusunu dəyişərək onları "liva" (sancaq) adlandırmışdılar (41, s. 8). Bununla da Marağa, Soyuqbulaq, Urmiya, Xalxal livaları və Salmas qəzası Təbriz əyalətinin tabeçiliyinə verilmişdi. Osmanlı tarixi sənədindən məlum olur ki, Hələb qazısı rütbəsi olan Təbriz qazısı Məhəmməd Əziz h.t. 1138-ci il (1720-ci il) rəbi-ul-əvvəl ayının əvvəlindən etibarən, Təbrizin ətrafında olan öncədən müsəlmanlığı qəbul etmiş bütün kəndlər daxil olmaqla, Qaradağ, Marağa, Gərmrud, Həştərud, Şiştər və Salmas qəzalarının qazılığını etmək barədə tapşırıq almışdır (23). Bu fərman sultanın tuğrası ilə təsdiqlənmişdir.

Osmanlı üsul-idarə sisteminə uyğun olaraq, fəth edilmiş yeni ərazilərə hakim təyin olunduqdan sonra, bir qayda olaraq, əhalini və ordunu təmin etmək məqsədilə həmin ərazilərdə təhrir sisteminin tətbiqinə başlanırdı. Osmanlı hakimiyyəti orduya xüsusi önəm verdiyinə görə hərbi xidmətdə olanların, habelə sarayda işləyənlərin tələbatını təhriri aparılmış ərazilərdən yığılan gəlir hesabına ödəyirdi. Təhrir – inzibati əraziyə aid olan bütün statistik məlumatları əhatə etməklə vergi toplanması məqsədi ilə siyahıyaalma idi (126, s. 61-72).

Osmanlı imperiyasında dövlət tərəfindən gündəlik yaşam üçün məvacib qarşılığında müəyyən edilən gəlir qaynağı "*dirlik*" adlanırdı. Sultan və yüksək vəzifəli adamlara verilən dirliklər xass, onlardan rütbəcə aşağı olanlara verilənlər zeamət, süvarilərə (sipahilər) verilənlər isə timar idi (81, c. 1, s. 455). Bu dirliklər gəlirlərin həcminə görə

də bir-birindən fərqlənirdi. Belə ki, xassların illik gəliri 100 min ağçadan yuxarı, zeamətlərin illik gəliri 20 min ağçadan 99.999 ağçaya qədər, timarların illik gəliri isə 20 min ağçadan aşağı müəyyən edilmişdi. Sahiblər vəzifədə olduqları müddətdə onlara xass və zeamətlər verilirdi və əgər onlar tutduqları vəzifədən çıxarılarsa və ya vəfat edərsə, bu dirliklər onların yerinə vəzifəyə təyin olunmuş şəxslərə keçirdi. Sahiblər vəzifədə olduqları müddətdə qanunu pozmadıqları halda timarlar onlara ömürlük verilirdi (41, s. 220, 221).

Ərazidə aparılan təhrir işlərinin (siyahıya alma) nəticələri öz əksini dəftərlərdə tapırdı. Təhrir dəftərlərində ərazidə olan timarların ölçüsü və bu torpaqlardan əldə edilən gəlirlər, nahiyə və kəndlərin adları, orada yaşayan əhalinin dini-etnik tərkibi və vergi ödəyəcək şəxslərin adı, atasının adı, kənd təsərrüfatına yararlı olan sahələrdə əkilib-becərilən məhsul və digər gəlir mənbəyi olan sahələrə görə müəyyən edilmiş verginin miqdarı qeyd olunurdu. Təhrir dəftərlərinin tərtibatı sona çatdıqdan sonra timarlarda hər hansı bir dəyişiklik olardısa (torpaq sahibinin vəfat etməsi, torpağın sahibindən alınıb başqasına verilməsi və bu kimi digər hadisələr), bu zaman dövlətə bu barədə məlumat çatdırılır və qəbul edilmiş qərara əsasən dəftərlərin kənarında lazımi qeydlər yazılırdı (75, s. 217-218).

Təhrir işlərini dövlətin mərkəzi dəftərxanasından birbaşa təyin edilən səlahiyyətli şəxs – “*əmin*” həyata keçirirdi. O zamankı vergi toplama yollarını bildirən sənəddə aşağıdakı qaydalar göstərilmişdir (75, s. 220-221):

1. Əmin təhrir aparmaq üçün məmur olduğu vilayətdə o yerin qazısını və timar sahiblərini toplayar və təftişi daim

onlarla birlikdə həyata keçirərdi. Qazılar heç bir gəlir qaynağının kənarda qalmamasına diqqət edir və beləliklə də əminlər xəzinəni nəzarət altında saxlaya bilirdilər.

2. Xass, zeamət, timar, vəqf və mülk sahiblərinin bərat, vəqfiyə, mülknamə, məhsulat dəftərləri təhrir üçün əminə təslim edilməli idi.

3. Bu sənədlərə əsasən yerindəcə təftiş aparmağa başlayırdılar, bərat sahibləri ərazinin üçillik gəlir miqdarını bir dəftər şəklində əminə çatdırır, əmin də bunu hökumət mərkəzindən gətirdiyi köhnə müfəssəl dəftərlə qarşılaşdırırdı. Əgər müqayisə zamanı artıq miqdar ortaya çıxardısa, bu dəftərə qeyd olunur və sonradan mərkəzdə hesablanardı.

4. Bütün əhali və gəlir qaynaqları kənarda qalmamaq şərti ilə dəftərə qeyd edilirdi.

5. Hər sipahi ona tabe olan rəiyyəti əminin qarşısında toplamalı və yalnız vergi ödəyəcək şəxslərin adlarını yazdırmalı idi.

6. Əgər sipahi vergi ödəməsi boynuna düşməyən uşağın adını yazdırar və ya gəlirin miqdarını gizlədərək az göstərərdisə, bu zaman sipahinin timarları onun əlindən alınaraq xəzinəyə mənsub olmuş kimi qeyd olunurdu. Sipahilərin əlindən alınmış timarları "*mauqif*" adlanır və onlardan gələn gəlirləri xəzinə adına qazılar toplayırdılar.

7. Bütün gəlir mənbələri aşkarlandıqdan və mərkəzdə təsdiqləndikdən sonra ərazi sahiblərinə sənəd verilirdi.

8. Qazılar xərac (*cizyə*) dəftərlərini əminə təslim edirdilər.

9. Avariz vergisi üçün hər bir qazılığın tabeliyində olan evin sayı ayrı bir dəftərə qeyd olunurdu.

10. Sancaqda mövcud olan hər bir məhsulun və bac vergilərinin alınma qaydası göstərilir, dəyişikliklər baş verdikdə köhnə dəftərlə qarşılaşdırılır və mərkəzə xəbər verilirdi.

Bundan sonra dəftərin arxa səhifəsində "*emr-i padişahi*" ilə son qərar yazılırdı.

11. Sancaqda mövcud olan bütün zeamətlər və timar sahiblərinə məxsus ərazilərin icmal dəftəri də hazırlanırdı.

12. Təhrir işini aparan şəxslər öz işlərində bitərəf olmalı və gündəlik tələbatını ödəmək üçün hər ailədən iki ağça almalı idi.

Bütün bu işləri gördükdən sonra əmin baş dəftərxanaya gəlir, burada dəftərləri yenidən bir daha nəzərdən keçirir, gəlir mənbələrinin miqdarını ayrı-ayrılıqda hesablayıb yekunlarını çıxarırdı. Daha sonra əmin işin ikinci mərhələsinə başlayırdı. Belə ki, əmin gəlir mənbələrini dirlik sahibləri arasında bölür və timar sahiblərinə görə tərtib edilən dəftərləri iki növdə – icmal və müfəssəl dəftərlər halında hazırlayırdı. Bu dəftərlər iki nüsxədə tərtib olunur, bir nüsxəsi saray dəftərxanasında saxlanılır, digər nüsxəsi isə təhriri aparılan əyalətə/vilayətə göndərilirdi. Qeyd edək ki, bəylərbəyiyə, yaxud da baş mühasibliyə verilən nüsxələr *surət-i dəftər* adlanırdı (75, s. 222).

Bu növ sənədlər demoqrafik vəziyyət, inzibati quruluş, kənd təsərrüfatı, sənətkarlıq və s. haqqında mötəbərliyi heç bir şübhə doğurmayan ən zəngin statistik məlumatları özündə birləşdirən müfəssəl dəftərlərdir. Yuxarıda qeyd olunduğu kimi, 1728-ci ildə Osmanlı məmurları tərəfindən Marağa bölgəsinin də müfəssəl dəftəri tamamlanmış və bu sənəddə Marağa livasının (sancağının) inzibati quruluşu, sosial-iqtisadi və demoqrafik vəziyyəti, əhalinin dini tərkibi, kənd təsərrüfatı, şəhərləri, əhalinin məşğuliyyəti haqqında dolğun məlumat verilmişdir. İki hissədən və ümumi həcmi 528 səhifədən ibarət olan dəftərin orijinalı İstanbulda Başbakanlık Osmanlı Arxivində saxlanılır. Bu sənəd çətin oxunan "siya-

qət”[2] xətti ilə yazıya alınmışdır. Vergi dəftərinin birinci hissəsində Marağa livasına, ikinci hissəsində isə Soyuqbulaq livasına daxil olan nahiyələrin adları verilmişdir. Təhrir dəftərinin 3, 4, 80-82, 158, 235, 303, 322, 382, 383, 404, 405, 427, 463, 528-ci səhifələri boş buraxılmışdır. Tam adı “*Defter-i müfessel-i liva-i Marağa*” adlanan dəftərin təhlilini verməzdən öncə həmin ərazilərin coğrafi mövqeyi, inzibati quruluşu və s. məsələlər haqqında bəzi tarixi məlumatları nəzərə çatdırmaq lazım gəlir.

Azərbaycanın ən qədim yaşayış və təsərrüfat bölgələrindən biri olan Marağa coğrafi baxımdan şimaldan Səhənd dağları və mərkəzdən 130 km məsafədə yerləşən Təbriz şəhəri, cənubdan Saqqız mahalı, şərqdən Miyanə və Həştərud, qərbdən isə Urmiya gölü və Mahabad (Soyuqbulaq) şəhərləri ilə həmsərhəddir (136, c. 12, s. 18185-18186). Marağanı cənub-şərqdən 2169 m hündürlükdə Məndilbaş, şimal-şərqdən 3550 m hündürlükdə Ağdağ, 2620 m hündürlükdə Qaraağac, şimal-qərbdən 2615 m hündürlükdə Gözəlçə dağ massivləri əhatə edir (136, c. 12, s. 18185-18186). Mənbəyini Səhənd dağlarından alan Sofi çayı, Cığatu, Leylan, Aydoğmuş və digər bir neçə dağ çayları Marağanı və onun ətrafını su ilə təmin edərək, Urmiya gölünə tökülür (146, c. 2, s. 151). Bu səbəbdən də Marağa Azərbaycanın ən böyük əkinçilik bölgələrindən biridir və xüsusilə özünün meyvə bağları ilə məşhurdur.

---

[2] *Siyaqət* - ərəb dilindən tərcümədə “sövq, önə çəkmə, irəliyə aparma” mənasını kəsb edən söz maliyyə və mühasibatlıq sənədlərində istifadə olunan və hərəkəsiz yazılan yazı növüdür. Bu yazı növü, bəzi alimlərin fikrincə, Əməvilər dövründə, digər qrup alimlərin rəyinə görə isə Abbasilər dövründə icad edilmiş və ilk dəfə olaraq İraqda tətbiq olunmuşdur. 1071-ci ildə Malazgird döyüşündən sonra Səlcuq dövlətinin əlinə keçmiş bu yazı növü daha sonralar Osmanlılar tərəfindən istifadə edilməyə başlanmışdır (61, s. 5-7).

Bu cür əlverişli təbii şəraitə və coğrafi mövqeyə malik olan Marağa şəhəri həm də qədim ticarət yollarının üzərində yerləşmişdir. Bu günə qədər bölgədə əsaslı arxeoloji qazıntı işlərinin aparılmaması səbəbindən Marağanın qədim tarixi və maddi mədəniyyəti barədə əldə olan məlumat azdır.

XVI əsrin sonlarında Osmanlı-Səfəvi müharibəsi və 1590-cı ildə iki dövlət arasında bağlanan İstanbul sülh müqaviləsi nəticəsində Azərbaycan əraziləri ilk dəfə olaraq nisbətən uzun müddətə Osmanlıların hakimiyyəti altına keçmişdir. Lakin artıq XVII əsrin əvvəllərində Şah Abbasın qətiyyətli tədbirləri və hərbi əməliyyatlarından sonra Osmanlılar Azərbaycanı tərk etmək məcburiyyətində qalmışlar. Daha öncə də qeyd edildiyi kimi, XVII əsrin II yarısından etibarən Səfəvi dövlətində mərkəzi hakimiyyətin zəifləməsi, əyalətlərdə baş qaldırmış üsyanlar, son Səfəvi hökmdarı Şah Hüseynin (1694-1722) fərsiz siyasəti nəticəsində ikiyə bölünən Azərbaycanın Marağa bölgəsi Osmanlı imperiyasının tərkibinə daxil olmuşdu.

Osmanlılar Marağanı öz torpaqlarına ilhaq etdikdən sonra Karaman bəylərbəyi Həsən paşanın müraciəti ilə Səfəvi xanı ikən osmanlılara itaət edən Kirmanşahın sərəsgəri Firudin paşanı buraya hakim təyin etmişdilər (1724-cü il aprel ayı). Belə ki, Firudin paşanın vəfat etməsi ilə Soyuqbulaq və Mukri livalarının idarəçiliyi Əbdüləziz paşaya, Marağa isə onun qohumu Mir-Fərrux bəyə verilmişdir. Lakin Marağa xalqının Fərrux bəyin idarəçiliyini istəməməsi səbəbindən Həmədan sərəsgəri Əhməd paşa İstanbula müraciət etmiş və onun xahişi ilə Soyuqbulaq, Mukri, Marağa, Həştrud, Ordubad və Dizəcrud bölgələrinin hakimliyi Əbdüləziz paşaya həvalə edilmişdir (1725-ci il sentyabr ayı) (66, s. 84).

1593-cü ildə Marağa livası, Suldus, Dizmar, Saru-kurqan, Səidabad və Əlik livaları birlikdə Təbriz əyalətinə daxil

idi. Bu zaman Marağa livası Səracu, Leylan, Əkərtu, Gavdul, Miyandoab, Axtaçı-ulya (Yuxarı Axtaçı) və Axtaçı-suflə (Aşağı Axtaçı) nahiyələrindən ibarət olmuşdur. Suldus livası Suldus, Saru-kurqan livası Sarı-kurqan, Əcri-yi ulya, Əcri-yi suflə, Siyah-kuh, Hüseynabad nahiyələrindən təşkil edilmişdir (66, s. 84).

XVIII əsrdə bu ərazilərdə aparılmış təhrirə əsasən isə Marağa livasının tərkibinə Benacu, Səracu, Bukan, Gavdul maa′ Miyandoab (yəni Gavdul ilə Miyandoab birlikdə), Əcri, Leylan və Əkərtu nahiyələri, Soyuqbulaq livasının tərkibinə Şəhri-viran, Dəryaz, Yıltimur, Gilas, Mirabad, Tərkeş, Telyuş, Alan (tədqiq olunan dəftərdə nahiyənin adı bu şəkildədir), Turcan, Axtaçı, Lacan, Suldus, Qıpçaq tabe-i Suldus (yəni Suldusun tabeliyində olan Qıpçaq) nahiyələri daxil idi (14, s. 1).

Osmanlı üsul-idarə sisteminə uyğun olaraq hər iki əsrdə (XVI və XVIII əsrlərdə) aparılmış təhrirlərə nəzər saldıqda məlum olur ki, Marağa livasına Benacu və Bukan nahiyəsi əlavə edilmiş, yuxarı və aşağı olan Əcri nahiyələri birləşdirilmiş, Suldus isə livalıqdan çıxarılmaqla, Soyuqbulaq livasına nahiyə kimi qatılmış, XVI əsrdə Marağa livasının tərkibində olan Yuxarı və Aşağı Axtaçı vahid nahiyəyə çevrilərək Soyuqbulaq livasına daxil edilmişdir.

Azərbaycanın orta əsrlərdəki tarixi yaşayış məskənlərindən biri olan Soyuqbulaq (Savuqbulaq və ya Savucbulaq, indiki Mahabad) coğrafi baxımdan şimal tərəfdən Urmiya gölü və Suldus bölgəsi, cənubdan Banə bölgəsi və Saqqız şəhristanı, şərqdən Miyandoab şəhristanı, qərbdən isə İraqla həmsərhəddir (136, c. 12, s. 19316). O, yüksəklikləri 2730 m olan Ləndişeyxan, 1813 m olan Sərməstan, 2434 m olan Qəsrik və 2954 m olan Qızqayan dağları (İran – İraq sərhədində yerləşir) ilə əhatə olunmuş mühüm strateji əhəmiyyətə

malik, həmçinin təsərrüfat fəaliyyəti üçün faydalı olan geniş yaylaq və meşəlik əraziləri əhatə edən bir bölgədir (136, c. 12, s. 19316). Məntəqə, ərazisində mövcud olan çoxlu sayda sərin bulaq, çeşmə və kəhrizlərə görə "Soyuqbulaq" adlandırılmışdır (137, s. 104). Bundan əlavə, Soyuqbulaqda bölgənin ərazisindən keçib Urmiya gölünə tökülən Cığatu (Zərinərud) və Tatau (Siminərud) çayları, eləcə də mənsəbi Dəclə çayı olan bir neçə kiçik çay da vardır (137, s. 104).

Məlumdur ki, XVI yüzilliyin sonu – XVII yüzilliyin əvvəlində baş vermiş Osmanlı – Səfəvi müharibələri zamanı savaş bölgələrində bir sıra şəhər və qalalar dağıdılmış, bəzi yerlərdə isə müəyyən hərbi məqsədlərlə yeniləri inşa edilmiş və ya köhnələri möhkəmləndirilmişdir. Bəzi qaynaqlara görə, Soyuqbulaq I Şah Abbasın (1587-1629) hakimiyyəti dövründə hərbi istinadgah kimi inşa edilmişdir. Belə ki, osmanlıların ilk fəthi illərində (1578-1590) Azərbaycan torpaqlarında aparılan təhrir işləri zamanı tərtib etdikləri vergi dəftərlərində Soyuqbulaqın adı qeyd edilməmişdir (66, s. 85). Lakin İsgəndər bəy Münşi Türkmanın "*Tarix-i aləm-ara-yi Abbasi*" əsərində 1631/32-ci il hadisələrinin təsviri zamanı artıq bu qəsəbənin adına rast gəlinir (133, s. 59).

Ümumiyyətlə, Soyuqbulaqın tarixi ilə bağlı tədqiqat əsərlərində şəhərin inşası barədə verilən məlumatlar kifayət qədər ziddiyyətli xarakter daşıyır. Məsələn, İran tarixçisi S.M.Səmədinin yazdığına görə, bu şəhərin təsisinə hələ I Şah İsmayılın (1501-1524) dövründə başlansa da, sonralar bəzi səbəblərdən işlər dayandırılmış, I Şah Abbasın hakimiyyəti illərində başa çatdırılmış və Soyuqbulaq qəsəbəsi yaradılmışdır (141, s.144). Digər İran mütəxəssisi H.Zendedel isə qəsəbənin hicri tarixi ilə 1038-ci ildə (1628-ci ildə) I Şah Abbas tərəfindən inşa edildiyini bildirir (146, c. 2, s. 237).

A.S.Bilgili “Osmanlı – İran Azərbaycanı” əsərində qeyd edir ki, bu ərazinin 1724-cü ildə osmanlılar tərəfindən ələ keçirilməsindən öncə yaranmasına baxmayaraq, Soyuqbulaq “qəsəbə”sinin adına XVI əsr təhrir dəftərlərində rast gəlinmir. Belə ki, Soyuqbulaqdan əvvəl livanın mərkəz şəhəri Saru-kurgan olmuş və nahiyə həmin şəhərin adı ilə tanınmışdır. Osmanlı vergi dəftərlərinə görə, XVI əsrdə eyni adlı livanın mərkəzi olan Sarı-kurgan müharibə nəticəsində tamamilə xarabaya çevrildiyindən bərpa edilməmiş və XVIII yüzilliyinin əvvəllərində inzibati-idari bölgə kimi “liva” statusu verilməklə, onun yerində olduqca zəngin və strateji əhəmiyyətə malik olan Soyuqbulaq təsis edilmişdir (66, s. 85).

Beləliklə, bu problemlə məşğul olan mütəxəssislərin əksəriyyətinin ümumi rəyinə görə, Soyuqbulaq bir yaşayış məskəni olaraq XVII əsrin 20-ci illərində I Şah Abbas dönəmində təsis edilmiş və XVIII yüzilliyin əvvələrində “liva” statusu almışdır.

Soyuqbulaqda məskunlaşan əhalinin etnik tərkibi, xüsusilə kürd mənşəli əhalinin bu bölgədə hansı dövrdən etibarən məskunlaşması da maraq doğuran məsələlərdən biridir. V.V.Bartold İranın coğrafiyası və tarixinə həsr etdiyi əsərində kürdlərin mənşəyi haqqında belə məlumat verir: “Bugünkü Türkiyə və İran arasında sərhəd bölgəsindəki dağlarda yaşayan irandilli əhalini ərəblər hələ islam dövründə “kürd” (cəm formasında – “əkrad”) adlandırmışlar. Lakin kürdlər özlərinə “lur” və “bəxtiyar” deyirlər. Orta əsrlərdə hətta Lur və Luristan əyaləti də mövcud olmuşdur. “Bəxtiyar” sözünə gəlincə isə, qeyd etməliyik ki, bu adın ilk dəfə kim tərəfindən işlədilməsi məlum deyil, orta əsrlərə aid qaynaqlarda da bu ad barədə heç bir məlumata rast gəlinmir. Ancaq bəxtiyarlar Fars əyalətinin sərhəd bölgəsinin dağlıq ərazisində

yerləşən və “Böyük Lur” kimi tanınan Şulistanda yaşamışlar. Fars Kürdüstanının paytaxtı Kirmanşah olmuşdur və kürdlər çox nadir hallarda öz dillərində əsər yazmışlar” (99, c. 7, s. 270-271).

XVI yüzilliyin sonlarında Şərəf xan Bidlisi kürd əmirlərinin adlarını sadalayarkən “baban” (100, s. 330-337)[3] adlı kürd tayfasının Azərbaycanda Urmiya gölü hövzəsində yerləşən Suldus nahiyəsini Səfəvi şahlarının əlindən alması barədə məlumat verir (100, s. 41). Müəllifin bildirdiyinə görə, sonrakı dövrdə Qaraqoyunlu hakimi Qara Yusif (1410-1420) Kürdüstana hücum edərkən hərbi məqsədlər üçün bir neçə kürd tayfasını özü ilə birlikdə oradan Azərbaycan ərazisinə gətirmişdir. Qaraqoyunlu və Ağqoyunlu sülalələrinin hakimiyyəti dövründə Şərqi Anadoluda Ələşkərt, Ərciş və Adilcəvaz kürd əmirlərinin idarəsinə verilmişdir. Bundan əlavə, əsərdə göstərilir ki, XVI əsrin əvvəllərində Ağqoyunlu sülaləsinin süqutu zamanı Dəryas, Dol, Axtaçı, İl-Teymur və Suldus nahiyələri “mukri” (“mükri”) tayfaları[4] tərəfindən zəbt edilmiş və onlar bu ərazilər uğrunda həm osmanlılarla, həm də səfəvilərlə mübarizə aparmışlar (100, s. 41-44). V.F.Minorski də bu fikri təsdiqləyir (128, s. 1132-1134).

Bəzi tədqiqatçılar ümumiyyətlə Səfəvi dövründən öncə Azərbaycanda kürd tayfalarına rast gəlinmədiyini və ilk dəfə

---

[3] Şərəf xan Bidlisinin yazdığına əsasən, baban tayfasının kökü İraq ərazisinə gedib çıxır (100, I c., s. 330-337).

[4]Şərəf xan Bidlisi yazır: “Mukri tayfasının əmələ gəlmə tarixi baban tayfasından olan çox məkrli və hiyləgər Seyfəddin adlı bir şəxslə bağlıdır. Bu şəxsi hamı “məkrli” adlandırdığı üçün və ya ola bilsin ki, doğru danışdığından – düzünü Allah bilir! – tayfa “mukri” adını almışdır. Bu şəxs öz məkri və hiyləgərliyi ilə baban və digər kürd tayfalarının bir qisim şəxslərini toplayaraq mukri tayfasını yaratmışdır” (102, s.337). Yeri gəlmişkən qeyd edək ki, Səfəvi şahı Məhəmməd Xudabəndə (1578-1587) hakimiyyətə gələn kimi bütün kürd tayfaları, o cümlədən mukri tayfası Səfəvi dövlətinin ərazisini tərk etmişdir (100, I c., s. 340).

Osmanlı – Səfəvi müharibəsi zamanı I Şah Abbasın Şimali İraq ərazisində yaşayan bəzi kürd tayfalarını hərbi məqsədlərlə Azərbaycana gətirib yerləşdirdiyini qeyd edirlər (67, s. 112). O da məlumdur ki, bu Səfəvi hökmdarı bəzi bölgələrin hakimliyini kürd əmirlərinə vermişdir. Belə ki, Şərəf xan Bidlisi[5] şahın sarayında təlim-tərbiyə almış və Gilan Təngəbonunun hakimi vəzifəsinə təyin edilmişdir. Digər kürd əmirləri Xəlil Sultan Siyah Mənsur[6] – Nəhas və Sivarluq hakimi, Fars əmirlərindən olan Oğlan Budaq Çekəni – Xorasanda Xəbuşan hakimi, Qılınc Xəlifə Bəruki[7] – Çuxursəd hakimi, Teymur xan Ərdəlan – Həsənabad və Pələkan hakimi, Şah Rüstəm Abbasi və qardaşı Məhəmmədi – Kiçik Lur (Lur-kuçek) hakimi idilər. I Şah Abbas Kiçik Lurun idarəçiliyini iki yerə ayırmış, Xavə və Eysəri Şah Rüstəmə, Xürrəmabad və digər yerləri isə Məhəmmədiyə vermişdir. Mənbədə Məhəmmədinin sonralar şaha xəyanət etdiyi də qeyd olunur (133, s. 141).

XVI əsrin sonu – XVII əsrin əvvəllərində Azərbaycanın Marağa şəhərinin hakimliyi I Şah Abbas tərəfindən mukri tayfasından Şeyx Heydərə həvalə olunmuşdur. 1604-cü ildə İrəvan qalasına hücum zamanı Şeyx Heydər vəfat etdiyi üçün onun yerinə azyaşlı oğlu Qubad xan təyin edilmişdir. Lakin kürd bəradust və mukri tayfalarının buna etiraz olaraq üsyan qaldırmaları səbəbi ilə şah Marağa şəhərinin idarəçiliyini türk müqəddəm tayfasından olan Ağa Sultana vermiş və beləliklə, həmin tayfanın nümayəndələri XVII yüzilliyin sonunadək bu bölgədə hakimlik etmişlər (123, s. 167).

1701-ci ildə baş verən hadisələri təsvir edən alban katalikosu Yesai Həsən Cəlalyan öz əsərində yazır ki, üsyan dalğası

---

[5]Əsərdə bu ad "Tiblis" kimi qeyd edilmişdir (133, s. 141).
[6]Əsərdə "Sepah Mənsur" kimi qeyd edilmişdir (133, s. 141).
[7]Əsərdə "Pazuki" kimi qeyd olunmuşdur (133, s. 141).

pluc qəbiləsini (Əfqanıstan və İranda yaşayan bəlucları) və əhalisi türkmənlərdən (türkmanlardan) ibarət olan Sovux-Pulaxı (Sovuc-bulaq – Cənubi Azərbaycanda yerləşən indiki Mahabad) bürüdü (108, s. 22). Burada işlənmiş "türkmən" sözü, orta əsr mənbələrində göstərildiyi kimi, Azərbaycanda yaşayan türk əhalini nəzərdə tutur (48, s. 19).

Kürd tayfalarının Osmanlı – Səfəvi müharibələrində iştirakı və onların Osmanlı ordusu tərkibində Azərbaycan ərazisinə yürüşləri barədə XIX əsr Avropa müəllifləri də yazmışlar. Məsələn, 1841-ci ildə ingilis dilində nəşr olunmuş bir məqalədə kürdlərin mənşəyi, tarixi, yaşam tərzi təsvir edilir: "...Kürdlər kənd təsərrüfatı mədəniyyətinə sahib olmayan, dağlıq ərazidə yaşayanlardır... Onlar Bidlis, Siirt, Həsənkeyf kimi balaca şəhərciklərdə məskunlaşmışlar... Kürdlər, əsasən, ərəblərlə həmsərhəd kəndlərdə yaşayır". Müəllif xüsusi olaraq vurğulayır ki, Osmanlı imperiyası kürdləri öz ordusuna cəlb etmiş və onlar İran ərazisində hərbi yürüşlərdə iştirak etmişlər (125, s. 280-286).

Soyuqbulaqın tarixi, müasir etnodemoqrafik durumu və kürdlərin bir toplum olaraq burada məskunlaşması ilə bağlı diqqətçəkən bəzi məlumatlara İranda nəşr edilmiş "Mahabad salnaməsi" ("*Salnamey-i fərhəng-i Mahabad*") adlı jurnalda da rast gəlinir. Belə ki, burada şəhərin tarixi və əhalisinin etnik tərkibi haqqında tarixi əsasları olmayan bəzi fikirlərlə də rastlaşırıq. Müəllif hal-hazırda ərazisi 13 min km$^2$, əhalisi 160 min nəfər olan Mahabad şəhərinin tarixi Soyuqbulaq olduğunu, həmçinin bu sözün türk mənşəli olduğunu etiraf edir (140, s. 32). Şəhər əhalisinin nisbətən az sayda olmasını isə guya həmin ərazidə məskunlaşmış bilbas, mamış, məngur, piran kimi kürd tayfalarının azsaylı olması faktı ilə əlaqələndirir ki, bu fərziyyə inandırıcı deyil. Müəllifin fikrincə, digər səbəblərdən biri də

guya mahabad qəbiləsindən olan dehbəkri əşirətinin qədim zamanlardan bəri "*Sovucbulağ-mukri*" adlanan şəhərdə məskunlaşmasıdır (140, s. 32-34).

Lakin qeyd edilən bu iddiaların heç biri tarixi gerçəkliyə uyğun deyil və bunun əksini sübut edən çoxlu sayda dəlil mövcuddur. Birincisi, adları çəkilən kürd tayfalarının kökləri İran ərazisi ilə bağlı deyil və onların Azərbaycan ərazisinə köçmələri çətin həyat şəraiti ilə bağlı olmuşdur. Belə ki, dağlıq ərazilərdə yaşayan kürd tayfaları sayları artdıqca ərzaq məhsullarına olan tələbatlarını kifayət qədər ödəyə bilmədikləri üçün məskunlaşdıqları yoxsul bölgələrdən təsərrüfat üçün daha əlverişli olan düzənlik ərazilərə köç edir və burada məskunlaşırdılar. İkincisi, nə tarixdə "mahabad" adlı qəbilə mövcud olmuş, nə də Soyuqbulaq yarandığı vaxtdan bəri "*Sovucbulağ-mukri*" adlandırılmışdır.

Bir sıra mötəbər tarixi mənbələr, xüsusilə də 1725-1728-ci illərə aid Marağa livasının müfəssəl dəftəri jurnalda göstərilən faktların doğru olmadığını, XVII yüzillikdə hərbi şəhərcik kimi salınmış Soyuqbulaq qəsəbəsində kürdlərin yaşamadığını söyləməyə əsas verir. Belə ki, dəftərdə hər hansı bir kürd tayfasının adına rast gəlinmir. Kürdlərin Soyuqbulaq nahiyəsinə kütləvi şəkildə ilk gəlişi isə Səfəvi şahı Süleymanın (1666-1694) hakimiyyəti illərinə təsadüf edir. Tarixi qaynaqlarda qeyd olunduğu kimi, Süleyman şah Sultan Budağın başçılıq etdiyi mukri tayfasının bu bölgəyə köçüb məskunlaşmasına icazə vermişdir (137, s. 105). Bunun səbəbi isə həmin dövrdə baş vermiş bəzi qanlı hadisələr olmuşdur. Belə ki, Səfəvi şahı İraqın Süleymaniyə şəhərində yaşayan kürd tayfasının başçısını məğlub etmək üçün 1671-ci ildə Rüstəm xanın[8] rəhbərliyi altında oraya böyük bir ordu

[8]Əsərdə Rüstəm xanın vəzifəsi sipəhsalar, yəni ordu başçısı kimi göstərilmişdir.

göndərmiş və üsyançılar qılıncdan keçirilmişdir (132, s. 349). Eyni zamanda Osmanlı ərazisindən Süleymaniyəyə gedən baban tayfasının başçısı yolda öldürüldükdən sonra digər kürdlərin "könlünü almaq üçün" mükri tayfasına yenicə rəhbər təyin olunmuş Sultan Budağın öz tayfası ilə Soyuqbulaq nahiyəsinə gəlib yerləşməsinə izn verilmişdir (137, s. 105).

Ümumiyyətlə, mukri tayfası və digər kürd əşirətləri haqqında İsgəndər bəy Münşinin "*Tarix-i aləm-ara-yi Abbasi*" əsərində kifayət qədər geniş məlumat verilir və qeyd edilir ki, onlar Azərbaycan ərazilərinə, xüsusilə də Urmiya, Xoy, Mərənd, Marağa, Suldus və Miyandoab şəhərlərinə daim qarət məqsədilə hücum etmiş, lakin hər dəfə I Şah Abbas tərəfindən cəzalandırılmış, bəzən də kürd qəbilələrinə Səfəvi ordusuna qatılmağa belə icazə verilməmişdir (133, c. 1, s. 231; 134, c. 2, s. 678, 683-685, 811-813, 889-891).

Şəhər əhalisinin dəqiq etnodemoqrafik vəziyyətini və buradakı müsəlman əhalinin, əsasən, Azərbaycan türklərindən ibarət olduğunu təsdiqləyən bir sıra digər mənbələr də mövcuddur. Məsələn, 1884-1885-ci illərdə Soyuqbulaqa gəlmiş ingilis səyyahı K.Lourens burada apardığı tədqiqatlar nəticəsində 1878-1879-cu illərin statistik məlumatlarına əsasən, şəhərə Süleymaniyə və Mosuldan 3 min kürd ailəsinin köçürüldüyünü, bu zamana qədər burada yalnız türk və yəhudi ailələrin yaşadığını yazmışdır (144, s. 37)[9]. Bundan əlavə, bir osmanlı sənədində 1874-cü ildə Azərbaycanda Soyuqbulaq şahbəndlərinin mövcud olduğunu sübut edən sənəd də vardır (24).

R.Albayraq da öz əsərində Soyuqbulaqla yanaşı, kəndlərinin də əhalisinin türklər olduğunu qeyd edir (26, s. 97).

[9] Müəllif süryanilər haqqında heç bir məlumat vermir.

Beləliklə də, Marağa livasının müfəssəl dəftərinin məlumatlarına və digər qaynaqlara əsaslanaraq, XVIII əsrin 20-ci illərində Soyuqbulaq qəsəbəsinin əhalisinin təqribən 87,7%-nin türklərdən, 12,3%-nin isə yəhudilərdən ibarət olduğunu söyləmək mümkündür (14, s. 243).

Beləliklə, XVIII əsrin əvvəllərində bir sıra daxili və xarici amillərin təsiri altında Səfəvi dövlətinin iqtisadi-siyasi və hərbi çöküşünün nəticəsi kimi, tarixi Azərbaycan torpaqlarının çox hissəsi Rusiya və Osmanlı imperiyalarının hakimiyyəti altına keçmiş, bir çox hallarda yerli əhalinin ciddi narazılığına, hətta silahlı çıxışlarına (xüsusən də ruslara qarşı) baxmayaraq, qısa da olsa, ölkə bir müddət bu imperiyaların tətbiq etdiyi yeni üsul-idarə ilə yaşamağa məcbur olmuşdur. Həmin dövrdə Azərbaycanın Səfəvilər dönəmində mövcud olmuş inzibati ərazi bölgüsündə ciddi dəyişikliklər edilməsə də, osmanlıların xilafət dövləti kimi müxtəlif əyalətlərdə şəriət normalarına uyğun şəkildə tətbiq etdikləri fərqli və diferensasiya olunmuş vergi dərəcələri onların idarə üsullarının daha sistemli və məntiqli olduğunu, kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafına daha yaxşı imkanlar yaratdığını göstərir. Bu, Şah Sultan Hüseynin tətbiq etdiyi dağıdıcı vergi siyasətindən sonra xüsusilə əhəmiyyətli idi, eyni zamanda həmin ərazilərdə ictimai-siyasi və iqtisadi həyatın, etnodemoqrafik vəziyyətin sabitləşməsinə xidmət göstərirdi.

## 2.2. Şəhər həyatı, sənətkarlıq və ticarətin vəziyyəti, alınan vergilər

Azərbaycan şəhərləri orta əsrlər üçün spesifik olan öncə qala-kənd şəklində qurulmuş, zaman keçdikcə isə ərazisi böyüyərək şəhər formasını almışdır. Şəhərlər qurularkən topoqrafik şərtlərə (dağlar, ovalıqlar, yaylaqlar, qışlaqlar), hidroqrafik xüsusiyyətlərə (axar su, çay, göl, dəniz), bəşəri faktorlara (qala, istehkam, gediş-gəliş yolları) xüsusi diqqət yetirilmişdir. Bunlarla yanaşı, xarici qüvvələrdən, düşmənlərdən qorunmaq üçün əhali bir yerə cəmləşmiş, bir qalaya sığınmış və zamanla bir-birinə qarışdıqca şəhərləşmə baş vermişdir. Qeyd edək ki, insanların gündəlik həyatı üçün onların kənd təsərrüfatına, heyvandarlığa, sənaye və ticarətə tələbatı da olmuşdur. Əhali emal etdiyi məhsulu satışa çıxarmaq, mübadilə etmək məqsədilə şəhərləri, kəndləri, qəsəbələri bir-birinə birləşdirən karvan yolları salmışdır. Özlərini qorumaq, təhlükəsizliyi təmin etmək, yolları nəzarətdə saxlamaq üçün bəzən qüllələr, bürclər daha hündür yerdə tikilmiş və beləliklə də şəhər daxilində aşağı-yuxarı (ulya-suflə və ya bala-zir) məhəllələr əmələ gəlmişdir. Qala içərisində ərazi az olduğu üçün əhali qala divarlarından kənarda bağ-bağçalar salmağa başlamış, daha sonra isə bəziləri evlərini də bu bağçaların içərisində inşa etmiş və zaman keçdikcə bu ərazilərin də təhlükəsizliyini təmin etmək lazım gəlmişdir. Bunun üçün mərkəzi qaladan əlavə ikinci qala divarları ucalmışdır. Bu qala divarlarının karvan yollarına açılan bir baş qapısı və bir neçə kiçik qapıları (darvazaları) olmuşdur. Nəzərə çatdıraq ki, Azərbaycan qalaları içərisində bircə Urmiya qalasının aşağıdan yuxarıya doğru qaldırma üsulu ilə açılıb-bağlanan qala qapısı mövcud imiş (66, s. 106).

Sülh və əmin-amanlıq şəraitində qala divarlarının bütün qapıları açıq olmuş, müharibə zamanı isə qapılar bağlı saxlanmışdır. Baş qala qapısından arabalar, heyvanlar, toplar və s. keçə bilməsi üçün o biri qapılara nisbətən daha böyük və geniş inşa edilmişdir. Şəhər əhalisinin sayı artdıqca içəridə ikimərtəbəli və ya eyvanlı binaların tikilməsinə başlanmışdır. Bəzi şəhərlərdə bu eyvanların altında üstüörtülü bazarlar meydana gəlmişdir. Yeri gəlmişkən qeyd edək ki, Marağada bazarlar üstüörtülü olmuşdur (105, s. 15). Getdikcə idari binaların, yaşayış evlərinin, məscidlərin, camilərin artması ilə məhəllələr də bir-birindən ayrılmağa başlamışdır.

Şəhərin ən hərəkətli və adamların ən çox toplandığı yer bazar meydanları olmuşdur. Bazar meydanı şəhərin mərkəzi hesab edilirdi və bütün məhəllələrin yolları bu meydana açılırdı. Adətən, bazar meydanının yanında cümə məscidi tikilir, məhkəmə, mədrəsə, karvansaralar, dükanlar, hamamlar meydanın ətrafında salınırdı. Lakin sənaye müəssisələri, emalatxanalar şəhər mərkəzindən uzaqda suya yaxın yerdə qurulurdu. Peşəsinə uyğun olaraq isə dulusçular, şirniyyatçılar, xalça satanlar, misgərlər, dəmirçilər, nalbəndlər, papaqçılar, zərgərlər öz məhəllələrində fəaliyyət göstərirdilər. Bazarlar, sənaye müəssisələri, emalatxanalar haqqında bəzi məlumatlar təhrir dəftərlərinə də salınmışdır.

Onu da qeyd etmək lazımdır ki, digər orta əsr şəhərləri ilə müqayisədə Azərbaycan şəhərlərini daha inkişaf etmiş şəhərlər hesab etmək olar. Belə ki, Təbriz, Marağa və Gəncə kimi bəzi böyük şəhərlərdə kanalizasiya və əhalinin suya olan ehtiyacını ödəmək, bağ-bağçaları sulamaq üçün su kanalları mövcud olmuşdur. Ətrafında çay, axar su, göl olmayan şəhərlərin məişət tullantılarını təmizləmək üçün isə çuxur qazma üsulundan istifadə edilmişdir (66, s. 109).

Tədqiq etdiyimiz dəftərdə öncə "*nəfs-i Marağa*" yarımbaşlığı ilə Marağa şəhəri haqqında məlumatlar verilmişdir. Digər müfəssəl dəftərlərdə olduğu kimi, öncə Marağa şəhərinin özündə yaşayan vergi ödəyicilərinin adları, atalarının adları müəyyən qayda üzrə tərtib edilmiş, statusları – evli və yaxud subay olmaları dəqiq şəkildə göstərilməklə yaşadıqları məhəllələrin adları qeyd olunaraq siyahıya alınmışlar. Müsəlman şəhərlərinin tərkib hissəsi olan məhəllələr bir qayda olaraq bir məscidin ətrafında salınmış müəyyən sayda evlərdən meydana gəlir, bəzən isə iri şəhərlərdə hər məhəllənin öz məscidi olurdu. Məhəllələrdə, adətən, bir-birini tanıyan və eyni inama sahib olan insanlar yaşamışdır. Tədqiq etdiyimiz dəftərdən məlum olur ki, şəhər əhalisinin böyük əksəriyyətini müsəlmanların təşkil etdiyi Marağa şəhərində aşağıdakı beş məhəllə olmuşdur:

1.Meydan məhəlləsi;
2.Sərxan məhəlləsi;
3.Atabəy məhəlləsi;
4.Darvaza məhəlləsi;
5.Ermənilər məhəlləsi.

Araşdırılan dəftərdə diqqətçəkici məqam ondan ibarətdir ki, "*Mahalle-i ermənilər*" başlığı altında qeyd edilən məhəllə iki yerə bölünür: "*cemaa'ti gebran*" (yəni ermənilər) və "*cemaa'ti yahudiyan*" (yəni yəhudilər). Müfəssəl dəftərdə "*gəbran*", yəni müsəlman olmayan mənasında işlənən söz ilə şəhərin başqa məzhəbli əhalisinin qeydə alındığı məhəllə "ermənilər məhəlləsi" adlansa da, burada iki ayrı etnik və dini qrupun nümayəndələri yaşamışdır (14, s. 23-24).

Adları çəkilən məhəllələr arasında əhalinin daha çox yaşadığı yer Atabəy məhəlləsidir. Çoxdan aza doğru nisbəti götürsək və bu məhəllələrin hamısında ancaq türk-müsəl-

man ailələrinin yaşadığını nəzərə alsaq, Atabəy məhəlləsindən (460 nəfər) sonra əhalinin nisbətən çox məskunlaşdığı Darvaza məhəlləsi (395 nəfər), Sərxan məhəlləsi (373 nəfər) və Meydan məhəlləsidir (320 nəfər). Tədqiq olunan dəftərdəki məlumatlardan aydın olur ki, Marağa şəhərində 95 çift türk-müsəlman ailəsi, 65 erməni və 63 yəhudi ailəsi yaşamışdır (14, s. 23-24). Burada qeyd etmək vacibdir ki, müfəssəl dəftərdə əhali yalnız kişi adları ilə qeydə alındığı üçün məhəllələrdə göstərilən adamların sayı evli və ya subay olmasından asılı olmayaraq, kişilərin sayıdır və bunlardan yalnız 95 müsəlman ailə çift torpağa sahib olan şəxslər olmuşlar[10]. Bunları nəzərə alaraq demək olar ki, etnik-dini cəhətdən şəhər əhalisinin 92,4%-ni türk, 3,8%-ni erməni, 3,7%-ni isə yəhudilər təşkil etmişdir.

**Cədvəl 2.1**

Marağa şəhərinin etnik tərkibi

| **Dini tərkib** | **Sayı** | **%** |
|---|---|---|
| Müsəlmanlar | 1 548 | 92,4 |
| Ermənilər | 65 | 3,8 |
| Yəhudilər | 63 | 3,7 |
| *Cəmi* | **1 676** | |

Yuxarıda qeyd edildiyi kimi, hələ Səfəvi dövlətinin çiçəkləndiyi dövrdə – I Şah Abbasın (1587-1629) hakimiyyət illərində bəzi yerlərdən köçürmələr edilmiş, bəzi ərazilər isə xarabazara çevrilmişdir. Azərbaycanın İrəvan, Naxçıvan bölgələrindən keçib Culfaya gəlib çatan fransız səyyahı Şardən qeyd edir ki, Culfanı (Naxçıvandakı) xaraba qoyan I Şah

[10] Çift torpaqlar haqqında sonrakı fəsildə ətraflı məlumat veriləcəkdir.

Abbas olmuş və onun bütün məharəti buranı möhkəmləndirməyə sərf edilmişdir. Belə ki, türk ordusunu ərzaqdan məhrum etmək məqsədilə, eyni sərhəd xəttində yerləşən indiki Ermənistanın digər yerlərini və Naxçıvanı xarabazara çevirmiş, Culfanı da bu səbəbdən xaraba qoymuşdur (56, s. 62-67). J.Tavernier də öz əsərində qeyd edir ki, Culfanı darmadağın edən I Şah Abbas olmuş və buranın əhalisini Gilana köçürmüşdür (88, s. 38). Bundan əlavə, I Şah Abbas yürüş etdiyi müxtəlif əyalətlərdən buraya özü ilə əşirətlər də yığıb gətirmişdir. Bu köçürmələrdən biri də 1605-ci ilin oktyabr ayının sonlarında baş vermiş, Ərzurum-Pasin arasında yaşayan müqəddəm əşirəti Marağa bölgəsində yerləşdirilmişdir. Yüz illər ərzində törəyib artan bu əşirət XVIII əsrin ortalarında bölgənin idarəçiliyini ələ alaraq xanlıq yaratmışdır (66, s. 41). Müqəddəm tayfasından əlavə, Marağada əfşar, qaraqoyunlu, suldus, muğanlı, otuzikili, inallı, şahsevən, şamlı, ustaclı kimi türk tayfaları da yaşamışdır (66, s. 83-84).

Sinan Bilgilinin verdiyi məlumata əsasən deyə bilərik ki, 1727-ci il sənədlərində adları keçən məhəllələr Marağada yüz il sonra da mövcud olmuş, lakin təkcə Eldəniz atabəylərinin şəninə verilən Atabəy məhəlləsinin adı dəyişdirilərək "Ağabəy" olmuşdur. Şəhərin Əhmədi, Qura-xana, Ağdaş, Pul-i Binab (Gilaslıq) və Xoca Mirzə adlı beş qala qapısı olmuş və hər bir qapı qalaya bitişik məhəlləyə açılmışdır. Meydan məhəlləsi şəhər mərkəzi olmuş və orada yaşayış evləri ilə yanaşı, cümə məscidi, karvansara və ticarət obyektləri yerləşmişdir. Meydan həm də şəhər bazarının yerləşdiyi yer olmuşdur. Darvaza məhəlləsi şəhərin böyük qapısından meydana uzanan yolun üzərində idi. Sərxan qəssabxana, boyaxana, sabunxana, sərxana kimi sənaye müəssisələrinin yerləşdiyi məhəllə olmuşdur (66, s. 121; 40, s. 156). Şardən

öz əsərində Təbriz şəhərinin Meydan məhəlləsində axşamları əyləncəli oyunlar, gözbağlayıcılar, köçəri akrobatların göstərdikləri hoqqabazlıqlar, güləş, öküz və qoç döyüşü, yaxşı təlim görmüş canavarların rəqsindən ibarət qurd rəqsinin nümayiş etdirildiyini qələmə almışdır (56, s. 74-75). Ola bilsin ki, Marağa şəhərinin gündüzləri bazar kimi fəaliyyət göstərən Meydan məhəlləsi axşamları bu kimi əyləncəli oyunların keçirildiyi bir məkan da olmuşdur.

XVII yüzilliyin ortalarında buranı ziyarət edən Övliya Çələbi şöhrəti ətrafa yayılmış bağçalı-meyvəli Marağa şəhərindən bəhs etmişdir. O, şəhərdə üstü torpaqla örtülü 7000 ev, 11 cami, 60 məscid, 40 xanəgah, 40 dərgah, 11 hamam, 3000 dükan gördüyünü öz əsərində qeyd etmişdir. Bunlarla yanaşı, şəhərdə su şəbəkə sisteminin mövcudluğunun şahidi olmuşdur. Şəhər camaatının Səhənd dağlarından gətirilən suyu həm içmək, həm də bağ-bostanları sulamaq məqsədilə istifadə etdiyini qələmə almışdır. Övliya Çələbi bəzi varlı ailələrin evlərində hovuz və fəvvarəyə də rast gəlmişdir. O, evlərin bir çoxlarında bez və xalça toxumaq üçün dəzgahlar gördüyünü yazmışdır. Evlərdə toxunan bez və xalılar bazarlarda satılar və beləliklə də ailə büdcəsinə yardım edilərmiş. Övliya Çələbi bağlarda əkilib yetişdirilən üzüm, nar və digər meyvələrin olduqca ləzzətli olduğundan söhbət açmışdır. Burada yaşayan əhalinin bəyaz dərili, parlaq üzlü, gözlərinə sürmə çəkmə adəti və gözəl danışıq mədəniyyətinə malik olması barədə  öz qeydlərini etmişdir (70, c. 2, s. 268-269).

Şah I Təhmasibin (1524-1576) sarayında olmuş venesiyalı elçilər Mikele Membre və Vinçenso Alessandri şahı müşayiət edərək Marağadan Təbrizə getdikləri yolda gördükləri çox maraqlı faktları qeydə almışlar. Belə ki, onlar şah ordusu Marağa ərazisindən keçərkən burada hər yerin göz oxşayan

otlaqlardan ibarət olduğu üçün atlara arpa yedirtməyə ehtiyac qalmadığını, buradan axan çaylarda bol və sümüksüz iki növ – qara və qırmızı balıq olması barədə məlumat vermişlər (59, s. 47-48).

V.Minorski yazır ki, 1729-cu ildə Nadir şah tərəfindən geri alınan Marağadan 3000 nəfər şəhər sakini Bəlucistanın Qalat xanlığına köçürülmüşdür. Nadir şahın zamanında şəhərdə yaşayan müqəddəm tayfalarının evlərinin sayı 15 minə, əhalisinin sayı 75 min nəfərə çatmışdır. 1880-ci ildə isə Marağa şəhəri 6865 nəfər kişi və 6394 nəfər qadının yaşadığı və ümumilikdə 13259 nəfər əhalisi olan bir türk məntəqəsi olmuşdur (66, s. 159).

1733-cü ilin iyulunda Marağaya səyahət etmiş fransız səyyahı buranı belə təsvir edir: "O (Marağa), gözəl bir vadidə yerləşmişdi, möhkəm qala divarları və kifayət qədər əhalisi vardı, lakin türklər onu iki dəfə dağıtmışdılar" (45, s. 71-72).

Ümumiyyətlə, XVIII yüzillikdə Azərbaycanın şəhər əhalisinin ictimai tərkibi beş təbəqədən ibarət olmuşdur (123, s. 171):

1. Birinci təbəqə dörd hissəyə bölünürdü: hərbçilər, ruhanilər, vətəndaş bürokratiyası, iri və xırda torpaq sahibləri.

2. Beynəlxalq (ölkəxarici) ticarətlə məşğul olan iri tacirlər, ölkə daxili ticarətlə məşğul olan orta və xırda tacirlər.

3. Sənətkarlar – orta əsr şəhərlərinin əsas istehsalçıları olmuşlar və peşələrinə görə qruplaşırdılar.

4. Əkinçilər – şəhərətrafı torpaqları əkib-becərir və heyvandarlıqla məşğul olurdular.

5. Bu təbəqəyə qullar və qulluqçular aid edilirdi.

Şəhərin idarəçiliyi əsasən birinci təbəqənin nümayəndələrinin əlində cəmləşmişdi. Belə ki, daha öncə də izah etdiyimiz kimi, ən iri torpaq sahibləri bəylərbəyilər idi və onlara tabe olan şəxslər də bu təbəqəyə aid edilirdi.

Orta əsr Azərbaycan şəhərlərini və xarici şəhərləri bir-biri ilə birləşdirən lazımi infrastruktura malik işlək ticarət yolları vardı. Məlumdur ki, hələ Səfəvi dövlətinin Avropa və Rusiya ilə geniş ticarət əlaqələri olmuş və bu əlaqələr sonrakı illərdə də davam etdirilmişdir. Şardən Təbriz şəhərinin ərazisinə, zənginliyinə, əhalisinə və ticarətinə görə Səfəvi imperiyasında ikinci yer tutduğunu və onun Asiyada ən böyük bazara malik olduğunu qeyd etmişdir (56, s. 74-75). Bundan əlavə, Şardən yazır ki, Marağa, Mərənd, Qarabağ və Muğan atları olduqca məşhur idi və Türkiyə bu atları əldə etmək üçün böyük təşəbbüs göstərirdi (56, s. 70-71). D.Quataert göstərir ki, Osmanlı imperiyasında digər məqsədlərlə yanaşı istifadə olunan atlar, həm də Təbriz-Trabzon marşrutu ilə gedən karvanlar üçün böyük əhəmiyyət kəsb edirdi (129, s. 121).

M.Heydərov da öz əsərində Səfəvi dövlətinin ən böyük bazarlarının Naxçıvan, Marağa, Mərənd, Gəncə, Qarabağ, Xoy, Bakı, Ərəş və digər şəhərlərdə olduğunu qeyd etmişdir. Bu bazarlardan İsveçrəyə ipək, Rusiya və Avropa ölkələrinə zərbaft, atlas, tafta, ipək, məxmər, İngiltərə və Hollandiyaya güzgü, döyüş ləvazimatları, iynə, sancaq aparılırdı (106, s. 22, 79, 97, 98). Osmanlı dövlətinə gətirilən ipəklər Bursada tacirlər tərəfindən satın alınır, burada əlavə işləmələrdən sonra İtaliyanın Venedik və Lucca şəhərinə ixrac edilirdi (68, s. 326).

Parisdən İsfahana səyahət etmiş J.Tavernier İranın (Azərbaycanın) hər bir şəhərində karvansaralar, meydanlar, bazarlar olduğunu və burada yerləşən dükanlarda eyni növ malların fərqli qiymətlərlə satılması barədə qeydlər etmişdir. O həm də Azərbaycanda istehsal olunan yun parçaların keyfiyyətindən söz açaraq yazır ki, buranın yun parçaları hər

yerdə o qədər məşhurdur ki, özümlə götürdüyüm yun parçaları yolda oğurlamışdılar (88, s. 58-59, 65,67).

Əcnəbi tacirlər Azərbaycana Rusiya ərazisindən iki yolla daxil olurdular: quru yolu ilə – Dərbənd–Şabran–Muğan düzü–Ərdəbil–Xalxal–Zəncan–Sultaniyə–Əbhər–İsfahan istiqamətində hərəkət edir, sonra bu əsas yol şaxələnərək onları Gəncə, Ərəş, Naxçıvan, Mərənd, Təbriz, Marağa və digər şəhərlərə aparırdı; dəniz yolu isə Dərbənd–Bakı–Lənkəran–Astara–Gilan limanlarından keçirdi. Avropalılar isə bura Türkiyə ərazisindən İstanbul–İzmir–Tokat–Hələb–Mosul–Uşni–Marağa–Ərdəbil, həmçinin İstanbul–Ərzurum–Trabzon–Üçkilsə–İrəvan–Gəncə–Təbriz marşrutu ilə daxil olurdular (66, s. 181; 88, s. 26-27; 123, s. 183). Şardən Təbrizdən Səfəvi dövlətinin hər yerinə, eləcə də Türkiyəyə, Moskvaya, Tatarıstana, Hindistana və Qara dəniz hövzələrinədək uzanan ticarət yollarının olması barədə xəbər vermişdir (56, s. 75). Bu ticarət yolları ilə Marağadan Avropaya, xüsusilə də Yunanıstana və Afrika ölkələrinə quru meyvələr ixrac edilmişdir (51, s. 127). Belə ki, I Şah Abbas (1587-1629) nəinki Avropa dövlətlərinin əksəriyyəti ilə, hətta Şərqdə yerləşən Siamla da əlaqə yaratmış və Siam elçilərini İranda (Azərbaycan – *G.Qafqazlı*) qəbul etmişdir (30, s. 129). Lakin Azərbaycanı Avropa, Suriya və Hindistan limanları ilə birləşdirən yollar türklərin və venesiyalıların əlində olduğundan onlar bu ticarət əlaqələrindən yüksək məbləğdə gəlir götürürdülər (131, s. 243).

Bir əsr sonra Azərbaycan və Osmanlı imperiyası arasında daha öncəki əsrlərdən bəri mövcud olan ticarət yolları barədə məlumat verən fransız səyyahının fikirləri olduqca maraqlıdır. 1869-cu ildə Marseldən İstanbula, oradan da Qara dəniz vasitəsilə Trabzona səyahət edən fransalı Teofile Deyrolle bu dəniz yolunun səyyahlar və tacirlər tərəfindən çox

yaxşı mənimsənildiyi və dörd iri həcmli gəminin həftədə bir dəfə buraya gəlməsi barədə məlumat vermişdir. Belə ki, o daha öncəki zamanlarda buraya sıx-sıx gedib-gələn qafqazlıların öz məmləkətlərinə birdəfəlik çəkilməsi ilə ticarətin azaldığını, Trabzon, Suhumqala və Redutqalaya min iki yüz qayığın yan aldığını qeyd etmişdir. O, rusların Azərbaycan ərazisindən keçən tranzitə çox böyük əhəmiyyət verdiyini, özlərinə münasib şərtlərlə Qafqaz və Potidən məmləkətlərinə doğru yol yaratdıqlarını yazmışdır. Ruslar Poti limanına milyonlarca rubl pul xərcləmiş, onların buradan Trabzon və İstanbula üzən rus kompaniyasına məxsus gəmiləri olmuşdur (89, s. 7, 46).

M.Heydərov XVII yüzillikdə Azərbaycanda sənətkarlığın 44 növünün olduğunu, bunlardan dərzi, zərgər, silah düzəldən, qızılı və gümüşü sap hazırlayan, dülgər, misgər, topçu, kərpic və sabun bişirən və s. sənət sahiblərinin adlarını qeyd etmişdir (103, s. 42-43). Azərbaycanda sənətkarlıq getdikcə inkişaf etmiş və zaman keçdikcə irimiqyaslı emalatxanalar əmələ gəlmişdir. Beləliklə də sənətkarlar hazırladıqları malları satış üçün bazarlara çıxarmışlar (123, s. 173-175).

Araşdırdığımız müfəssəl dəftərdə şəhər əhalisinin əsas məşğulluq sahələri barədə qeyd edilmiş məlumatlar da böyük maraq doğurur. Dəftərin birinci hissəsində Marağa şəhərinin əhalisinin siyahısı bitdikdən sonra buğda, arpa, darı, pambıq, meyvə, bostan və s. üçün şəhərdən yığılan vergilərin adları və miqdarı, həmçinin torpağa görə vergi, gəlinlik vergisi, işlənmiş hər hansı bir cinayətə görə vergi ödənişi qeyd olunmuşdur. Nəzərə çatdıraq ki, Elxanilər dövründən etibarən əsası qoyulmuş pambıq istehsalı Səfəvilər dönəmində Marağa şəhəri iqtisadiyyatının ən mühüm sahələrindən birinə çevrilmişdir (66, s. 176).

Tədqiq olunan dəftərdə diqqətçəkən məqamlardan biri də, Marağada iyirmi doqquz (14, s. 25) dəyirmanın mövcud olması, onların istifadə müddətləri, neçə daşdan ibarət olmaları və kimlər tərəfindən idarə edildiklərinin dəqiq qeydə alınmasıdır. Müfəssəl dəftəri araşdırarkən məlum olmuşdur ki, nahiyələrdə istifadəyə yararlı olmayan dəyirmanların yanında onların xarab olması barədə də məlumat verilmişdir.

Müfəssəl dəftərdə dabbaqxana və boyaxananın mövcudluğu barədə qeydlər Marağa şəhərinin həm də sənətkarlıq mərkəzi olduğunu göstərir (14, s. 26). Məlumdur ki, dabbaqxanalarda iri və yaxud xırda buynuzlu heyvanların dərisi aşılanır və müəyyən məqsədlər üçün istifadə edilirdi. Yeri gəlmişkən nəzərə çatdıraq ki, dabbaqlar qal qozu ilə dərinin tükünü təmizləyir, sonra onları müxtəlif rəngə boyayırdılar. Bu sənətkarlar, adətən, yəhər qayıranlar, çəkməçilər, ayaqqabı tikənlər üçün dəri hazırlayırdılar. Gön və dəri məmulatlarının hazırlanmasında çoxlu su sərf olunduğundan dabbaqlar şəhərdən bir qədər kənarda və yaxud çay kənarlarında məskən salırdılar (51, s. 112-113). Hələ 1363-cü ildə Cəlairlər dövlətinin xəzinəsinə Marağada hazırlanan dəri məmulatlarından və dabbaqxanalardan gələn gəlirlərin miqdarı 150 000 dinar təşkil etmişdir (103, s. 184-185). Bununla yanaşı, şəhərdə sabunxana (14, s. 26) və qəssabxananın (14, s. 26) olması barədə də məlumat var. Qeyd edək ki, Marağa şəhərində sabun bişirilməsi və istehsalı ənənəsi hal-hazırda da davam etdirilməkdədir.

M.Heydərov öz əsərində Təbriz, Mərənd, Şamaxı, Gəncə və Naxçıvan şəhərləri ilə yanaşı, toxuculuq və boyaçılığın Marağada da inkişaf etdiyini göstərmişdir (104, s. 54-55, 69, 70).

Müfəssəl dəftərdən o da aydın olur ki, həmin dövrdə şəhərdə bazar mövcud olmuş və bu bazardan atlara, iri və

xırdabuynuzlu heyvanlara görə ödənilən rüsum – *bazar bacı* alınmışdır. Rüsum satışa çıxarılan heyvanın növündən asılı olaraq müəyyən olunur və bu gəlir mənbəyi xəzinəni ildə 4000 ağça ilə təmin edirdi. Şəhərlərin girişlərində yerləşən gömrük məntəqələrində isə "*rahdari*" adlı rüsum alınırdı. Q.Ə.Dəlilinin yazdığına görə, osmanlıların Təbrizə təyin etdikləri hakim Seyid Süleymanla ipək tacirləri arasında 1729-cu ildə bağlanmış müqaviləyə əsasən, "Gilandan gətirilən ipək məhsulunun hər yükünə Ərdəbildə 4 quruş (1 quruş – 125 ağça), Təbrizdə isə 36 quruş gömrük haqqı verilməli idi. Sərab nahiyəsində, eləcə də Mərənd, Çors, Marağa, Soyuqbulaq və digər keçid məntəqələrində toplanan rahdari vergisi tacirlərə bağışlanırdı" (33, s. 60). A.S.Bilgili öz əsərində göstərir ki, şimaldan cənuba gedən Həmədan, Luristan, İsfahan, Ərdalan, Xuzistan yolu və Bağdaddan gəlib Təbrizə gedən karvan yolu üzərində yerləşən Marağa şəhəri Təbrizdən bir öncəki dayanacaq və gömrük məntəqəsi olmuşdur (66, s. 202).

Hollandiyalı səyyah Korneil de Bruin öz əsərində yazır ki, o, Azərbaycanın şəhərlərini ziyarət edərkən gömrük məntəqələrindən keçdiyi zaman müəyyən məbləğdə gömrük rüsumu ödəmiş və bu rüsum onların atlarının sayına görə hesablanmışdır (54, s. 31, 86-87).

M.Heydərov qeyd edir ki, satış üçün nəzərdə tutulan bu mallara görə gömrük rüsumu ödənilir, bu zaman hər hansı bir xidmət göstərildikdə *xodamiyə*, malların böyük tərəzidə ölçülməsinə görə *rəsm-i kapan* vergisi ödənilirdi. Ticari məqsədlərlə bazarlara gətirilən mallar keyfiyyət və kəmiyyət baxımından dəyərləndirilir və onlara görə *rüsum-i mizan-i* vergisi alınırdı (106, s. 98).

Yeri gəlmişkən onu da qeyd edək ki, müfəssəl dəftərlərdə gömrük keçid məntəqələrinin yerləşməsi, tacirlər və əhalinin hansı ticarətlə məşğul olmaları barədə ayrıca məlumat verilmir. Lakin tədqiq etdiyimiz dəftərdə Marağa livasının gömrük müqətaası göstərilmişdir və buradan da aydın olur ki, xəzinəyə ildə 600 000 ağça miqdarında vergi ödənmişdir.

Müfəssəl dəftərdə gömrük bölümündən sonra ikinci yerdə ticarət sahəsi ilə sıx əlaqəsi olan "*ihtisab və ihzariyyə*" vergisi qeydə alınmışdır. "İhtisab"ın mənası hesablama, hesaba alma, "ihzariyyə" sözünün mənası isə hazırkı, hazırlanmış, hazırlamaq üçün lazım olan şeylər və vəziyyət anlamına gəlir ki, bu da bazarlarda malların qiymətinə və ticarət qaydalarına nəzarət funksiyası ilə bağlı bir termindir. Həmin funksiyanı icra edənə isə "*mühtəsib*" deyilirdi (51, s. 124). Mühtəsib, eyni zamanda şəhərə satılmaq üçün gətirilən mallara qazı tərəfindən qiymət qoyulduqdan sonra, növündən asılı olaraq bu mallar üçün müəyyən qədər pul toplayırdı (64, s. 60). Mühtəsib qazıya tabe idi və ticarət qaydalarını pozanları cəzalandıra da bilərdi. Osmanlılar bu işi müəyyən bir vəsait müqabilində "*amil*"ə və yaxud bir "*əmin*"ə həvalə edirdilər. Amilin dövlətə ödədiyi vəsaiti təmin edən gəlir mənbəyinə "*ihtisab müqətaası*" deyilirdi (37, s. 86). Xəzinənin Marağa şəhərinin ihtisabından əldə etdiyi illik gəlir 6000 ağça olmuşdur. Qeyd edək ki, osmanlılar fəth etdikləri ərazilərin təhririni aparan zaman burada olan vacib gəlir mənbələrinin qeydiyyatını aparır və bunları *müqətaa* adlandırırdılar. Müqətaa – Osmanlı xəzinəsinin gəlir mənbələrindən biri olub, dövlətə aid bir ərazinin və ya varidatın əvəz müqabilində icarəyə və yaxud müvəqqəti istifadəyə verilməsidir. Dövlətin uyğun gördüyü hər hansı bir kənd təsərrüfatı sahəsi, ticarət obyektləri və kiçik sənaye müəssisələri müqətaa

edilə bilərdi və onları icarəyə götürən şəxs "*mültəzim*" adlanırdı. Müqətaalar, adətən, üç illik icarəyə verilirdi, onu icarəyə götürən mültəzimin tək bir şəxs və yaxud da şərikli olması mümkün idi. Əgər müqətaalardan gələn gəlirlərin miqdarı gözlənilmədən yüksək bir həddə çatardısa, bu zaman dövlət mültəzimlə olan icarə müddətini dayandırıb daha çox pul təklif edən digər mültəzimə həmin müqətaanı icarəyə verirdi. Mültəzim icarəyə götürdüyü obyektin pulunu nağd ödəmişsə, onda geri qalan dönəm üçün miqdarı özünə geri qaytarılırdı. Dövlət xəzinəsinə hər ay pul ödəyən mültəzim üçillik müddətdə icarəyə götürdüyü obyekti nə sata, nə də başqasına təslim edə bilərdi. O, xəzinədən tam asılı olurdu. İltizam dövrü müddətində icarə pulunu heç ödəməyən şəxsin malları dövlət tərəfindən müsadirə edilirdi (33, s. 129-132).

Osmanlılar müqətaaların istifadəyə verilməsində üç üsuldan – iltizam, əmanət və XVII əsrin sonlarından etibarən mövcud olan malikanə üsulundan istifadə etmişdilər. İltizam üsulunda mədən ocağı, zərbxana, gömrük və digər müqətaaların illik gəlirlərinin dəyəri maliyyə tərəfindən təsbit edilib xəzinə dəftərlərinə qeyd olunurdu. Xəzinə müqətaa üçün ən yüksək pul təklif edən adil və yaxşı tanınan mültəzimi seçir və obyekti ona icarəyə verirdi. İltizam müddətində mültəzim dövlətin qanunları çərçivəsində icarə haqqını qəbul olunmuş şərtlər əsasında tam ödədikdən sonra həmin obyektdən gələn digər gəlirləri özü üçün istifadə edirdi (33, s. 129-132). Müfəssəl dəftərlərdə iltizam üsullu müqətaalar qeyd edilmişdir.

Səyyah Pyer Davit əsərində yazır ki, İranın (Azərbaycanın – *G.Qafqazlı*) hər yerində iltizamçı var və o, mallara nəzarət edir, onlardan vergi götürür. Bazarda dükan açan tacirlər hər gün müəyyən məbləğ ödəyirlər, alış-verişin gedişatından asılı olaraq onların ödədikləri məbləğ az və ya çox ola

bilər. Eləcə də sənət sahibləri peşələrindən asılı olaraq müəyyən vergi ödəyirlər (54, s. 19).

Ticarətdə, gündəlik həyatda, məişətdə məhsullarından istifadə olunan və gəlir gətirən sahələrdən biri də arıçılıq idi. Marağada meyvə bağları çox olduğuna görə əhali burada arıçılıqla da məşğul olur və bununla bağlı olaraq pətək vergisi (14, s. 26) ödəyirdi. Onu da qeyd edək ki, həmin dövrdə evlərin işıqlandırılması üçün lazım olan şamların hazırlanmasında arı mumundan istifadə edirdilər.

Marağa livasının müfəssəl dəftərində "*kantar müqətaasının*" adı ayrıca qeyd edilmiş və Marağadan xəzinəyə ildə 10 000 ağça gəlir daxil olmuşdur. Kantar bazarlarda "*keyl/kile*" ilə ölçülüb-çəkilən mallar və məhsullar (məsələn, pambıq, kantarla, dənli bitkilərdən buğda, arpa, darı, düyü, mərci, noxud və s. isə kile ilə ölçülürdü) üçün ödənən rüsum idi.

Marağa şəhərinin müqətaa hissəsində "*üşr-i tenbekü*" (14, s. 26) kimi qeyd edilən digər bir verginin adından məlum olur ki, Marağada tənbəkiyə görə vergi toplanmışdır. Verginin alınma qaydası ayrıca izah edilmişdir. Maraqlıdır ki, digər vergilərin adlarının yanında belə bir qeydə rast gəlinməmişdir. Hasilindən alınan məbləğin yarısı ərazi sahibinə, yarısı isə xəzinəyə ödənilən tənbəki vergisinin miqdarı 96 000 ağça idi və digər vergilərdən fərqli olaraq bu verginin altında "ildə" sözü yazılmamışdır. Xüsusi qeyd ilə yazıya alınmış tənbəki vergisi "Urmiya və Xalxal livalarının müfəssəl dəftərinin" Xalxal livasının müqətaasında da göstərilmişdir (15, s. 69). Lakin araşdırılmış digər müfəssəl dəftərlərdə bu vergiyə rast gəlinməmişdir.

Yeri gəlmişkən onu da qeyd edək ki, Marağada əkilib-becərilən tütün yüksək keyfiyyətli tütün hesab edilirdi. Hələ

Səfəvi dönəmində dövlətin xəzinəsinə daxil olan tütün vergisi digər bölgələrin bu cür vergisini də nəzərə aldıqda, ümumilikdə 72 000 tümən təşkil edirdi (103, s. 28).

Tərəfimizdən tərtib edilmiş aşağıdakı cədvəldə Marağa şəhərindən toplanan və yuxarıda adları çəkilən vergilərin ağça ilə miqdarı göstərilmişdir:

**Cədvəl 2.2**

Marağa şəhərinin əsas gəlir mənbələri

| **Vergilərin adı** | **Vergilərin miqdarı** |
|---|---|
| Gömrük | İldə 600 000 ağça |
| Bazar bacı | İldə 4 000 ağça |
| Dabbaqxana | İldə 4 800 ağça |
| Sabunxana | İldə 2 400 ağça |
| Qəssabxana | İldə 11 5200 ağça |
| Boyaxana | İldə 122 400 ağça |
| İhtisab və İhzariyyə | İldə 6 000 ağça |
| Tənbəki | 96 000 ağça |
| Beytü-l-mal üçün alınan ümumi vergi (buraya itmiş mala görə alınan vergi də daxildir) | İldə 60 000 ağça |
| Kantar | İldə 10 000 ağça |
| *Ümumi* | **1 020 800 ağça** |

Azərbaycanın orta əsrlərdəki tarixi yaşayış məskənlərindən biri də Soyuqbulaqdır. Bu bölgənin sosial-iqtisadi tarixi ilə bağlı ən dolğun məlumat verən mənbələrdən biri isə, heç şübhəsiz ki, yuxarıda adı qeyd edilən və Azərbaycan ərazilərinin Osmanlı imperiyasının tərkibinə ilhaq olunduqları dövrdə (1725-ci il) tərtib edilən Marağa livasının müfəssəl dəftəridir. Dəftərin hər iki hissəsi livanın mərkəz şəhərləri və

onlardan biri olan Soyuqbulaq qəsəbəsinə aid müvafiq təhrir məlumatları ilə başlayır, daha sonra nahiyələr və onların tabeçiliyində olan kəndlərin adı verilir. Mənbədəki qeydlərə görə, həmin dövrdə Soyuqbulaq şəhəri (dəftərdə "qəsəbə" – *nefs-i kasaba-yi Sovukbulak*) üç məhəllədən ibarət olmuşdur. Məhəllələrdən biri "Yuxarı məhəllə", ikincisi "Aşağı məhəllə" kimi təqdim edilsə də, üçüncü məhəllənin adı göstərilmir (14, s. 236).

Müfəssəl dəftərdə adsız məhəllədə 39, Yuxarı məhəllədə 115, Aşağı məhəllədə isə 310 nəfər müsəlman ailəsinin və sonra "*cemaat-i yahudiyan*" yarım başlığı altında 13 yəhudi ailəsinin yaşadığı barədə məlumat öz əksini tapmışdır. Nəzərə çatdıraq ki, Osmanlı qanunlarına uyğun olaraq, belə dəftərlərə yalnız vergi ödəyicilərinin adları salınırdı. Əlimizdəki mənbəyə istinadən deyə bilərik ki, 1725-1728-ci illərdə Soyuqbulaq qəsəbəsində 464 nəfər vergi mükəlləfi olan müsəlman (bunlardan 400 nəfəri ailəli olmuşdur)[11] və 65 nəfər yəhudi yaşamışdır (14, s. 243)[12]. A.S.Bilgili qeyd edir ki, müfəssəl dəftərin tərtibatından yüz il sonra Soyuqbulaq öz miqyasına görə iri bir şəhərə çevrilmiş, əhalisinin sayı artmış, evlərin sayı 1200-ə çatmış, onların 100-ə qədəri yəhudilərə, 30-a qədəri süryanilərə, 1070-ə qədəri isə türk-müsəlman ailələrinə məxsus olmuşdur (66, s. 167).

Soyuqbulaq qəsəbəsinin "hasil" hissəsinə keçməzdən əvvəl müfəssəl dəftərdə belə bir qeyd yazılmışdır: "Kəhrizə məzrəəsində hər ay əkilən meyvələrin hasili şəhərin hasil hissəsində hesablanmışdır, Soyuqbulaq çayı kənarında olan

[11] Müfəssəl dəftərdə əhalinin 80 nəfəri ailəli kimi qeyd olunmuşdur.

[12]Osmanlı dəftərlərində vergi ödəyiciləri ailə vəziyyətinə görə qruplaşdırılırdı, subay şəxslər (mücərrəd) ailəlilərə nisbətən az vergi ödəyirdilər. Osmanlı imperiyasının demoqrafik tarixinin araşdırılmasında bir vergi mükəlləfiyyətçisini ortalama 5 nəfər kimi hesablamaq qəbul edilmişdir (63, s. 1 – 26; 119, s. 48).

Mahmud qışlağı şəhərin qışlağıdır" (14, s. 243). Qışlaqda bir daşdan ibarət olan dəyirman üç ay, əhalinin əlində olan iki daşdan ibarət dəyirman isə yarım il fəaliyyət göstərir. Bu qeydlərdən sonra tədqiq olunan dəftərdə Soyuqbulaq qəsəbəsinin hasil bölümü başlayır.

Hasil hissədə buğda, arpa, darı, pambıq, çəltik, meyvə, bostan və s. üçün şəhərdən yığılan vergilərin adları və miqdarı, həmçinin torpağa görə vergi, gəlinlik vergisi, ağıl və qışlaq vergisi, işlənmiş hər hansı bir cinayətə görə vergi ödənişi qeyd olunmuşdur.

Soyuqbulaq livasının, ilk növbədə, xəzinəyə ən çox gəlir gətirən gömrük müqətaası verilmiş və onun illik məbləği 60 000 ağça olmuşdur. Bir-birinə yaxın məsafədə yerləşən Təbriz və Marağa kimi iki şəhərdən ayrı-ayrı gömrük vergisi alınması tranzit ticarətinə zərbə vurduğundan Osmanlılar 1729-cu ildə Sərabad, Mərənd, Çors, Marağa ilə birlikdə Soyuqbulaqda da ipəkdən gömrük vergisi almağı ləğv etmişdilər (49, s. 98). Bunu da qeyd etmək lazımdır ki, Soyuqbulaq şəhərinin keçid məntəqəsi barədə müfəssəl dəftərdə ayrıca məlumat verilməmişdir.

Gömrük müqətaasından sonra Osmanlı xəzinəsinə gəlir gətirən və ticarətlə sıx əlaqəli olan Soyuqbulaq livasının ihtisab və ihzariyyə müqətaası ildə 6 000 ağçadan ibarət olmuş, lakin tədqiq olunan dəftərdə əhalinin məhz hansı ticarətlə məşğul olması haqda xüsusi bir məlumata rast gəlinməmişdir.

Marağa livasında olduğu kimi, Soyuqbulaq livasında da iri və xırda buynuzlu heyvanların dərisinin fərqli məqsədlər üçün aşılandığı dabbaqxana mövcud idi. Livanın dabbaqxana və qəssabxana müqətaası müfəssəl dəftərdə bir yerdə hesablanmış və illik gəliri 6000 ağça təşkil etmişdir. Bunlarla yanaşı, müfəssəl dəftərdə şəhərdə boyaxana olması barədə də məlumat verilmişdir.

Araşdırdığımız dəftərdən aydın olur ki, at, xırda və iri buynuzlu heyvanların satışından əldə edilən bazar bacı Şeyx Həmzə bazarının gəlirləri ilə birlikdə hesablanmış və bu vergidən xəzinəyə 13500 ağça daxil olmuşdur (14, s. 243).

Bazarlarda "*keyl/kile*" ilə ölçülüb-çəkilən mallar və məhsullar üçün müəyyən edilmiş kantar müqətaası Soyuqbulaq şəhərində 6 000 ağçadan ibarət olmuşdur.

Marağa şəhərində olduğu kimi, Soyuqbulaq qəsəbəsində də tənbəki üçün "*üşr-i tənbəki*" vergisi alınmış və yanında bu rüsumun alınması haqqında xüsusi bir qeyd yazılmışdır. Digər vergilərdən fərqli olaraq, bu verginin altında "ildə" sözü yazılmamış və hasilindən alınan məbləğin yarısı ərazi sahibinə, digər yarısı isə xəzinəyə ödənilən tənbəki vergisi 6000 ağçadır.

Aşağıdakı cədvəldə Soyuqbulaq qəsəbəsindən toplanan və yuxarıda adları sadalanan vergilərin ağça ilə miqdarı göstərilmişdir:

**Cədvəl 2.3**

Soyuqbulaq qəsəbəsinin əsas gəlir mənbələri

| **Vergilərin adı** | **Vergilərin miqdarı** |
|---|---|
| Gömrük | İldə 60 000 ağça |
| İhtisab və ihzariyyə | İldə 6000 ağça |
| Boyaxana | İldə 80 000 ağça |
| Dabbaqxana və qəssabxana | İldə 6000 ağça |
| Şeyx Həmzə bazarı ilə birlikdə bazar bacı | İldə 13 500 ağça |
| Tənbəki | 6000 ağça |
| Beytü-l-mal üçün alınan ümumi vergi (buraya itmiş mal üçün alınan vergi də daxildir) | İldə 24 000 ağça |
| Kantar | İldə 6000 ağça |
| *Cəmi* | **201 500 ağça** |

Bəzi müfəssəl dəftərlərdə şəhərdə və yaxud hər hansı bir nahiyədə mövcud olan məscidin vəqf torpaqları barəsində də məlumat verilir, lakin tədqiq etdiyimiz dəftərdə məscidlərin adları göstərilməmiş və onların vəqf torpaqları olmadığı üçün qeyd edilməmişdir. Adları müfəssəl dəftərə salınmasa da, Marağa şəhərində Cami məscidi, Muazəddin məscidi, Zəncirli məscid, Molla Rüstəm məscidi, Şeyx baba məscidi, Soyuqbulaqda isə Cümə məscidi və Came məscidi (140, s. 40) mövcud olmuşdur (137, s. 97, s. 105). Həsən Zendedel adları çəkilən məscidlərlə yanaşı, daha iki məscid – Məsum İmamzadə məscidi və İmamzadə Ətallah məscidi barədə məlumat vermişdir (146, c. 2, s. 129-134, s. 147-148). Bu məscidlərlə yanaşı, Marağada qırx karvansara da mövcud olmuşdur ki, buradan alınan rüsumlar müfəssəl dəftərə salınmamışdır (103, s. 23).

Ərdəbil livasının müfəssəl dəftərində Hubistan kəndinin əhalisinin "*əhl-i sünnə və cəmaat*" (7, s. 296) şəklində qeydə alınması ilə onların sünni məzhəbinə mənsub olduqları göstərildiyi halda, tədqiq etdiyimiz müfəssəl dəftərdə bu cür məzhəb bölgüsünə rast gəlinməmişdir.

Marağada məscidlərlə yanaşı, xristian və erməni kilsəsi də mövcud olmuşdur ki, bu barədə də müfəssəl dəftərə heç bir məlumat daxil edilməmişdir (70, s. 263). 1301-ci ildə inşası başa çatmış Yean Baptist monastrı haqqında da heç bir bilgi göstərilməmişdir (40, s. 158).

Osmanlı hakimiyyəti dövründə Marağa və ona tabe olan kəndlərdən əldə edilən vergilərdən məlum olur ki, burada müxtəlif dənli bitkilər əkilib-becərilmiş, pambıqçılıq, arıçılıq və kənd təsərrüfatının digər sahələri mövcud olmuşdur. Bununla da şəhər sakinləri həm ərzağa olan ehtiyaclarını ödəmiş, həm də bu sahələrin məhsullarının satışı ilə məşğul olaraq digər ehtiyaclarını ödəmək üçün lazım olan pul vəsaitini təmin

etmişlər. Onu da qeyd etmək lazımdır ki, dini obyektlərdən vergi alınmadığı üçün müfəssəl dəftərlərdə məscidlərin, camilərin və s. dini mərkəzlərin sayı və adı qeydə alınmamışdır. Bu səbəbdən, araşdırdığımız Marağa livasının müfəssəl dəftərində də bu kimi məlumatlara rast gəlinməmişdir. Marağa şəhərinin yaxınlığında şüşə istehsal edən müəssisə olsa da, bu obyekt də müfəssəl dəftərə salınmamışdır (107, s. 147). Müfəssəl dəftərdə həmin obyektlərdən başqa, hamam, yeməkxana, karvansara, dükanlar və s. kimi iaşə və ticarət obyektləri də göstərilməmiş, əhalinin hansı sənətkarlıq sahəsi ilə məşğul olduğu barədə ayrıca məlumat verilməmişdir. Halbuki Marağada XVI-XVII yüzilliklərdən etibarən keramika və dulusçuluq sənəti inkişaf etmiş, burada sümüklərdən düymə hazırlayanlar, kəhriz qazanlar, kargərlər, dəlləklər, dülgərlər və s. kimi peşə sahibləri olmuşdur (103, s. 136-137, 232). Onu da qeyd etmək lazımdır ki, Marağada aparılan arxeoloji qazıntılar zamanı XII-XIII əsrlərdə əhalinin burada inşa etdikləri tikililərdə yanmış kərpicdən istifadə etdiklərini sübut edən maddi-mədəniyyət nümunələri aşkarlanmışdır (103, s. 243). Həmçinin Marağada aşkarlanan müxtəlif daş abidələrin üzərində həmin dövrün xəttatlarının, həkkaklarının və nəqqaşlarının fərqli dəst-xətləri müəyyən olunmuşdur (104, s. 107).

Müfəssəl dəftərin birinci hissəsində olduğu kimi, ikinci hissəsində də Soyuqbulaq qəsəbəsində məscidlərin, camelərin və dini obyektlərin sayı və adları göstərilməmişdir. Soyuqbulaqdakı Came məscidinin inşası Səfəvi şahı Süleyman şahın dövründə tamamlanmışdır (123, c. 2, s. 113). Əhalinin hansı sənətkarlıq sahələri ilə məşğul olması barədə ayrıca izaha rast gəlinməsə də, buradakı sənətkarlıq obyektləri (boyaxana, dabbaqxana) və Şeyx Həmzə bazarı haqda məlumat verilmişdir.

Bütün bu qeyd olunanları nəzərə alaraq demək olar ki, Osmanlı fəthindən sonra Marağa livasında tətbiq edilən yeni üsul-idarənin uzun illər boyu Səfəvi dönəmində istifadə olunan üsul-idarə ilə oxşarlıqları olsa da, müəyyən fərqlilikləri də vardı. Belə ki, Səfəvi dövlətində bəylərbəyiliklər mahallara, mahallar nahiyələrə, nahiyələr isə kəndlərə bölünürdü. Osmanlılarda isə ən böyük inzibati ərazi vahidi əyalət/vilayət idi. O, sancaq/liva və nahiyələrə, nahiyələr isə, öz növbəsində, karyelərə/kəndlərə bölünürdü. Əyalətə başçılıq edən bəylərbəyi və ya mirmiran həm də maliyyə məsələləri ilə məşğul olur, torpaq sahələrindən (timarlardan) əldə olunan gəlirlərinin bir hissəsi hesabına hərbçilərin məvacibini ödəyirdi. Müharibə baş verdikdə tabeliyində olan sancaqbəyilər hərbi yürüşlərə onun başçılığı altında gedirdilər.

Doğrudur, Osmanlı hakimiyyəti dönəmindəki bəylərbəyi və sancaqbəyi vəzifələri Səfəvi dövlətinin bəylərbəyi və mahal hakimlərinin icra etdikləri vəzifəyə uyğun gəlirdi, amma osmanlıların bu vəzifələrin icrası ilə bağlı qaydaları daha ciddi və birmənalı idi. Səfəvilərdə isə həmin qaydalar subyektivizmə daha açıq olduğundan rüşvətxorluq və əliəyrilik üçün münbit şərait yaradırdı. Məsələn, Səfəvi dövlətinin bəylərbəyisi rəhbərliyi altındakı şəhərin məhəllələrini gəzərkən "hər hansı bir mənzilin qarşısında dayandıqda ev sahibi arzu edərdisə, ona hədiyyə ərmağan edirdi, istəməyən şəxs isə bunu etməyə də bilərdi". Amma reallıqda həmin şəxsin bəylərbəyini "əliboş" yola salması o qədər də real görünmürdü. Aydındır ki, Səfəvi dövlətinin bir ali təsisat kimi çöküşündə başqa amillərlə yanaşı, idarəçilikdəki bu cür subyektivizm və özbaşınalıq hallarının rolu da az olmamışdır.

Marağa livasının müfəssəl dəftəri, həmçinin Marağa və Soyuqbulaqın şəhər həyatı, əhalinin məşğul olduğu ayrı-ayrı

kənd təsərrüfatı sahələri, ticarət, sənətkarlıq, gömrük xidməti və onlardan xəzinəyə toplanan vergilər barədə, eləcə də bölgə sakinlərinin dini-etnik tərkibi, ərazinin coğrafiyası və toponimləri haqqında kifayət qədər qiymətli məlumatlarla zəngindir ki, bütün bunlar da Azərbaycanın Orta əsrlər tarixinin qaranlıq səhifələrinin açılmasında, onun tarixi coğrafiyasının bərpasında böyük rol oynaya bilər.

# III FƏSİL

# TORPAQ MÜNASİBƏTLƏRİ, KƏND TƏSƏRRÜFATINDAN VƏ DİGƏR SAHƏLƏRDƏN TOPLANAN VERGİLƏR

## 3.1. Torpaq münasibətləri və bitkiçiliklə əlaqəli vergilərdən əldə olunan gəlirlər

"*Dəftər-i müfəssəl-i liva-i Marağa*" daha öncə də qeyd etdiyimiz kimi, fehristlə (mündəricatla) başlayır. İki hissədən ibarət olan dəftərin birinci səhifəsi nahiyələrin adları və "*evraq*" – yəni səhiflərinin nömrələri göstərilməklə tamamlanmışdır. Marağa şəhəri, onun məhəllələri, orada yaşayan əhalinin siyahısı, müqətaaları və hasil bölümü əhatə olunmaqla şəhərə aid bütün məlumatlar birinci hissədə verilmişdir. Bundan sonra Marağa livasının tabeçiliyində olan nahiyələr, həmin nahiyələrdə yerləşən kəndlər, kəndlərdə yaşayan şəxslərin siyahısı və ödəyəcəkləri vergilər göstərilmişdir. Digər müfəssəl dəftərlərdə olduğu kimi, burada da hər hansı bir kəndin digər adı olduğu təqdirdə həmin kəndin adının qarşısında "*nam-ı digər*" (yəni digər adı), yaxud kəndin nəzdində başqa bir kənd varsa, "*dər nəzd-i*" (kəndin nəzdində) sözləri yazılmışdır. Məsələn: "*Musadərə nam-ı digər Süleymanabad*" (Musadərə digər adı Süleymanabad) (14, s. 73); "*Karye-i Kışlak Penah Ali nəzde karye-i mezbur ki Horhor dağa hal-i an-ir-reaya tabe-i Benacu*" (Benacu nahiyəsinin tabeliyində olan, adı çəkilən Pənahəli qışlağı Xorxor dağının nəzdindədir və əhalisi yoxdur) (14, s. 40). Kəndlərin

tabe olduqları nahiyələrin adlarını bəzən təkrar yazmamaq üçün katib "*tabe-yi məzbur*" (adı qeyd olunmuş yerə tabe) kəlməsini işlətmişdir.

Tədqiq olunan dəftərdə ən çox diqqətçəkici məqamlardan biri də odur ki, dəftərin birinci hissəsində Marağa livasının Benacu nahiyəsinin "*Karye-i Kürd kəndi*" (Kürd kəndi) (14, s. 29) və Səracu nahiyəsinin "*Karye-i Hacı Kürd*" (Hacı Kürd kəndi) (14, s. 92) adlı yaşayış məntəqələrinin əhalisinin tərkibinə nəzər saldıqda onların müsəlman vergisi ödədiklərini görürük. Amma kəndlərin adlarındakı bu etnik elementə baxmayaraq, türk general Mahmud Pənahiyanın apardığı siyahıyaalma zamanı hər iki kəndin əhalisinin türk mənşəli olduğu üzə çıxmışdır (139, c. 7, s. 255, 349). Dəftərin ikinci hissəsində qeydə alınan Soyuqbulaq livasının kəndlərini tədqiq edərkən iki yerdə: "*Ermən i kəndi Arslan*" (14, s. 252) və "*Yekə kənd nam-ı digər erməni kəndi*" (14, s. 257) başlığı altında qeydə alınmış məntəqələrin əhalisinin də xristian olmadığını və onların da müsəlman vergisi ödədiyini görürük. Buradan belə bir nəticəyə gəlmək olar ki, ola bilsin ki, bu kəndlərdə əvvəllər ermənilər yaşamış, yaxud onların əhalisinin etnik kökəni erməni olsa belə, artıq islamı qəbul etmiş və müsəlmanlaşmışlar.

Özündə zəngin məlumatları ehtiva edən müfəssəl dəftərdə bəzi kəndlərin adlarının yanında "*hal-i 'an er-reaya*" (rəiyyəti olmayan kənd) sözləri qeyd olunmuşdur ki, bu da həmin kəndin boş olmasını göstərir. Bununla yanaşı, onu da nəzərə çatdıraq ki, əgər kənd uzun müddət boş qalmış və torpaqları yalnız əkin üçün istifadə edilirdisə, həmin yeri müfəssəl dəftərə "*məzrəə*" (əkin sahəsi, əkin torpağı) adı ilə salırdılar. Bütün bu sadalananların tərtibat prinsipləri dəftərin ikinci hissəsinə də şamil edilir.

Tədqiq etdiyimiz dəftərdən məlum olur ki, Marağa livasına tabe olan Benacu nahiyəsinə 49, Səracu nahiyəsinə 100, Bukan nahiyəsinə 38, Gavdul nahiyəsinə 84, Miyandoab nahiyəsinə 7, Əcri nahiyəsinə 51, Leylan nahiyəsinə 20, Əkərtu nahiyəsinə 24, Soyuqbulaq livasına tabe olan Şəhri-viran nahiyəsinə 76, Dəryaz nahiyəsinə 46, Yıltimur nahiyəsinə 40, Gilas nahiyəsinə 89, Mirabad nahiyəsinə 14, Tərkeş nahiyəsinə 19, Telyuş nahiyəsinə 8, Alan nahiyəsinə 5, Turcan nahiyəsinə 37, Axtaçı nahiyəsinə 48, Lacan nahiyəsinə 75, Suldus nahiyəsinə 73, Qıpçaq tabe-i Suldus nahiyəsinə 38 kənd daxil olmuşdur. Müfəssəl dəftərin verdiyi məlumatlardan o da bəlli olur ki, son illərdə bölgədə yaşanan ciddi hərbi-siyasi hadisələrə rəğmən, çox əlverişli təbii-coğrafi mövqeyə malik olan Marağa livasının tərkibindəki bütün nahiyələrin kəndlərinin əksəriyyəti məskun yerlər olmuşdur.

**Cədvəl 3.1**

Marağa livası üzrə kəndlər

| **Nahiyələr** | **Məskun kəndlər** | **Qeyri-məskun kəndlər** |
|---|---|---|
| Benacu | 39 | 10 |
| Səracu | 98 | 2 |
| Bukan | 30 | 8 |
| Gavdul | 66 | 18 |
| Miyandoab | 3 | 4 |
| Əcri | 40 | 11 |
| Leylan | 14 | 6 |
| Əkərtu | 18 | 6 |
| *Yekun* | **308** | **65** |

**Cədvəl 3.2**

Soyuqbulaq livası üzrə kəndlər

| **Nahiyələr** | **Məskun kəndlər** | **Qeyri-məskun kəndlər** |
|---|---|---|
| Şəhr-i viran | 74 | 2 |
| Dəryaz | 46 | - |
| Yıltimur | 40 | - |
| Gilas | 89 | - |
| Mirabad | 14 | - |
| Tərkeş | 19 | - |
| Telyuş | 8 | - |
| Alan | 5 | - |
| Turcan | 37 | - |
| Axtaçı | 48 | - |
| Suldus | 64 | 9 |
| Lacan | 47 | 28 |
| Qıpçaq | 25 | 13 |
| *Yekun* | ***516*** | ***52*** |

Müfəssəl dəftərdə Marağa şəhərindən fərqli olaraq, nahiyələr üzrə vergi verməli olan şəxslər "*çift*", "*nim*", "*bennak*", "*caba*", "*mücərrəd*" və "*ispəncə*" kateqoriyaları üzrə qruplaşdırılmışlar. Əsasən kənd yerlərində, bəzən də şəhərlərdə əkinçiliklə məşğul olanlara aid edilən bu bölgü həmin şəxslərin ailə vəziyyəti ilə yanaşı, onların əkib-becərdikləri torpaq sahəsinin ölçüləri barədə də məlumat verir. Beləliklə də, araşdırılan dəftərdə vergi ödəyicisi kimi siyahıya alınan şəxsin adının altında onun hansı vergi kateqoriyasına aid olduğunu və həmin kateqoriya üçün müəyyən olunmuş həcmdə vergi ödədiyini görürük.

Əsas məşğulluq sahəsi əkinçilik olan rəiyyətin kənd təsərrüfatından gələn gəlirlərini hesablayan Osmanlı məmurlarının diqqətini cəlb edən başlıca məqamlardan biri də əkin yerləri idi. Mənası "əkin ilə məşğul olunan yer" və ümumiyyətlə, "bir cüt öküzün şumlaya biləcəyi sahə" anlamına gələn, hər hansı bir rəiyyətin əkin üçün istifadə etdiyi sahəyə Osmanlı qanunnamələrində "çiftlik" deyilirdi (75, s. 582). Lakin bu əkin sahəsinin ölçüləri əyalətlərə görə dəyişir və ilk növbədə, onun münbitliyindən və məhsuldarlığından asılı olurdu (68, s. 279). Osmanlı qanunnamələrində bir çiftin sahəsi qeyd etdiyimiz amillərə görə belə dəyişirdi: münbit və məhsuldar torpaqlarda 60-80 dönüm, orta məhsuldarlıqlı ərazilərdə 80-100 dönüm, əkin üçün yararlılığı aşağı olan yerlərdə isə 100-150 dönüm (119, s. 90). Sahə ölçü vahidi olan dönüm Osmanlı qanunlarına görə "adi addımla eni və uzunu qırx addım olan yer" hesab edilirdi (64, s. 131). Bütün bunları nəzərə alsaq, hər çiftliyin sahəsi təqribən 60-150 dönümə bərabər olmuşdur. Belə sahələri əkən rəiyyətə (camaata) Osmanlı qanunnamələrində "*tam çift*" və ya "*çift*", onun yarısı qədər əkin sahəsinə malik olanlara isə "*nim çift*" və ya "*nim*" adı verilmişdir. Osmanlı qanunnamələrini araşdırdıqda məlum olur ki, onlar üçün ən önəmli məsələ torpaq əkən rəiyyətin mütləq şəkildə evli olması idi (75, s. 583).

Osmanlılar əkin sahələrini rəiyyətə verərkən ondan bunun qarşılığında icarə haqqı alır və müvafiq sənəd təqdim edirdilər. Bu növ icarə haqqı və yaxud icarə sənədi "*tapu*" və ya "*tapuy-i zəmin*" adlanırdı. İcarənin şərtlərinə görə, torpağı icarəyə götürən şəxs onu mütləq əkib-becərməli idi, lakin ona bu sahəni satmaq, başqasına icarəyə vermək, hədiyyə etmək, bağışlamaq və ya vəqf etmək hüququ verilmirdi. Sadalanan şərtləri pozan kəslərin torpağı əlindən alına və yenə icarə haqqı müqabilində torpağa ehtiyacı olan digər birinə

verilə bilərdi. İcarə haqqını ödəyib torpağını əkən şəxs vəfat etdikdə, həmin torpaq sahəsi onun oğluna və ya həyat yoldaşına (arvadına), qızına pulsuz verilir, mirasçısı olmadıqda isə qardaşına, qardaşı da olmadıqda, icarə haqqı qarşılığında başqa bir ailəyə verilirdi (68, s.305).

"*Rəsm-i tapu*" adı ilə də adlanan bu verginin miqdarı torpağın keyfiyyətinə görə dəyişirdi. Belə ki, kənd təsərrüfatına yararlı olmayan boz torpaqlardan on, iyirmi, otuz ağca alındığı halda, əkilib-becərməyə əlverişli torpaqlardan iyirmi beş, qırx, əlli ağca alınmışdır (68, s. 281).

Bütün deyilənləri nəzərə alaraq, Marağa livası üzrə əkin sahələrinin "*çift*" və "*nim çift*" sayını, eyni zamanda onların sahələrinin minimumunu hesablayaq. Marağa livasının müfəssəl dəftərinin ümumiləşdirilmiş məlumatlarına əsaslanaraq deyə bilərik ki, Marağa livasının Marağa şəhərində 95 çift, Benacu nahiyəsində 560 çift, Səracu nahiyəsində 198 çift, Bukan nahiyəsində 63 çift, Gavdul nahiyəsində 216 çift, Miyandoab nahiyəsində 5 çift, Əcri nahiyəsində 39 çift, Leylan nahiyəsində 50 çift, Əkərtu nahiyəsində 21 çift; Soyuqbulaq livasının Şəhri-viran nahiyəsində 288 çift, Dəryaz nahiyəsində 147 çift, Yıltimur nahiyəsində 142 çift, Gilas nahiyəsində 234 çift, Mirabad nahiyəsində 37 çift, Tərkeş nahiyəsində 48 çift, Telyuş nahiyəsində 17 çift, Alan nahiyəsində 15 çift, Turcan nahiyəsində 127 çift, Axtaçı nahiyəsində 144 çift, Suldus nahiyəsində 106 çift, Lacan nahiyəsində 198 çift, Suldusa tabe olan Qıpçaq nahiyəsində 89 çift qeydə alınmışdır. Yarım çiftlərə gəlincə isə Marağa livası üzrə nim çiftlər yoxdur, lakin Soyuqbulaq livasının Axtaçı nahiyəsində 2 nim çift, Suldus nahiyəsində 62 nim çift və Lacan nahiyəsində 73 nim çift qeydə alınmışdır.

**Cədvəl 3.3**

Marağa livası

| Əkin sahəsi | Marağa | Benacu | Səracu | Bukan | Gavdul | Miyan doab | Əcri | Leylan | Əkərtu | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çift | 95<br>7,62% | 560<br>44,91% | 198<br>15,88% | 63<br>5,05% | 216<br>17,32% | 5<br>0,4% | 39<br>3,13% | 50<br>4,01% | 21<br>1,68% | 1,247 |

**Cədvəl 3.4**

Soyuqbulaq livası

| **Əkin sahəsi** | **Çift, %** | | **Nim çift, %** | |
|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 80 | 4,78 | - | |
| Şəhri-viran nahiyəsi | 288 | 17,22 | - | |
| Dəryaz nahiyəsi | 147 | 8,79 | - | |
| Yıltimur nahiyəsi | 142 | 8,49 | - | |
| Gilas nahiyəsi | 234 | 14 | - | |
| Mirabad nahiyəsi | 37 | 2,21 | - | |
| Tərkeş nahiyəsi | 48 | 2,87 | - | |
| Telyuş nahiyəsi | 17 | 1,02 | - | |
| Alan nahiyəsi | 15 | 0,9 | - | |
| Turcan nahiyəsi | 127 | 7,61 | - | |
| Axtaçı nahiyəsi | 144 | 8,61 | 2 | 1,46 |
| Suldus nahiyəsi | 106 | 6,34 | 62 | 45,26 |
| Lacan nahiyəsi | 198 | 11,84 | 73 | 53,28 |
| Qıpçaq nahiyəsi | 89 | 5,32 | - | |
| *Cəmi* | **1.672** | | **137** | |

Beləliklə, müfəssəl dəftərdən əldə etdiyimiz məlumatlara əsaslanaraq, Marağa və Soyuqbulaq livaları üzrə "*çift*"lərin və "*nim çift*"lərin faizlə nisbətini aşağıdakı şəkildə göstərə bilərik.




Şəkil 3.1. Marağa livası




Şəkil 3.2. Soyuqbulaq livası




Şəkil 3.3. Soyuqbulaq livası (yarım çiftlər üçün)

Müfəssəl dəftərdə, vergi ödəyən şəxs əgər evli olub əkdiyi torpağı yarım çiftdən az olsa və ya olmasa, onun adının altında "*bennak*", əgər evli olub əkin üçün torpağı heç yoxdursa – "*caba*", yox əgər şəxs subaydırsa, onda "*mücərrəd*" sözü yazılırdı. Onu da nəzərə çatdıraq ki, subaylar yalnız qazanc sahibi ola biləcək yaşa çatdığı halda mücərrəd vergisini ödəyirdi (68, s. 283). Lakin bu ərazilərdə yaşayan qeyri-müsəlmanlar evli və ya subay olmasından asılı olmayaraq, müfəssəl dəftərlərdə "*ispəncə*" adı ilə qeydə alınırdı. Osmanlı qanunlarına əsasən, xristianlar üçün bu verginin miqdarı 25 ağça, torpağı olmayan dul qadınları üçün isə 6 ağça "*bive*" rüsumu təyin edilmişdi (68, s. 284). Araşdırdığımız müfəssəl dəftərdə ispəncə vergisinin 6 ağça miqdarında alınmasına rast gəlinməmişdir. Aşağıdakı cədvəllərdə livaların vergi mükəlləflərinin kateqoriyalar üzrə sayları verilmişdir.

**Cədvəl 3.5**

Marağa livası üzrə vergi mükəlləfləri

| Nahiyə | Bennak | Caba | Mücərrəd |
|---|---|---|---|
| Marağa şəhəri | - | - | - |
| Benacu nahiyəsi | 1.817 | 270 | 459 |
| Səracu nahiyəsi | 463 | 69 | 56 |
| Bukan nahiyəsi | - | 74 | - |
| Gavdul nahiyəsi | 404 | 9 | 150 |
| Miyandoab nahiyəsi | 19 | - | 1 |
| Əcri nahiyəsi | 19 | 2 | 4 |
| Leylan nahiyəsi | 106 | 11 | 6 |
| Əkərtu nahiyəsi | 69 | 1 | - |
| *Cəmi* | **2.897** | **436** | **676** |

**Cədvəl 3.6**

Soyuqbulaq livası üzrə vergi mükəlləfləri

| Nahiyə | Bennak | Caba | Mücərrəd |
|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | - | - | - |
| Şəhri-viran | 193 | - | 128 |
| Dəryaz | 146 | 281 | 37 |
| Yıltimur | 61 | 49 | 1 |
| Gilas | 14 | 348 | - |
| Mirabad | - | 47 | - |
| Tərkeş | - | 60 | - |
| Telyuş | - | 26 | - |
| Alan | - | 98 | - |
| Turcan | 94 | 98 | - |
| Axtaçı | 10 | 185 | - |
| Suldus | 225 | - | 106 |
| Lacan | 315 | - | 25 |
| Qıpçaq | 124 | - | 58 |
| *Cəmi* | **1.182** | **1.192** | **355** |

Marağa livası üzrə cəmi 192 nəfər, bunlardan Marağa şəhərində 128, Gavdul nahiyəsində 30, Miyandoab nahiyəsində 23, Leylan nahiyəsində 11 nəfər; Soyuqbulaq livası üzrə cəmi 148 nəfər, bunlardan Soyuqbulaq qəsəbəsində 13, Suldus nahiyəsində 135 nəfər qeyri-müsəlmanın yaşadığı məlum olur və onlar müfəssəl dəftərdə "*ispəncə*" kimi qeydə alınmışdır. Onu da qeyd etməliyik ki, araşdırılan dəftərdə qeyri-müsəlmanlar üçün ayrılan torpaq sahələri ayrıca qeyd edilməmiş, onların statusları barədə məlumat verilməmiş, yalnız təyin olunmuş ümumi verginin miqdarı göstərilmişdir. Osmanlı imperiyası barədə yazan müəlliflərdən D.Quataert də əsərində müsəlman və qeyri-müsəlmanlardan fərqli vergilər alındığını göstərmişdir (129, s. 130-132).

Yuxarıda qeyd etdiyimiz kimi, Osmanlı imperiyasında rəiyyət əkib-becərdiyi torpağın sahəsinə, eləcə də öz statusuna uyğun təyin edilmiş həcmdə vergi ödəyirdi. Əyalətlərə görə bu vergilər bəzən dəyişə bilərdi. Belə ki, Marağa və Soyuqbulaq livaları üzrə müəyyən edilmiş vergilərin miqdarı aşağıdakı kimi olmuşdur (14, 37, 39, 58).

**Cədvəl 3.7**

Marağa livası və ona qonşu əyalətlərdə vergilərin miqdarı (*ağça ilə*)

| **Əyalət** / Vergilər | **Marağa və Soyuqbulaq livaları** | **Ərdəbil livası** | **Gəncə-Qarabağ əyaləti** | **Tiflis əyaləti** |
|---|---|---|---|---|
| Çift | 50 | 50 | - | 120 |
| Nim çift | 25 | 25 | - | - |
| Bennak | 18 | 18 | 40 | 60 |
| Caba | 12 | 12 | - | - |
| Mücərrəd | 6 | 6 | - | 30 |
| İspəncə | 25 | 24 | 120 | 120 |

Onu da qeyd etmək lazımdır ki, müfəssəl dəftərdə nahiyələrdən fərqli olaraq şəhərlərdə mükəlləfin xristian və ya yəhudi olmasından asılı olaraq ispəncə vergisinin dəyişdiyini görürük, yəni əgər qeyri-müsəlman olan şəxs yəhudidirsə, xəzinəyə 120 ağça, xristian dininə mənsubdursa 25 ağça ödəmişdir. Osmanlıların xristian və yəhudilər arasında qoyduqları bu fərqin səbəbi dəqiq məlum deyildir. Güman etmək olar ki, bu, yəhudilərin böyük əksəriyyətinin ticarət obyektinə malik tacirlər olmaları və maddi vəziyyətlərinin daha yüksək səviyyəsi ilə bağlı olmuşdur (68, s. 206). Çünki Osmanlı qanunlarına əsasən, şəhər və qəsəbələrdə yaşayan qeyri-müsəlman tacir və sənətkarlardan kəndlərdə yaşayanlarla müqayisədə daha yüksək miqdarda vergi alınırdı (68, s. 293).

Yuxarıda göstərilən məlumatlara əsaslanaraq, Osmanlı üsul-idarəsi dövründə Marağa və Soyuqbulaq livaları üzrə rəiyyət üçün təyin edilmiş və xəzinəyə daxil olan vergilərin miqdarını hesablayaq.

**Cədvəl 3.8**

Marağa livası (*ağça ilə*)

| **Nahiyə** | **Çift** | **Bennak** | **Caba** | **Mücərrəd** | **İspəncə** |
|---|---|---|---|---|---|
| Marağa şəhəri | 4 750 | - | - | - | 9 185 |
| Benacu nahiyəsi | 28 000 | 32 706 | 3 240 | 2 754 | - |
| Səracu nahiyəsi | 9 900 | 8 334 | 828 | 336 | - |
| Bukan nahiyəsi | 3 150 | - | 888 | - | - |
| Gavdul nahiyəsi | 10 800 | 7 272 | 108 | 900 | 750 |

**Cədvəl 3.8-in ardı**

| | | | | | |
|---|---|---|---|---|---|
| Miyandoab nahiyəsi | 250 | 342 | - | 6 | 575 |
| Əcri nahiyəsi | 1 950 | 342 | 24 | 24 | - |
| Leylan nahiyəsi | 2 500 | 1 908 | 22 | 36 | 275 |
| Əkərtu nahiyəsi | 1 050 | 1  242 | 12 | - | - |
| *Cəmi* | **62 350** | **52 146** | **5 122** | **4 056** | **10 785** |

**Cədvəl 3.9**

Soyuqbulaq livası (*ağça ilə*)

| **Nahiyə** | **Çift** | **Nim çift** | **Bennak** | **Caba** | **Mücərrəd** | **İspəncə** |
|---|---|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 4 000 | - | - | - | - | 1 560 |
| Şəhri-viran | 14 400 | - | 3 474 | - | 768 | - |
| Dəryaz | 7 350 | - | 2 628 | 3 372 | 222 | - |
| Yıltimur | 7 100 | - | 1 098 | 588 | 6 | - |
| Gilas | 1 1700 | - | 252 | 4 176 | - | - |
| Mirabad | 1 850 | - | - | 564 | - | - |
| Tərkeş | 2 400 | - | - | 720 | - | - |
| Telyuş | 850 | - | - | 312 | - | - |
| Alan | 750 | - | - | 1 176 | - | - |
| Turcan | 6 350 | - | 1 692 | 1 176 | - | - |
| Axtaçı | 7 200 | 50 | 1 80 | 2 220 | - | - |
| Suldus | 5 300 | 1 550 | 4 050 | - | 636 | 3375 |
| Lacan | 9 900 | 1 825 | 5 670 | - | 150 | - |
| Qıpçaq | 4 450 | - | 2 232 | - | 348 | - |
| *Cəmi* | *83 600* | *3 425* | *21 276* | *14 304* | *2 130* | *4 935* |

Müfəssəl dəftərin məlumatlarını araşdıran zaman aydın olur ki, kənd yerlərində əkilmiş sahələri, bağ-bağçaları, bostanları mühafizə etmək məqsədi ilə "*dəştiban*" adlandırılan qoruqçu təyin olunmuşdur. İri və ya xırdabuynuzlu olmasından asılı olmayaraq, əgər heyvan əkin sahələrinə, bağ-bağçaya, bostana girirdisə, bu zaman onun sahibindən cərimə alınırdı ki, bu cəriməyə də "*dəştibani*" deyilirdi (68, s. 308). Qoruqçuluq üçün alınan haqq cərimə kimi nəzərdə tutulurdu və nağd pul şəklində illik ödənilirdi. Müfəssəl dəftəri tədqiq edərkən o da məlum olur ki, cərimənin miqdarının nə qədər olacağı əvvəlcədən bilinmədiyi üçün "*dəştibani*" vergisi təqribi bir rəqəm ilə ifadə edilmiş və "*tapu-yi zəmin*" ilə bir maddədə yazılmışdır. Marağa və Soyuqbulaq livaları üzrə xəzinəyə ödənilən həmin verginin illik miqdarı aşağıdakı kimi olmuşdur.

**Cədvəl 3.10**

Marağa livası (*ağça ilə*)

| **Nahiyələr** | **Dəştibani və tapu-yi zəmin** |
|---|---|
| Marağa şəhəri | 4 750 |
| Benacu nahiyəsi | 23 360 |
| Səracu nahiyəsi | 39 000 |
| Bukan nahiyəsi | 2 520 |
| Gavdul nahiyəsi | 9 350 |
| Miyandoab nahiyəsi | 1 000 |
| Əcri nahiyəsi | 2 870 |
| Leylan nahiyəsi | 2 650 |
| Əkərtu nahiyəsi | 1 050 |
| *Cəmi:* | **86 550** |

**Cədvəl 3.11**

Soyuqbulaq livası (*ağça ilə*)

| **Nahiyələr** | **Dəştibani və tapu-yi zəmin** |
|---|---|
| Soyuqbulaq qəsəbəsi | 4 000 |
| Şəhri-viran nahiyəsi | 8 250 |
| Dəryaz nahiyəsi | 7 700 |
| Yıltimur nahiyəsi | 5 050 |
| Gilas nahiyəsi | 8 900 |
| Mirabad nahiyəsi | 850 |
| Tərkeş nahiyəsi | 1 400 |
| Telyuş nahiyəsi | 700 |
| Alan nahiyəsi | 650 |
| Turcan nahiyəsi | 5 850 |
| Axtaçı nahiyəsi | 4 900 |
| Suldus nahiyəsi | 6 850 |
| Lacan nahiyəsi | 8 700 |
| Qıpçaq nahiyəsi | 4 350 |
| *Cəmi:* | **68 150** |

Yuxarıda haqqında danışılan vergilərə əsaslanaraq demək olar ki, Marağa və Soyuqbulaq livalarında yaşayan əhali üsul-idarənin dəyişməsindən asılı olmayaraq torpağa bağlı olmuş və osmanlılar bu livalar üzrə torpaq mülkiyyəti məsələsində hər hansı bir fərqli siyasət yürütməmişlər. Əkinçiliyin geniş yayıldığı bu ərazilərdə timar sisteminin tətbiq olunması ilə bağlı məlumatlar müfəssəl dəftərdə dolayı şəkildə qeyd edilmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, Osmanlı imperiyasında livalara və sancaqlara bölünən bütün Azərbaycan torpaqlarında əkinçiliklə məşğul olan insanların "*çift*", "*nim çift*", "*bennak*", "*caba*", "*mücərrəd*" və "*ispancə*" vergi kateqoriyaları üzrə bölgüsü aparılmışdır. Hər bir

“*çift*”dən 50 ağça hesabı ilə vergi mükəlləflərindən Marağa livası üzrə xəzinəyə ildə cəmi 62.350 ağça, Soyuqbulaq livası üzrə isə 83.600 ağça vergi ödənmişdir. Hər iki liva üzrə digər torpaq sahiblərindən toplanan vergiləri də ümumiləşdirsək və “*çift*” vergisini də buna əlavə etsək, onda bir ildə xəzinəyə cəmi 256.569 ağça daxil olduğunu müəyyən etmiş oluruq.

Beləliklə, müfəssəl dəftərdən əldə edilən məlumatlara əsasən, 1.247 çiftin qeydə alındığı Marağa livasında, eləcə də 1.672 çift və 137 yarım ciftin qeydə alındığı Soyuqbulaq livasında əkilən torpaqların ümumi sahəsini də müəyyən edə bilərik. Hər çift üçün ortalama sahəni 70 dönümdən qəbul etsək, Marağa livası üzrə 8.729 ha, Soyuqbulaq livası üzrə isə 12.183,5 ha və iki livada cəmi 20.912,5 ha əkilən torpaq sahəsinin olduğunu söyləyə bilərik. Əkdikləri torpaq sahələri yarım çiftdən az olan, yaxud heç olmayan və Marağa livası üzrə 2.897, Soyuqbulaq livası üzrə isə 1.182 bennakın əkilən torpaqlarını, bununla yanaşı, torpaqları əkilən, yaxud da Marağa livası üzrə Bənacu nahiyəsində 10, Səracu nahiyəsində 2, Bukan nahiyəsində 8, Gavdul nahiyəsində 18, Miyandoab nahiyəsində 4, Əcri nahiyəsində 11, Leylan nahiyəsində 6, Əkərtu nahiyəsində 6, Soyuqbulaq livası üzrə Şəhri-viran nahiyəsində 2, Suldus nahiyəsində 9, Lacan nahiyəsində 28 və Qıpçaq nahiyəsində heç kimin yaşamadığı 13 boş kəndin torpaqlarını da nəzərə alsaq, bu livalarda əkilən torpaq sahəsinin kifayət qədər böyük olduğunu görürük.

Təhrir dəftərinin hazırlanmasında əsas məqsəd Marağa və Soyuqbulaq livaları üzrə bütün gəlir mənbələrinin üzə çıxarılması və qeydiyyata alınması olduğu üçün dəftər, ilk növbədə, kənd təsərrüfatı yerlərində mövcud olan gəlir mənbələri, xüsusilə də bu ərazidə yaşayan şəxslərin məşğuliyyət sahələri haqqında dəyərli məlumatları özündə ehtiva edir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı və ümumiyyətlə, bütün məşğulluq sahələri ilə bağlı vergilərin yığılması qaydalarını müəyyən etmək üçün hər bir əyalət üzrə bir qanunnamə hazırlanırdı. Lakin tədqiq olunan dövrdə təkcə Gəncə-Qarabağ əyaləti üçün belə bir qanunnamə mövcud olmuşdur, digər əyalət və livaların isə qanunnaməsi yoxdur. Bu, vergilərin yığılması və bölgənin idarə olunması qaydalarını öyrənmək baxımından müəyyən çətinlik yaratsa da, müfəssəl dəftərdə yazılan bəzi söz və ifadələrdən müəyyən məsələlərə aydınlıq gətirmək olur. Məsələn, hasil bölümündə yazılan "*xüms-i ğallat*" qeydinin olması taxıl bitkilərindən beşdə bir verginin, "*üşr-i pəmbə*", "*üşr-i çəltik*", "*üşr-i mərcimək*" və digərlərindən bu məhsullara görə onda bir verginin alındığı anlaşılır.

Məlumdur ki, "*xüms*" (beşdə bir) vergi sistemi ilk dəfə olaraq islam dinində tətbiq olunmağa başlanmış və bu vergi natural şəkildə, həmçinin mülkiyyət gəlirlərinin yeddi növündən tutulurdu: 1. Məvacibdən; 2. Mədənlərdən; 3. Dəfinədən; 4. Qanuni şəkildə əldə edilmiş mülkiyyətdən; 5. Dənizdən əldə edilmiş cəvahiratdan; 6. Hərbi qənimətlərdən; 7. Müsəlmanlardan satın alınmış kafir və ya zimmilərin torpaqlarından (112, s. 173). Lakin Osmanlı imperiyasında bütün torpaqları nəzarət altında saxlamaq məqsədilə tətbiq olunan timar sisteminə uyğun olaraq, bu vergi növü təkcə natural şəkildə alınmışdır. Osmanlı dövləti bunun üçün dənli bitkilər yetişdirilən və əkinə yararlı bütün növ torpaqları miri (bəylik) adı altında dövlət mülkiyyətinə daxil etmişdir. Bununla da Osmanlı dövləti xalqı, ordunu və ya əgər aclıq baş verərsə, rəiyyəti ərzaqla təmin etmək üçün dənli bitkilərin yetişdirilməsinə, xüsusilə də buğda və arpa becərilməsinə xüsusi diqqət ayırmışdır (75, s. 218).

Yuxarıda qeyd etdiyimiz kimi, dənli bitkilərdən alınan vergilər müfəssəl dəftərdə beşdə bir mənasını verən "*xüms-i ğallat*" sözü ilə ifadə olunurdu və dənli bitkilərin vergisi natural şəkildə ödənirdi. Bunun üçün hər dənli bitkinin adından sonra onun ölçü vahidi "*kile*" ilə ödənəcək həcmi yazılır və altında da dənli bitkilərin cari qiymətləri nəzərə alınaraq onun nağd (*ağça ilə*) qarşılığı göstərilirdi. L.Güçerin bu miqdarı "*təhrir qiyməti*" adlandırmışdı (72, s. 231).

Marağa və Soyuqbulaq livalarında dənli bitkilərin və onların ayrı-ayrı növlərinin "*təhrir qiyməti*" belə olmuşdur:

Buğda – 1 kilesi üçün 40 ağça;
Arpa – 1 kilesi üçün 30 ağça;
Darı – 1 kilesi üçün 20 ağça;
Gənəgərçək – 1 kilesi üçün 20 ağça;
Yulaf – 1 kilesi üçün 20 ağça;
Kətan toxumu – 1 kilesi üçün 20 ağça;
Küncüt – 1 kilesi üçün 20 ağça;
Şənbələ – 1 kilesi üçün 20 ağça;
Mərcimək – 1 kilesi üçün 60 ağça;
Noxud – 1 kilesi üçün 60 ağça.

Hələ Səfəvilər dövründə də bu ərazilərdə dənli bitkilərin bolluğundan danışan Oruc bəy Bayat (Don Juan) öz əsərində qeyd etmişdir ki, bu torpaqlarda yetişən məhsullar, xüsusilə də buğda, arpa və düyü o qədər boldur ki, 100 pecik buğdaya (1 pecik = 0.009 $m^3$) ən çox on iki real (7 şillinq) pul ödəyə bilərsiz. Eyni miqdarda arpa üçün də yarım duka[13] (3 və ya 6 peni) yetərlidir ( 71, s. 71-72).

Azərbaycan torpaqlarına səyahət edən Pyer Davit bu ərazilərdə bağ-bağçanın çoxluğunu, burada kələm, baş kələm, turp, yerkökü, cəfəri kimi tərəvəz və göy-göyərti zənginliyini

[13] 1 duka 4 ağçaya bərabərdir.

qeyd etmişdir. Həmçinin bu ölkədə çoxlu düyü, əla növ buğda, arpa əkilməsi və belə buğdadan bişirilən çörəyin süd kimi ağ olması barədə məlumat vermişdir (54, s. 18).

XVIII əsrin əvvəllərində Şirvanda olmuş fransız missionerləri burada torpaqların müəyyən müddətə icarəyə verilməsi və yetişdirilən məhsulun beşdə birinin torpaq sahibinə verilməsi haqda qeydlər etmişlər (45, s. 80).

Müfəssəl dəftərin məlumatlarına əsasən, Osmanlı dönəmində Marağa və Soyuqbulaq livalarında natural şəkildə yığılan bitkilərin miqdarı aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 3.12**

Marağa livası üzrə

| **Nahiyələr** | **Buğda** | | **Arpa** | | **Darı** | | **Gənəgərçək** | | **Yulaf** | | **Mərcimək və noxud** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Marağa şəhəri | 950 | 6,76 | 475 | 2,6 | 190 | 6,8 | 95[14]* | 6,6 | - | - | - | - |
| Benacu | 2.544 | 17,9 | 2.297 | 12,6 | 940 | 33,9 | 476 | 32,8 | - | - | 197 | 27,9 |
| Səracu | 6.448 | 45,3 | 3.252 | 17,7 | 1.268 | 45,9 | 419 | 28,9 | - | - | 141 | 20,1 |
| Bukan | 485 | 3,4 | 265 | 1,4 | 103 | 3,8 | 52 | 3,6 | - | - | - | - |
| Gavdul | 2.290 | 16,1 | 11.300 | 61,7 | - | - | 242 | 16,7 | 259 | 92,8 | 230 | 32,6 |
| Miyandoab | 200 | 1,4 | 100 | 0,5 | - | - | 20 | 1,4 | 20 | 7,2 | 20 | 2,8 |
| Əcri | 540 | 3,8 | 270 | 1,4 | 114 | 4,2 | 70 | 4,8 | - | - | 60 | 8,5 |
| Leylan | 550 | 3,87 | 275 | 1,5 | 109 | 3,9 | 55 | 3,8 | - | - | 49 | 6,9 |
| Əkərtu | 210 | 1,47 | 105 | 0,6 | 42 | 1,5 | 21 | 1,4 | - | - | 8 | 1,1 |
| *Yekun* | **14.217** | | **18.339** | | **2.766** | | **1.450** | | **279** | | **705** | |

[14] Marağa şəhərində gənəgərçək və kətan toxumunun cəmi birlikdə qeyd edilmişdir (14, s. 25).

**Cədvəl 3.13**

Soyuqbulaq livası üzrə

| Nahiyələr | Buğda | | Arpa | | Darı | | Gənəgərçək | | Yulaf | | Mərcimək və noxud | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | [illegible] | | | 80 | 4.06 |
| Şəhri viran | 1.635 | 12,2 | 7.523 | 56,2 | 338 | 12,3 | 152 | 14,6 | 5 | 1,69 | 4 | 0,21 |
| Dəryaz | 1.490 | 11,1 | 741 | 5,54 | 327 | 11,9 | 125 | 12,06 | 78 | 26,3 | 1.493 | 75,78 |
| Yıltimur | 1.010 | 7,5 | 505 | 3,77 | 202 | 7,38 | 101 | 9, 74 | - | - | 101 | 5,13 |
| Gilas | 1.710 | 12,7 | 880 | 6,57 | 352 | 12,8 | 172 | 16, 6 | - | - | 92 | 4,67 |
| Mirabad | 170 | 1,28 | 85 | 0,64 | 34 | 1,24 | 17 | 1,6 | - | - | 15 | 0,76 |
| Tərkeş | 280 | 2,1 | 140 | 1,05 | 56 | 2,05 | 28 | 2,7 | - | - | 28 | 1,42 |
| Telyuş | 140 | 1.05 | 70 | 0,52 | 28 | 1,03 | 14 | 1,35 | - | - | 14 | 0,71 |
| Alan | 130 | 0,97 | 65 | 0,49 | 26 | 0,95 | 13 | 1,25 | - | - | 13 | 0,66 |
| Turcan | 1.170 | 8,73 | 585 | 4,37 | 239 | 8,73 | 113[15] | 10,9 | - | - | 117 | 5,94 |
| Axtaçı | 935 | 6,97 | 490 | 3,66 | 196 | 7,16 | 100 | 9,6 | - | - | - | - |
| Suldus | 1.350 | 10,1 | 657 | 4,91 | 267 | 9,74 | 97[16] | 9,3 | - | - | - | - |
| Lacan | 1.720 | 12,8 | 861 | 6,43 | 346 | 12,7 | - | - | 151[17] | 50,8 | - | - |
| Qıpçaq | 880 | 6,6 | 383 | 2,86 | 169 | 6,18 | 24 | 2,31 | 63[18] | 21,21 | 13 | 0,66 |
| *Yekun* | **13.420** | | **13.385** | | **2.740** | | **1.036** | | **297** | | **1.970** | |

[15] Turcan nahiyəsində paxla bitkisi gənəgərçək ilə birlikdə hesablanmışdır.
[16] Burada müfəssəl dəftərdə göstərildiyi kimi, kətan toxumu, gənəgərçək və yulafın cəmi birlikdə hesablanmışdır.
[17] Kətan toxumu ilə yulaf birlikdə hesablanmışdır.
[18] Kətan toxumu və yulaf birlikdə hesablanmışdır.

Beləliklə, Marağa livasından 14.217 kile (355 425 kq) buğda, 18.339 kile (458.475 kq) arpa, 2.766 kile (69.150 kq) darı, 1.450 kile (36.250 kq) gənəgərçək, 279 kile (6.975 kq) yulaf, 705 kile (17.625 kq) mərcimək və noxud, yalnız Gavdul nahiyəsində yetişdirilən 143 kile (3.575 kq) küncüt və 223 kile (5.575 kq) şənbələ, Miyandoab nahiyəsində 20 kile (500 kq) şənbələ, Soyuqbulaq livasından isə 13.420 kile (335.500 kq) buğda, 13.385 kile (334.625 kq) arpa, 2.740 kile (68.500 kq) darı, 1.036 kile (25.900 kq) gənəgərçək, 297 kile (7.425 kq) yulaf və kətan toxumu, 1.970 kile (49.250 kq) mərcimək və noxudun toplanması müfəssəl dəftərdə (bu dənli bitkilər ayrı-ayrı maddə ilə müfəssəl dəftərin "hasil" bölümünə yazılmışdır) qeyd olunmuşdur. Burada onu da xatırlatmaq istərdik ki, katib müfəssəl dəftərdə iki yerdə küncüt və şənbələ üçün verginin miqdarının artıq alındığını göstərmişdir. Belə ki, 3 kile küncüt və şənbələ vergisi üçün 180 ağça, 5 kile küncüt və şənbələ vergisi üçün 200 ağça vergi alındığını yazmışdır (14, s. 163, 165). "*Xüms-i ğallat*" kimi ödənən bu vergiləri beş dəfə artırmaqla Marağa və Soyuqbulaq livalarında dənli bitkilərin illik məhsulunu müəyyən etmək olar.

**Cədvəl 3.14**

Marağa livasında yığılan dənli
bitkilərin illik həcmi (*kile*)

| **Nahiyələr** | **Buğda** | | **Arpa** | | **Darı** | | **Gənəgərçək** | | **Yulaf** | | **Mərcimək və noxud** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Marağa şəhəri | 4.750 | 6,68 | 2.375 | 2,59 | 950 | 6,87 | 475 | 6,55 | - | - | - | - |
| Benacu | 12720 | 17,89 | 11485 | 12,52 | 4700 | 33,98 | 2380 | 32,83 | - | - | 985 | 27,94 |
| Səracu | 32240 | 45,35 | 16260 | 17,74 | 6340 | 45,84 | 2095 | 28,89 | - | - | 705 | 20,01 |
| Bukan | 2425 | 3,41 | 1325 | 1,45 | 515 | 3,73 | 260 | 3,59 | - | - | - | - |
| Gavdul | 11450 | 16,11 | 56500 | 61,62 | - | - | 1210 | 16,69 | 1295 | 92,83 | 1150 | 32,62 |
| Miyandoab | 1000 | 1,41 | 500 | 0,55 | - | - | 100 | 1,38 | 100 | 7,17 | 100 | 2,84 |
| Əcri | 2700 | 3,79 | 1350 | 1,47 | 570 | 4,12 | 350 | 4,83 | - | - | 300 | 8,51 |
| Leylan | 2750 | 3,87 | 1375 | 1,49 | 545 | 3,94 | 275 | 3,79 | - | - | 245 | 6,95 |
| Əkərtu | 1050 | 1,48 | 525 | 0,57 | 210 | 1,52 | 105 | 1,45 | - | - | 40 | 1,13 |
| *Yekun* | **71.085** | | **91.695** | | **13.830** | | **7.250** | | **1.395** | | **3.525** | |

**Cədvəl 3.15**

Soyuqbulaq livasında yığılan dənli bitkilərin illik həcmi (*kile*)

| **Nahiyələr** | **Buğda** | | **Arpa** | **%** | **Darı** | **%** | **Gənəgərçək** | | **Yulaf** | | **Mərcimək və noxud** | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 4000 | 5,96 | 2000 | 2,99 | 800 | 5,84 | 400 | 7,72 | - | - | 400 | 4,06 |
| Şəhr-i viran | 8175 | 12,2 | 37615 | 56,2 | 1690 | 12,3 | 760 | 14,7 | 25 | 1,7 | 20 | 0,2 |
| Dəryaz | 7450 | 11,1 | 3705 | 5,54 | 1635 | 11,9 | 625 | 12,1 | 390 | 26,3 | 7465 | 75,8 |
| Yıltimur | 5050 | 7,52 | 2525 | 3,77 | 1010 | 7,37 | 505 | 9,75 | - | - | 505 | 5,13 |
| Gilas | 8550 | 12,7 | 4400 | 6,57 | 1760 | 12,8 | 860 | 16,6 | - | - | 460 | 4,67 |
| Mirabad | 850 | 1,27 | 425 | 0,64 | 170 | 1,24 | 85 | 1,64 | - | - | 75 | 0,76 |
| Tərkeş | 1400 | 2,08 | 700 | 1,05 | 280 | 2,04 | 140 | 2,71 | - | - | 140 | 1,42 |
| Telyuş | 700 | 1,04 | 350 | 0,52 | 140 | 1,02 | 70 | 1,35 | - | - | 70 | 0,71 |
| Alan | 650 | 0,97 | 325 | 0,49 | 130 | 0,95 | 65 | 1,25 | - | - | 65 | 0,66 |
| Turcan | 5850 | 8,72 | 2925 | 4,37 | 1195 | 8,72 | 565 | 10,9 | - | - | 585 | 5,94 |
| Axtaçı | 4675 | 6,97 | 2450 | 3,66 | 980 | 7,15 | 500 | 9,65 | - | - | - | - |
| Suldus | 6750 | 10,1 | 3285 | 4,91 | 1335 | 9,74 | 485 | 9,36 | - | - | - | - |
| Lacan | 8600 | 12,8 | 4305 | 6,43 | 1730 | 12,6 | - | - | 755 | 50,8 | - | - |
| Qıpçaq | 4400 | 6,56 | 1915 | 2,86 | 845 | 6,17 | 120 | 2,32 | 315 | 21,2 | 65 | 0,66 |
| *Yekun* | **67.100** | | **66.925** | | **13.700** | | **5.180** | | **1.485** | | **9.850** | |

Osmanlıların Marağa livasının müfəssəl dəftərində istifadə etdikləri kile bir çəki vahidi kimi seçilmiş və onun qarşılığını kq ilə hesablayarkən ən geniş yayılmış "*İstanbul kilesi*" (təqribən 25 kq) əsas götürülmüşdür (37, s. 63; 39, s. 572). Yuxarıdakı hesablamalardan alınan nəticələrə görə, Marağa livasından bir ildə 71.085 kile (1.777.125 kq) buğda, 13.830 kile (345.750 kq) arpa, 13.830 kile (6.915.000 kq) darı, 7.250 kile (181.250 kq) gənəgərçək, 1.395 kile (34.875 kq) yulaf, 3.525 kile (88.125 kq) mərcimək və noxud, 715 kile (17.875 kq) küncüt və 1 115 kile (27.875 kq) şənbələ, Miyandoab nahiyəsindən 100 kile (2.500 kq) şənbələ, Soyuqbulaq livasından bir ildə 67.100 kile (1.677.500 kq) buğda, 66.925 kile (1.673.125 kq) arpa, 13.700 kile (342.500 kq) darı, 5.180 kile (129.500 kq) gənəgərçək, 1.485 kile (37.125 kq) yulaf və kətan toxumu, 9.850 kile (246.250 kq) mərcimək və noxud yığılmışdır. Cədvəldə qeyd olunmuş məlumatlar və aparılan hesablamalar əsasında deyə bilərik ki, Marağa livası üzrə buğdanın ən çox əkildiyi nahiyə (45,35%) Səracu, arpanın ən çox əkildiyi nahiyə (17,7%) Səracu, gənəgərçəyin ən çox əkildiyi nahiyə (32,8%) Benacu, yulafın ən çox əkildiyi nahiyə (92,8%) Gavdul, mərcimək və noxudun ən çox əkildiyi nahiyə (32,6%) Gavdul, Soyuqbulaq livası üzrə isə buğdanın ən çox əkildiyi nahiyə (12,8%) Lacan, arpanın ən çox əkildiyi nahiyə (56,2%) Şəhri-viran, darının ən çox əkildiyi nahiyə (16,6%) Gilas, yulafın ən çox əkildiyi nahiyə (50,8%) Lacan, mərcimək və noxudun ən çox əkildiyi nahiyə (75,78%) Dəryaz olmuşdur. Marağa livasından fərqli olaraq Soyuqbulaq livasında təbii coğrafi mövqedən asılı olaraq, bulaqlara yaxın ərazilərdə bitkilərin yetişdirilməsi mümkün olmuşdur (135, s. 28).

Müfəssəl dəftəri tədqiq edərkən bölgədə dənli və paxlalı bitkilərlə bərabər texniki bitkilərin də əkilib-becərildiyini görürük. Hər iki liva üzrə texniki bitkilərdən pambıq daha çox becərilmiş, pambığa görə "*üşr*" onda bir ("*üşr-i pənbə*") vergi tutulmuş və pambığı ölçmək üçün *mən* (man) adlandırılan çəki vahidindən istifadə edilmişdir. Pambıqla yanaşı müfəssəl dəftərdə adı "*üşr-i çeltuk*" kimi qeyd olunan çəltik vergisinə də eyni miqdar və çəki vahidi tətbiq olunmuşdur. Daha öncə də qeyd etdiyimiz kimi, tədqiq etdiyimiz dəftərin xüsusi bir qanunnaməsi olmadığından hər iki liva üzrə Naxçıvan "*mən*"i əsas götürülmüş və bu çəki vahidi 13 kq-a bərabər tutulmuşdur (50, s. 17). Pambığa görə verginin miqdarı 100 ağça, çəltiyə görə verginin miqdarı isə 10 ağça təyin edilmişdir. Yeri gəlmişkən onu da nəzərə çatdıraq ki, müfəssəl dəftərdə bəzi yerlərdə katib çəltiyin miqdarını 10 ağça deyil, 100 ağça hesablayaraq qeyd etmişdir. Bunun səbəbini belə izah etmək olar ki, hasil bölümündə pambıq və çəltik bitkiləri bir-birinin ardınca yazıldığı üçün ya katib səhvə yol vermiş, ya da həmin kənddə çəltik məhsulunun miqdarı həddən artıq çox olmuşdur. Onu da əlavə edək ki, Osmanlı idarə sisteminə uyğun olaraq üşrin miqdarı torpağın məhsuldarlığına görə 1/10, 1/8, 1/7, 1/5 və 1/2 olaraq dəyişmişdir (68, s. 281). Benacu nahiyəsində isə 7 mən çəltiyə 280 ağça, 5 mən çəltiyə 150 ağça, 12 mən çəltiyə 500 ağça, 15 mən çəltiyə 150 ağça vergi yığılmışdır. Hər iki livada pambıq və çəltiyə görə yığılan məhsulun miqdarı aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 3.16**

Marağa livası üzrə pambıq və çəltik vergisi (*ağça ilə*)

| **Nahiyələr** | **Pambıq** | **%** | **Çəltik** | **%** |
|---|---|---|---|---|
| Marağa şəhəri | 95 | 6,14 | - | - |
| Benacu | 454 | 29,35 | 39 | 2,95 |
| Səracu | 651 | 42,08 | - | - |
| Bukan | 52 | 3,36 | - | - |
| Gavdul | 146 | 9,44 | 631 | 47,73 |
| Miyandoab | 20 | 1,29 | 30 | 2,27 |
| Əcri | 46 | 2,97 | 282 | 21,33 |
| Leylan | 62 | 4,01 | 340 | 25,72 |
| Əkərtu | 21 | 1,36 | - | - |
| *Yekun* | **1.547** | | **1.322** | |

**Cədvəl 3.17**

Soyuqbulaq livası üzrə pambıq
və çəltik vergisi (*ağça ilə*)

| **Nahiyələr** | **Pambıq** | **%** | **Çəltik** | **%** |
|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 80 | 8,13 | 1200 | 9,96 |
| Şəhr-i viran | 158 | 16,06 | 1665 | 13,82 |
| Dəryaz | 144 | 14,63 | 1175 | 9,75 |
| Yıltimur | 101 | 10,26 | 1429 | 11,86 |
| Gilas | 176 | 17,89 | 1632 | 13,54 |
| Mirabad | 17 | 1,73 | 120 | 0,99 |
| Tərkeş | 28 | 2,85 | 360 | 2,99 |
| Telyuş | 14 | 1,42 | 105 | 0,87 |
| Alan | 13 | 1,32 | 150 | 1,25 |
| Turcan | 117 | 11,89 | 1755 | 14,56 |
| Axtaçı | 98 | 9,96 | 1440 | 11,95 |
| Suldus | 11 | 1,12 | - | - |
| Lacan | 27 | 2,74 | 540 | 4,48 |
| Qıpçaq | - | - | 480 | 3,98 |
| *Yekun* | **984** | | **12.051** | |

Yuxarıdakı cədvəllərdən aydın olur ki, bir təhrir ili üçün Marağa livası üzrə 20.111 kq pambıq və 17.186 kq çəltik, Soyuqbulaq livası üzrə isə 12.792 kq pambıq və 156 663 kq çəltik məhsulu yığılmışdır. Alınan miqdarı ona vurmaqla bir ilə görə bu məhsulların miqdarını hesablamaq mümkündür. Bu zaman Marağa livası üzrə pambığın miqdarı 201.110 kq və çəltiyin miqdarı 171.860 kq, Soyuqbulaq livası üzrə isə pambığın miqdarı 127.920 kq və çəltiyin miqdarı 1.566 630 kq olmuşdur. Hesablamalara görə, Marağa livası üzrə yüksək pambıq əkini Səracu nahiyəsinin (42,08%), çəltik əkini Gavdul nahiyəsinin (17,89%), Soyuqbulaq livası üzrə pambıq əkini Gilas nahiyəsinin (17,89%), çəltik əkini isə Turcan nahiyəsinin (14,56%) payına düşmüşdür.

Məlumdur ki, pambıq əhalinin məişət həyatında mühüm rol oynayırdı. Belə ki, əsas funksiyasından başqa, onun kələf və çiyidindən məişətdə yanacaq kimi istifadə edilir, yağı həm qida rasionuna daxil olunur, həm də sabun istehsalında geniş tətbiq edilirdi. Bununla yanaşı, Övliya Çələbi Təbriz, Naxçıvan, Mərənd və Şamaxı şəhərləri kimi Marağada pambıq parça istehsalı, yüzilliklərdən bəri pambığın burada iqtisadiyyatın ən vacib sahəsini təşkil etməsi, pambıq parçanın toxunması üçün ayaqlı dəzgahlardan (paibaf) istifadə edilməsi, eləcə də pambıq təmizləyənlər və həllaclar barədə qiymətli məlumatlar vermişdir (70, c. 2, s. 268, 272, 286-287).

Ərdəbil, Təbriz, Gəncə və Ərəş şəhərləri ilə bərabər, Marağada da pambıq parça toxuculuğunun geniş vüsət alması, bu şəhərdə pambıq parçalar hazırlayan bəzzazlar haqqında M.Heydarov da ətraflı dəlillər göstərmişdir. O, bəzzazların bez, tafta, çit və s. pambıq parçalar hazırlayaraq iqtisadiyyatın və ticarətin genişlənməsində mühüm rol oynadıqlarını qeyd etmiş, Marağada pambıqla yanaşı, həm də ipək parçaların is-

tehsal edilməsi, bu parçaların ölkə xaricinə çıxarılması və əcnəbi tacirlərin daha çox marağına səbəb olması barədə öz fikirlərini də bildirmişdir (103, s. 143, 148, 151, 169).

Göründüyü kimi, toxuculuqda əsas xammal olan pambıq, eləcə də iqtisadiyyatda və məişətdə xüsusi yer tutan çəltik hər iki livada kifayət qədər yüksək məhsuldarlıq nümayiş etdirmiş, həm əhalinin, həm də ordunun ehtiyacını ödəmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, 1 mən pambığın müəyyən edilmiş "*təhrir qiyməti*"nin 100 ağça, 1 mən çəltiyin müəyyən edilmiş "*təhrir qiyməti*"nin 10 ağça olduğunu nəzərə alsaq, bir ildə Osmanlı xəzinəsinə pambıq Marağa livası üzrə 154.700 ağça, çəltik 13.220 ağça, Soyuqbulaq livası üzrə pambıq 98.400 ağça, çəltik 120.510 ağça gəlir gətirmişdir.

Müfəssəl dəftərdən aydın olur ki, hər iki livada yaşayan əhalinin məşğulluq sahələrindən biri də bağçılıq və bostançılıq olmuşdur. Özünün meyvə bağları ilə məşhur olan Marağa livası, həmçinin Soyuqbulaq livası üzrə bu sahələr üçün vergilər onda bir miqdarında təyin edilmişdir. Dəftərdə bağçılıq sahəsinə görə vergi "*üşr-i bağat*" və "*üşr-i meyvə*", bostançılıq sahəsinə görə vergi "*üşr-i bostan*", tərəvəzlərdən ən çox soğan və sarmısağa görə isə vergi "*üşr-i sir-u piyaz*" adı ilə ayrılaraq qeydə alınmışdır.

Müfəssəl dəftərin təhrir göstəricilərini araşdırdıqda görürük ki, katib bəzi nahiyələrdən həm bağçılığa görə, həm də meyvəyə görə vergi toplanmasını qeyd etmişdir. Lakin bəzi nahiyələrdə isə bu vergilərin adını eyni kateqoriyada birləşdirmişdir. Məsələn, Marağa livasının Əkərtu nahiyəsində "*üşr-i bağat və meyvə*" (bağlar və meyvə) birlikdə yazılmışdır. Yeri gəlmişkən onu da nəzərə çatdıraq ki, katib Səracu nahiyəsinin təhrir göstəricilərini yazarkən bir kənddə bu verginin adını "*üşr-i bağça*" kimi göstərmişdir (14, s. 89). Zənnimizcə, bu kənddə bağça kimi qeyd olunan ərazinin ölçüləri

və həcmi timar sisteminə görə nəzərdə tutulan bağların ölçüsünə uyğun gəlmədiyi, yəni bağçanın ölçüləri bağa nisbətən daha kiçik olduğundan bu şəkildə yazılmışdır.

Araşdırdığımız dəftərdə diqqətçəkici məqamlardan biri də odur ki, katib bəzən başqa vergiləri də birləşdirərək bir ad altında qeyd etmişdir. Məsələn, Soyuqbulaq livasının Şəhriviran nahiyəsində vergiləri bəzi kəndlərdə dəftərə "*üşr-i bostan maa' sir*" (bostan ilə sarımsaq üşri), bəzi kəndlərdə isə təkcə "*üşr-i bostan*" (bostan üşri) adı ilə daxil etmişdir. Buradan da aydın olur ki, katib kəndlər üzrə vergi göstəricilərini dəftərə salarkən bu vergiləri başqa hallarda olduğu kimi bir-birindən ayırmağa ehtiyac görməmişdir.

Pyer Davit özünün səyahət əsərində qeyd edir ki, burada bitən meyvələr digər müasir ölkələrdə bitən meyvələrdən çox dadlıdır. Fındıq və zeytun kimi meyvələr yetişdirilir və az miqdarda meyvə şərabı da istehsal olunur (54, s. 18).

Marağa və Soyuqbulaq livaları üzrə bağçılıq və bostançılıq sahələrindən əldə edilən vergilərin ağça ilə miqdarı aşağıdakı cədvəldə qeyd edilmişdir.

**Cədvəl 3.18**

Marağa livası üzrə bağçılıq və bostançılıqdan
əldə edilən vergilər

| **Nahiyələr** | **Üşr-i bağat** | | **Üşr-i meyvə** | | **Üşr-i bostan** | | **Üşr-i sir maa′ piyaz** | |
|---|---|---|---|---|---|---|---|---|
| Marağa şəhəri | 26250 | 39,06% | 13110 | 75,99% | 1500 | 16,62% | - | - |
| Benacu | 24860 | 36,99% | 1702 | 9,87% | 1344 | 14,89% | 1054 | 13,02% |
| Səracu | 360 | 0,54% | - | - | - | - | - | - |
| Bukan | - | - | - | - | - | - | - | - |
| Gavdul | 14990 | 22,3% | 2210 | 12,81% | 4900 | 54,29% | 6370 | 78,7% |
| Miyandoab | - | - | - | - | 350 | 3,88% | 400 | 4,94% |
| Əcri | 50 | 0,07% | - | - | - | - | - | - |
| Leylan | 600 | 0,89% | 230 | 1,33% | 750 | 8,32% | 270 | 3,34% |
| Əkərtu | 100 | 0,15% | - | - | 180 | 1,99% | - | - |
| *Yekun* | **67.210** | | **17.252** | | **9.024** | | **8.094** | |

**Cədvəl 3.19**

Soyuqbulaq livası üzrə bağçılıq və
bostançılıqdan əldə edilən vergilər

| **Nahiyələr** | **Üşr-i bağat** | | **Üşr-i meyvə** | | **Üşr-i bostan** | | **Üşr-i sir-u piyaz** | |
|---|---|---|---|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 5000 | 32,82% | 2000 | 95,24% | 2500 | 16,98% | 1500 | 29,59% |
| Şəhr-i viran | 1980 | 12,99% | - | - | 1300 | 8,83% | 410 | 8,19% |
| Dəryaz | 660 | 4,34% | - | - | 2770 | 18,82% | 3160 | 62,32% |
| Yıltimur | - | - | - | - | 1030 | 6,99% | - | - |
| Gilas | 3100 | 20,35% | - | - | - | - | - | - |
| Mirabad | - | - | - | - | - | - | - | - |
| Tərkeş | - | - | - | - | - | - | - | - |
| Telyuş | 425 | 2,79% | - | - | - | - | - | - |
| Alan | 610 | 4,01% | - | - | - | - | - | - |
| Turcan | 50 | 0,33% | 100 | 4,76% | 1170 | 7,95% | - | - |
| Axtaçı | 360 | 2,36% | - | - | - | - | - | - |
| Suldus | 2750 | 18,05% | - | - | 1510 | 10,26% | - | - |
| Lacan | - | - | - | - | 2150 | 14,61% | - | - |
| Qıpçaq | 300 | 1,97% | - | - | 2290 | 15,56% | - | - |
| *Yekun* | **15.235** | | **2.100** | | **14.720** | | **5.070** | |

Cədvəldən də aydın görünür ki, satış üçün nəzərdə tutulan bağçılıq və bostançılıq məhsullarından əldə olunan gəlirlərin ən yüksəyi öz bağ-bağatı ilə seçilən və hal-hazırda da İran İslam Respublikasını meyvə ilə böyük ölçüdə təmin edən Marağa livasının payına düşür.

Bir qayda olaraq, bitkilərin əkilib-becərildiyi ərazilərdə onları sulamaq üçün imkan daxilində su dəyirmanlarından istifadə edilirdi. Daha öncə də qeyd etdiyimiz kimi, müfəssəl dəftərdə dəyirmanların vəziyyəti (işlək və ya xarab olması) ilə yanaşı, onun yanında neçə müddətə işləməsi göstərilmişdir. Dəyirmanın üç ay işləməsinə görə – 30 ağça, yarım ilə görə – 60 ağça, bir ilə görə isə – 360 ağça vergi tutulurdu. Dəyirmanın neçə daşdan ibarət olması, "bab" kimi yazılmışdır. Bunlarla yanaşı, verginin yanında dəyirman sahibinin adı və yaxud şəriklidirsə, onda "*maa' şürəka*" sözü yazılmışdır ki, bununla da dəyirmanların kimə məxsus olduğunu asanlıqla öyrənmək mümkün olur.

Osmanlı qanunlarına əsasən, buğda və qarğıdalı kimi dənli bitkilərin üyüdülməsi üçün istifadə olunan əl dəyirmanlarına görə rəiyyətdən vergi tutulmamış, yalnız su dəyirmanlarından istifadə zamanı vergi alınmışdır. Təhrir dəftərlərində qeydə alınmış su dəyirmanlarından hər hansı biri xarab olduğu halda dəyirman sahibinə timar sahibi onu təmir etdirməsi üçün təklif edə bilər, lakin timar sahibi dəyirmanı təmir etməzsə, bu zaman dəyirman üçün qeyd olunmuş vergi rüsumu ondan alınardı (68, s. 305-306). Aşağıdakı cədvəldə hər iki liva üzrə dəyirmanlardan gələn gəlirlərin miqdarı göstərilmişdir.

**Cədvəl 3.20**

Marağa livası üzrə dəyirmanlardan əldə olunan vergi (*ağça ilə*)

| **Nahiyələr** | **Rəsm-i asiyab** | |
|---|---|---|
| Marağa şəhəri | 4500 | 30,97% |
| Benacu | 3180 | 21,89% |
| Səracu | 5140 | 35,38% |
| Bukan | - | - |
| Gavdul | 930 | 6,40% |
| Miyandoab | - | - |
| Əcri | 240 | 1,65% |
| Leylan | 240 | 1,65% |
| Əkərtu | 300 | 2,06% |
| *Yekun* | **14.530** | |

**Cədvəl 3.21**

Soyuqbulaq livası üzrə dəyirmanlardan
əldə olunan vergi (ağça ilə)

| **Nahiyələr** | **Rəsm-i asiyab** | |
|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 250 | 3,94% |
| Şəhr-i viran | 420 | 6,61% |
| Dəryaz | 990 | 15,59% |
| Yıltimur | 450 | 7,09% |
| Gilas | 1050 | 16,54% |
| Mirabad | - | - |
| Tərkeş | 240 | 3,78% |
| Telyuş | - | - |
| Alan | 60 | 0,94% |
| Turcan | 480 | 7,56% |
| Axtaçı | 670 | 10,55% |
| Suldus | 930 | 14,65% |
| Lacan | 810 | 12,76% |
| Qıpçaq | - | - |
| *Yekun* | **6.350** | |

Cədvəldən göründüyü kimi, Marağa livası üzrə Marağa şəhərində dəyirmanların sayı onun nahiyələrinə nisbətən daha çox olmaqla 30,97%, Soyuqbulaq livası üzrə Gilas nahiyəsində isə 16,54% təşkil etmişdir.

Marağa və Soyuqbulaq livalarında əhali əkinçiliklə yanaşı, maldarlıq və arıçılıqla da məşğul olmuşdur. Buna müvafiq olaraq heyvandarlıq üçün lazım olan bitkilər də becərmişlər.

## 3.2. Heyvandarlıqla əlaqəli vergilər üzrə əldə olunan gəlirlər

Müfəssəl dəftərin məlumatlarına görə, hər iki liva üzrə əhalinin əsas məşğulluq sahələrindən biri də heyvandarlıq olmuşdur. Məlumatlardan bu sahədə qoyunçuluğun daha irəlidə olduğunu görürük. Adı təhrir dəftərinə "*adət-i ağnam*" (qoyunçuluğa görə adəti üzrə ödənilən vergi) şəklində salınan bu vergi Osmanlı vergi qaydalarına görə yalnız xırdabuynuzlu heyvanlar üçün nəzərdə tutulmuşdur. Belə ki, iribuynuzlu mal-qara üçün toplanan verginin adı "*resm-i mevaşi*" olmuşdur (118, s. 100). Rəiyyətdən toplanan bu vergi hər baş heyvana görə hesablanmış, xırdabuynuzlu heyvanlar üçün isə iki qoyun və ya keçi üçün 1 ağça təyin edilmişdir (118, s. 100-101; 50, s. 12). Adı "*rəsm-i ğanəm*" kimi də göstərilən bu vergi bəzən sipahi tərəfindən, bəzən də birbaşa mərkəz tərəfindən yığılaraq dövlət xəzinəsinə göndərilmişdir (68, s. 306). Burada onu da qeyd etmək istərdik ki, araşdırdığımız dəftərin katibi bəzi kəndlər üzrə yığılan verginin hasil bölümündə "*adət-i ağnam*" vergisinin adını yazmış, lakin həmin verginin qarşısında göstəriləcək məbləğin yerini boş qoymuşdur. Məsələn, Marağa livasının Gavdul nahiyəsində bəzi kəndlərdə xırdabuynuzlu heyvanlar üçün toplanan

verginin qarşısında heçnə yazılmamışdır (14, s. 164, 166-168, 170-173, 176, 178, 182-184, 187). Bunun səbəbini ya həmin kənddə yaşayanların xırdabuynuzlu heyvanlarının olmaması, ya öz heyvanlarını köçəri və yarımköçəri həyat sürən şəxslərə, yaxud da mal-qara ilə məşğul olanlara istifadə üçün vermələri ilə izah etmək olar. Marağa və Soyuqbulaq livalarında qoyunçuluqdan əldə edilən illik gəlir aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 3.22**

Marağa livasında qoyunçuluqdan
əldə edilən illik gəlir (*ağça ilə*)

| **Nahiyələr** | **Adət-i ağnam** | **Faizlə** |
|---|---|---|
| Marağa şəhəri | 2200 | 14,43 |
| Benacu | 4839 | 31,74 |
| Səracu | 4069 | 26,69 |
| Bukan | 714 | 4,68 |
| Gavdul | 2052 | 13,46 |
| Miyandoab | 117 | 0,77 |
| Əcri | 722 | 4,74 |
| Leylan | 357 | 2,34 |
| Əkərtu | 174 | 1,14 |
| *Yekun* | **15.244** | |

**Cədvəl 3.23**

Soyuqbulaq livasında qoyunçuluqdan
əldə edilən illik gəlir (*ağça ilə*)

| **Nahiyələr** | **Adət-i ağnam** | **Faizlə** |
|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 2000 | 7,41 |
| Şəhr-i viran | 2909 | 10,77 |
| Dəryaz | 1463 | 5,42 |

**Cədvəl 3.23-nün ardı**

| | | |
|---|---|---|
| Yıltimur | 1982 | 7,34 |
| Gilas | 3260 | 12,07 |
| Mirabad | 404 | 1,49 |
| Tərkeş | 760 | 2,81 |
| Telyuş | 454 | 1,68 |
| Alan | 800 | 2,96 |
| Turcan | 4900 | 18,14 |
| Axtaçı | 1252 | 4,64 |
| Suldus | 3027 | 11,21 |
| Lacan | 2711 | 10,04 |
| Qıpçaq | 1086 | 4,02 |
| *Yekun* | **27.008** | |

Cədvəldəki nəticələrə nəzər salsaq, Marağa livasında təxminən 30.488 baş, Soyuqbulaq livasında isə təxminən 54.016 baş xırdabuynuzlu heyvanın saxlandığını deyə bilərik. Ödənilən vergilərə əsasən, Marağa livası üzrə Benacu nahiyəsində (31,74%), Soyuqbulaq livası üzrə isə Turcan nahiyəsində (18,14%) heyvandarlığın xüsusi çəkisinin daha yüksək olduğunu müəyyən etmiş oluruq.

Bir məqamı da nəzərə çatdırmaq istərdik ki, Azərbaycanda köçəri maldarlıq mövcud olmuşdur ki, bu da əsasən Muğan düzündə geniş yayılmışdır. Burada məskunlaşan şahsevənlər çadırlarda yaşayır və yay aylarında öz mal-qaralarını otarmağa Təbriz və ona yaxın yerlərə gəlirdilər. İ.Gerber maldarlıqdan başqa İranda (Azərbaycanda) şahsevənlərin və muğanlıların öz gözəlliyi ilə seçilən məşhur atlarının olması və atçılığın inkişafı barədə də məlumat vermişdir (45, s. 86).

Səyyah Pyer Davit Azərbaycanda mal-qaranın bolluğundan, buradakı mal-qaranın çox iri olmaqla yanaşı, ətinin

dadlı olmasından, həmçinin mal ətinin ucuzluğundan da bəhs etmişdir (54, s. 18).

Bununla yanaşı qeyd edə bilərik ki, polkovnik Lopuxin Səfəvi dövlətinin bölgələrini gəzərkən buranın hər yerində qoyun yunundan çox gözəl parçaların hazırlandığını və belə bir keyfiyyətli yuna heç bir yerdə rast gəlmədiyini bildirmişdir (92, s. 10). Məhz bu səbəbdəndir ki, ölkə ixracatında ipəkdən sonra ikinci yeri yun və yun parça tutmuşdur (32, s. 64).

M.Heydarov Azərbaycan ərazisindən Türkiyəyə pambıq, yun, düyü və boyaq üçün xammal göndərilməsi ilə yanaşı, xırdabuynuzlu heyvanların da aparılması barədə məlumat vermişdir (103, s. 78-79).

Heyvandarlığın mövcud olduğu ərazilərdə bu sahə ilə əlaqəli daha bir neçə vergi növü tətbiq edilmişdir. Müfəssəl dəftərdə heyvandarlıqla bağlı vergilər bir-birinin ardınca qeyd edilmişdir. Bu vergilərdən biri də heyvanların saxlanması üçün nəzərdə tutulan tikililərə görə toplanan "*rəsm-i ağıl*" (ağıl vergisi) vergisidir. Məlumdur ki, yüzilliklər boyu heyvandarların əsasən qışlaq yeri kimi yaşadığı Marağa livasında bu vergi nahiyələr üzrə bəzən tək halda deyil, "*rəsm-i ağıl və qışlaq*" (ağıl və qışlaq vergisi) şəklində yığılmışdır. Soyuqbulaq livası ərazisində isə yaylaqların daha çox olması səbəbindən burada vergi "*rəsm-i ağıl və yaylaq*" (ağıl və yaylaq vergisi) adı ilə toplanmışdır.

Araşdırdığımız dəftərdən məlum olur ki, yaylaq-qışlaq üsulu ilə saxlanılan heyvanların yemini təmin etmək üçün "*rəsm-i otlaq*" (otlaq vergisi) vergisi təyin edilmişdir. Bu vergi bəzi nahiyələr üzrə rəiyyətdən "*rəsm-i otlaq və qışlaq*", yaxud da "*rəsm-i otlaq və yaylaq*" şəklində yığılmışdır. Müfəssəl dəftərdə Soyuqbulaq livasının Şəhr-i viran nahiyəsinin kəndləri üzrə toplanan bu vergilərə nəzər saldıqda görürük ki, burada bəzi kəndlərdən toplanan ağıl və otlaq vergisi də, yay-

laq və qışlaq vergisi də eyni maddə adı altında qeyd edilmişdir. Bununla yanaşı, bu nahiyədə, həmçinin ağıl və yaylaq, otlaq və qışlaq, otlaq və yaylaq vergiləri də yığılmışdır. Yuxarıda adlarını sadaladığımız vergilərdən əldə olunan gəlirlər aşağıdakı cədvəllərdə göstərilmişdir.

**Cədvəl 3.24**

Marağa livası üzrə ağıl və otlaq vergisindən
əldə edilən gəlirlər (*ağça ilə*)

| **Nahiyələr** | **Ağıl və qışlaq, ağıl və yaylaq vergisi** | | **Otlaq və qışlaq, otlaq və yaylaq vergisi** | |
|---|---|---|---|---|
| Marağa şəhəri | 100 | 0,49% | 500 | 3,38% |
| Benacu | 3390 | 16,91% | 1960 | 13,26% |
| Səracu | 6960 | 34,71% | 7100 | 48,04% |
| Bukan | 1600 | 7,98% | 760 | 5,14% |
| Gavdul | 5400 | 26,93% | 2080 | 14,07% |
| Miyandoab | 200 | 0,99% | 80 | 0,54% |
| Əcri | 1200 | 5,99% | 1200 | 8,12% |
| Leylan | 800 | 3,99% | 700 | 4,74% |
| Əkərtu | 400 | 1,99% | 400 | 2,71% |
| *Yekun* | **20.050** | | **14.780** | |

**Cədvəl 3.25**

Soyuqbulaq livası üzrə ağıl və otlaq vergisindən
əldə edilən gəlirlər (*ağça ilə*)

| **Nahiyələr** | **Ağıl və qışlaq, ağıl və yaylaq vergisi** | | **Otlaq və qışlaq, otlaq və yaylaq vergisi** | |
|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 300 | 0,89% | 250 | 0,79% |
| Şəhr-i viran | 2600 | 7,71% | 3280 | 10,43% |
| Dəryaz | 3560 | 10,55% | 100 | 0,32% |
| Yıltimur | 2100 | 6,22% | 2100 | 6,68% |

**Cədvəl 3.25-in ardı**

| | | | | |
|---|---|---|---|---|
| Gilas | 4900 | 14,51% | 5100 | 16,22% |
| Mirabad | 600 | 1,78% | 600 | 1,91% |
| Tərkeş | 800 | 2,37% | 800 | 2,54% |
| Telyuş | 500 | 1,48% | 500 | 1,59% |
| Alan | 400 | 1,18% | 400 | 1,27% |
| Turcan | 2800 | 8,29% | 2800 | 8,91% |
| Axtaçı | 2500 | 7,41% | 2380 | 7,57% |
| Suldus | 5350 | 15,85% | 5300 | 16,86% |
| Lacan | 5100 | 15,11% | 5200 | 16,54% |
| Qıpçaq | 2250 | 6,66% | 2630 | 8,37% |
| *Yekun* | **33.760** | | **31.440** | |

Cədvəldən aydın olur ki, vergilərin nisbətən yüksək yığımı Marağa livasında əhalinin daha sıx yaşadığı Səracu nahiyəsi üzrə ağıl və yaylaq vergisi – 34,71%, otlaq və qışlaq vergisi – 48,04%, Soyuqbulaq livası üzrə əhalinin daha çox məskunlaşdığı Suldus nahiyəsində ağıl və yaylaq vergisi – 15,85%, qışlaq vergisi isə 16,86% təşkil etmişdir.

Müfəssəl dəftərdə heyvandarlıqla əlaqəli daha iki vergi növü ilə də rastlaşırıq – "*rəsm-i giyah maa' yonca*" (təzə ot və yonca üçün vergi) və "*baha-i kah*" (saman üçün vergi). "*Rəsm-i giyah maa' yonca*" vergisi, demək olar ki, hər iki livadan yığılmış, lakin bu vergi üçün dəqiq bir miqdar təyin edilməmişdir. Belə ki, nahiyələrdən və kəndlərdən asılı olaraq bu verginin miqdarı təxmini hesablanaraq 10-200 ağça arasında dəyişilmişdir.

"*Baha-i kah*" vergisinə gəldikdə isə, bu vergi, adətən, heyvan yemi üçün nəzərdə tutulmuş dənli bitkilərin yetişdirildiyi sahələrə görə toplanmışdır. Bu vergi də yuxarıda sadaladığımız və heyvandarlığa aid olan digər vergilər kimi rə-

iyyətdən nağd şəkildə alınmışdır. Onu da qeyd edək ki, "*Baha-i kah*" vergisi üçün də dəqiq miqdar hesablanmamış, ən az 20 ağça, ən çox isə 1.224 ağça arasında alınmışdır. Müfəssəl dəftərin nəticələrinə görə, hər iki livada bu vergilərdən əldə olunan gəlirlərin miqdarı ağça ilə hesablanaraq göstərilmişdir.

**Cədvəl 3.26**

Marağa livasında yığılan "*rəsm-i giyah maa' yonca*" və "*baha-i kah*" vergilərindən əldə olunan gəlirlər (*ağça ilə*)

| Nahiyələr | Təzə ot və yonca üçün vergi | | Saman üçün vergi | |
|---|---|---|---|---|
| Marağa şəhəri | - | - | 2400 | 5,88% |
| Benacu | 1164 | 6,35% | 16364 | 40,11% |
| Səracu | 6880 | 37,51% | 11550 | 28,31% |
| Bukan | 1650 | 8,99% | 1740 | 4,27% |
| Gavdul | 6790 | 37,01% | 6460 | 15,84% |
| Miyandoab | 400 | 2,18% | - | - |
| Əcri | 690 | 3,76% | 910 | 2,23% |
| Leylan | 560 | 3,05% | 950 | 2,33% |
| Əkərtu | 210 | 1,14% | 420 | 1,03% |
| *Yekun* | **18.344** | | **40.794** | |

**Cədvəl 3.27**

Soyuqbulaq livasında yığılan "*rəsm-i giyah maa' yonca*" və "*baha-i kah*" vergilərindən əldə olunan gəlirlər (*ağça ilə*)

| Nahiyələr | Təzə ot və yonca üçün vergi | | Saman üçün vergi | |
|---|---|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 260 | 1,61% | 1200 | 4,13% |
| Şəhr-i viran | 1363 | 8,42% | 6108 | 21,04% |
| Dəryaz | 4860 | 30,03% | 2690 | 9,27% |
| Yıltimur | 1010 | 6,24% | 2020 | 6,96% |

**Cədvəl 3.27-nin ardı**

| | | | | |
|---|---|---|---|---|
| Gilas | 1740 | 10,75% | 1730 | 5,96% |
| Mirabad | 170 | 1,05% | 170 | 0,59% |
| Tərkeş | 280 | 1,73% | 270 | 0,93% |
| Telyuş | 140 | 0,87% | 140 | 0,48% |
| Alan | 130 | 0,81% | 130 | 0,45% |
| Turcan | 1170 | 7,23% | 2340 | 8,06% |
| Axtaçı | 980 | 6,06% | 950 | 3,27% |
| Suldus | 780 | 4,82% | 3560 | 12,26% |
| Lacan | 1100 | 6,79% | 5620 | 19,36% |
| Qıpçaq | 2200 | 13,59% | 2100 | 7,23% |
| *Yekun* | **16.183** | | **29.028** | |

Aparılan hesablamalardan aydın olur ki, Marağa şəhərindən "*rəsm-i giyah maa' yonca*" və "*baha-i kah*" vergisi toplanmasa da, liva üzrə təzə ot və yoncaya görə vergi Səracu nahiyəsində – 37,5%, saman üçün vergi Benacu nahiyəsində – 40,11%, Soyuqbulaq livası üzrə təzə ot və yoncaya görə vergi Dəryaz nahiyəsində – 30,03%, samana görə vergi Şəhr-i viran nahiyəsində – 21,04% təşkil etməklə daha yüksək olmuşdur.

Bundan başqa, Marağa və Soyuqbulaq livalarında dənli və paxlalı bitkilərlə bərabər quraqlığa dayanıqlı olan çayır bitkisi də əkilmişdir. Bu bitki həm qış mövsümündə heyvan yemi olaraq, həm heyvanlar xəstələnərkən müalicə məqsədilə, həm də xırda və iribuynuzlu heyvanların nəsil artımı üçün istifadə olunmuşdur. Təcrübə göstərir ki, çayırla bəsləndikdən sonra heyvanların ət və süd verimi daha yüksək olur. Müfəssəl dəftərdə çayır bitkisinə görə nahiyələrdən asılı olaraq 120 ağçaya qədər sərbəst vergi müəyyən edilmişdir. Aşağıdakı cədvəldə Marağa və Soyuqbulaq livaları üzrə çayır bitkisinə görə əldə olunan gəlirlərin miqdarı göstərilmişdir.

**Cədvəl 3.28**

Marağa livası üzrə çayır bitkisinə görə yığılan vergi (*ağça ilə*)

| **Nahiyələr** | **Çayır bitkisi** | |
|---|---|---|
| Marağa şəhəri | - | - |
| Benacu | - | - |
| Səracu | - | - |
| Bukan | - | - |
| Gavdul | 2560 | 95,52% |
| Miyandoab | 120 | 4,48% |
| Əcri | - | - |
| Leylan | - | - |
| Əkərtu | - | - |
| *Yekun* | **2.680** | |

**Cədvəl 3.29**

Soyuqbulaq livası üzrə çayır bitkisinə görə
yığılan vergi (*ağça ilə*)

| **Nahiyələr** | **Çayır bitkisi** | |
|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | - | - |
| Şəhr-i viran | 410 | 10,61% |
| Dəryaz | - | - |
| Yıltimur | - | - |
| Gilas | - | - |
| Mirabad | - | - |
| Tərkeş | - | - |
| Telyuş | - | - |
| Alan | - | - |
| Turcan | - | - |
| Axtaçı | - | - |
| Suldus | 855 | 22,12% |
| Lacan | 1370 | 35,44% |
| Qıpçaq | 1230 | 31,82% |
| *Yekun* | **3.865** | |

Əhalinin sıx yaşadığı, meyvə bağları ilə məşhur olan həm Marağa livası, həm də Soyuqbulaq livası üçün "*üşr-i küvvare*" (pətək vergisi) də təyin edilmişdir. Pətək vergisi üçün tutulan vergi pətək başına görə alınmışdır. Müfəssəl dəftərdə katib bu verginin adını bəzi yerlərdə "*üşr-i kovan*" kimi qeyd etmişdir. Lakin bu vergilərin hər ikisinin anlamı eynidir və "pətək vergisi" mənasını daşıyır.

Osmanlı qanunnamələrində pətək vergisi arıçılardan 1/10 şəklində alınmışdır və toplanma qaydası aşağıdakı şəkildə qeyd edilmişdir: "Kovan durduğu yerə tabedir. Hər kimin yerində bal eylərsə, üşr onundur. Və şol yerdəki ağca yazılmıştır; dəftər mucibincə nə təqdir oldu isə ol alına" (68, s. 305).

Marağa livası üzrə ən çox pətək vergisi Səracu nahiyəsinin (39,50%), Soyuqbulaq livası üzrə isə Gilas nahiyəsinin (14,31%) payına düşmüşdür.

Marağa və Soyuqbulaq livaları üzrə əldə olunan pətək vergisinin həcmi aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 3.30**

Marağa livası üzrə nahiyələrdən əldə olunan
pətək vergisi (*ağça ilə*)

| **Nahiyələr** | **Pətək vergisi** | **%** |
|---|---|---|
| Marağa şəhəri | 3000 | 6,84 |
| Benacu | 6842 | 15,59 |
| Səracu | 17330 | 39,50 |
| Bukan | 2240 | 5,11 |
| Gavdul | 8980 | 20,47 |
| Miyandoab | 800 | 1,82 |
| Əcri | 2400 | 5,47 |
| Leylan | 1750 | 3,99 |
| Əkərtu | 560 | 1,28 |
| *Yekun* | **43.872** | |

**Cədvəl 3.31**

Soyuqbulaq livası üzrə nahiyələrdən əldə olunan
pətək vergisi (*ağça ilə*)

| **Nahiyələr** | **Pətək vergisi** | **%** |
|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 2000 | 4,30 |
| Şəhr-i viran | 3720 | 8,00 |
| Dəryaz | 6140 | 13,21 |
| Yıltimur | 4000 | 8,60 |
| Gilas | 6654 | 14,31 |
| Mirabad | 780 | 1,68 |
| Tərkeş | 1120 | 2,41 |
| Telyuş | 560 | 1,20 |
| Alan | 520 | 1,12 |
| Turcan | 4400 | 9,46 |
| Axtaçı | 3600 | 7,74 |
| Suldus | 4680 | 10,07 |
| Lacan | 5040 | 10,84 |
| Qıpçaq | 3280 | 7,05 |
| *Yekun* | **46.494** | |

## 3.3. Qeyri-təsərrüfat vergiləri və livalardan əldə olunan ümumi gəlirlər

Müfəssəl dəftərdə nə torpaqla, nə də kənd təsərrüfatı ilə əlaqəli olmayan, lakin ödənməsi lazım gələn qeyri-təsərrüfat vergiləri də qeydə alınmışdır. Bunlardan biri də "*rəsm-i arusanə*" adı altında toplanan vergidir. Hər bir evlənəcək şəxs bu vergini əgər qız bakirədirsə, 120 ağça, əgər dul qadındırsa, 60 ağça həcmində ödəməli idi (68, s. 307). "*Gərdək rəsmi*" kimi də adlanan bu vergi Osmanlı dövlətində örf vergisi

hesab edilmişdir. Verginin miqdarı sabit olaraq qalmış, livalar üzrə heç bir yerdə dəyişilməmiş, yalnız bir kənddə katib bu vergini qeydə almamışdır. Sözsüz ki, üç il ərzində bir kənddə bakirə qız və ya dul qadın ərə getməyə də bilərdi və bunu nəzərə alaraq deyə bilərik ki, katib, bəlkə də, Gavdul nahiyəsinin Qarakənd kəndində bu səbəbdən gəlinlik vergisini qeyd etməmişdir (14, s. 182). Bu səbəbdən də gəlinlik vergisinin müfəssəl dəftərdə yazılmış həcmini şərti rəqəm kimi qəbul etməyimiz daha doğru olar. Marağa şəhərində bu verginin həcmi 180 ağça, Benacu nahiyəsində 6.300 ağça, Səracu nahiyəsində 13.500 ağça, Bukan nahiyəsində 2.880 ağça, Gavdul nahiyəsində 9.720 ağça, Miyandoab nahiyəsində 360 ağça, Əcri nahiyəsində 2.160 ağça, Leylan nahiyəsində 1.260 ağça, Əkərtu nahiyəsində 720 ağça, Soyuqbulaq qəsəbəsində 180 ağça, Şəhr-i viran nahiyəsində 7.560 ağça, Dəryaz nahiyəsində 6.300 ağça, Yıltimur nahiyəsində 3.780 ağça, Gilas nahiyəsində 9.180 ağça, Mirabad nahiyəsində 1.080 ağça, Tərkeş nahiyəsində 1.440 ağça, Telyuş nahiyəsində 900 ağça, Alan nahiyəsində 720 ağça, Turcan nahiyəsində 5.040 ağça, Axtaçı nahiyəsində 4.500 ağça, Suldus nahiyəsində 9.720 ağça, Lacan nahiyəsində 9.540 ağça və Qıpçaq nahiyəsində 4.140 ağça təşkil etmişdir.

Marağa və Soyuqbulaq livaları üzrə "*niyabət qrupu*" adlanan vergi bütün nahiyə və kəndlərdə qeyd olunmuşdur. Digər müfəssəl dəftərlərdən fərqli olaraq, "*niyabət qrupu*" vergisi Marağa şəhəri və Soyuqbulaq qəsəbəsində "*beyt-ul mal..*" vergisi ilə yanaşı verilmişdir. Vurğulayaq ki, "*niyabət qrupu*" və "*beyt-ul mal..*" adı altında toplanan rüsumlar qrupuna "*cürm-ü cinayət*", "*bad-i hava*", "*müjdə-i abd-i abık və yava və ğeyrihi*" və "*beyt-ul mal ammə və xassə*" daxil edilmişdir.

Marağa şəhərinin və Soyuqbulaq livasının hasil bölümündə "*beyt-ul mal ammə və xassə mal-i ğaib və məfqud*" şəklində qeydə alınan bu verginin mahiyyətindən belə aydın olur ki, varissiz vəfat edənlərin mallarının özündən və yaxud da satışından əldə olunan vəsait dövlət xəzinəsinə aiddir, verginin ikinci hissəsində yazılan "*mal-i ğaib və məfqud*" isə malın itməsi ilə bağlıdır.

"*Niyabət qrupu*" vergilərinə gəlincə, buradakı "*cürm-ü cinayət*" törədilmiş hər hansı bir cinayətə görə ödəniləcək rüsumun həcmini göstərir. Aydındır ki, müfəssəl dəftər tərtib olunarkən hər hansı bir hadisənin baş verəcəyini öncədən bilmək mümkün olmazdı. Bundan əlavə, törədilmiş cinayətin ağırlığı qazının başçılığı ilə keçirilmiş məhkəmədə çıxarılmış qərardan sonra müəyyən edilirdi. Daha sonra isə cinayət törətmiş şəxs ya cərimə ödəməli, ya da cəzasını çəkməli idi.

Bu qrupa daxil olan "*bad-i hava*" havadan gələn gəlir anlamını daşıyır. Bunu belə izah etmək olar ki, bu gəlir heç bir zəhmət çəkilmədən qazanılan və ya havayı şəkildə əldə olunan gəlir növüdür.

"*Müjdə-i abd-i abık*" adı ilə alınan rüsum, adından göründüyü kimi, muştuluq (müjdə) puludur. Bu rüsum sahibinin yanından qaçmış qul və cariyə tapılan zaman ödənilirdi. Qul və ya cariyə sahibi belə hallarda muştuluq pulu ödəməli idi. Lakin itmiş heyvanın tapılmasından sonra sahibindən alınan rüsum isə "*yava*" adlanırdı.

Yuxarıda adları ayrı-ayrılıqda izah edilən "*niyabət qrupuna*" daxil edilən vergi və rüsumlar bir təsadüf nəticəsində ortaya çıxan hadisələrlə əlaqəli olduğundan bunların həcmi bilinməmiş və bu səbəbdən də müfəssəl dəftərdə onlar ayrı-ayrılıqda deyil, bütün qrup üçün təxmini bir rəqəmlə (*ağça ilə*) müəyyən edilərək göstərilmişdir. Ona görə də tədqiq etdiyimiz dəftərdə bu verginin miqdarı hər bir kənd üçün ayrı-

ayrı və təqribi rəqəm ilə yazılmışdır. Diqqət yetirmək lazımdır ki, katib Soyuqbulaq livasının Dəryaz nahiyəsində Afan kəndinin vergilərini qələmə alarkən, burada "*niyabət qrupu*" vergisini yazmağı unutmuşdur (14, s. 295). Aşağıdakı cədvəldə Marağa və Soyuqbulaq livaları üzrə "*niyabət qrupu*"ndan əldə olunan vergilərin miqdarı verilmişdir.

**Cədvəl 3.32**

Marağa livası üzrə niyabət qrupundan əldə edilən verginin miqdarı (*ağça ilə*)

| **Nahiyələr** | **Niyabət qrupu** | **%** |
|---|---|---|
| Marağa şəhəri | 9500 | 5,41 |
| Benacu | 58700 | 33,40 |
| Səracu | 63700 | 36,24 |
| Bukan | 5300 | 3,02 |
| Gavdul | 23200 | 13,20 |
| Miyandoab | 2000 | 1,14 |
| Əcri | 5750 | 3,27 |
| Leylan | 5500 | 3,13 |
| Əkərtu | 2100 | 1,19 |
| *Yekun* | **175.750** | |

**Cədvəl 3.33**

Soyuqbulaq livası üzrə niyabət qrupundan əldə edilən verginin miqdarı (*ağça ilə*)

| **Nahiyələr** | **Niyabət qrupu** | **%** |
|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 12000 | 8,63 |
| Şəhr-i viran | 16500 | 11,87 |
| Dəryaz | 14450 | 10,39 |

**Cədvəl 3.33-nün ardı**

| | | |
|---|---|---|
| Yıltimur | 10100 | 7,26 |
| Gilas | 17600 | 12,66 |
| Mirabad | 1700 | 1,22 |
| Tərkeş | 2800 | 2,01 |
| Telyuş | 1400 | 1,01 |
| Alan | 1300 | 0,93 |
| Turcan | 11700 | 8,41 |
| Axtaçı | 9800 | 7,05 |
| Suldus | 13600 | 9,78 |
| Lacan | 17400 | 12,51 |
| Qıpçaq | 8700 | 6,26 |
| *Yekun* | **139.050** | |

Bütün qeyd olunanlar yekunlaşdırılaraq müfəssəl dəftərin məlumatları əsasında Marağa və Soyuqbulaq livaları üzrə ödənən vergilərin həcmi müəyyənləşdirilmiş və aşağıda göstərilmişdir.

**Cədvəl 3.34**

Marağa livası üzrə təyin edilmiş vergilər (*ağca ilə*)

| **Nahiyələr** / **Ödənilən vergillər** | **Marağa şəhəri** | **Benacu** | **Səracu** | **Bukan** | **Gavdul** | **Miyandoab** | **Əcri** | **Leylan** | **Əkərtu** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çift | 95 | 560 | 198 | 63 | 216 | 5 | 39 | 50 | 21 | 1.247 |
| Bennak | - | 1817 | 463 | - | 404 | 19 | 19 | 106 | 69 | 2.897 |
| Caba | - | 270 | 69 | 74 | 9 | - | 2 | 11 | 1 | 436 |
| Mücərrəd | - | 459 | 56 | - | 150 | 1 | 4 | 6 | - | 676 |
| İspəncə | 128 | - | - | - | 30 | 23 | - | 11 | - | 192 |
| Buğda vergisi | 4750 | 12720 | 32240 | 2425 | 11450 | 1000 | 2700 | 2750 | 1050 | 71.085 |
| Arpa vergisi | 2375 | 11485 | 16260 | 1325 | 56500 | 500 | 1350 | 1375 | 525 | 91.695 |
| Darı vergisi | 950 | 4700 | 6340 | 515 | - | - | 570 | 545 | 210 | 13.830 |
| Yulaf vergisi | - | - | - | - | 1295 | 100 | - | - | - | 1.395 |
| Gənəgərçək vergisi | 475 | 2380 | 2095 | 260 | 1210 | 100 | 350 | 275 | 105 | 7.250 |

**Cədvəl 3.34-nün ardı**

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mərcimək və noxud vergisi | - | 985 | 705 | - | 1150 | 100 | 300 | 245 | 40 | 3.525 |
| Arı pətəyi vergisi | 3000 | 6842 | 17330 | 2240 | 8980 | 800 | 2400 | 1750 | 560 | 43.872 |
| Pambıq vergisi | 95 | 454 | 651 | 52 | 146 | 20 | 46 | 62 | 21 | 1.547 |
| Çəltik vergisi | - | 39 | - | - | 631 | 30 | 282 | 340 | - | 1.322 |
| Bağat vergisi | 26250 | 24860 | 360 | - | 14990 | - | 50 | 600 | 100 | 67.210 |
| Bostan vergisi | 1500 | 1344 | - | - | 4900 | 350 | - | 750 | 180 | 9.024 |
| Meyvə vergisi | 13110 | 1702 | - | - | 2210 | - | - | 230 | - | 17.252 |
| Soğan və sarımsaq vergisi | - | 1054 | - | - | 6370 | 400 | - | 270 | - | 8.094 |
| Təzə ot və yonca vergisi | - | 1164 | 6880 | 1650 | 6790 | 400 | 690 | 560 | 210 | 18.344 |
| Saman vergisi | 2400 | 16364 | 11550 | 1740 | 6460 | - | 910 | 950 | 420 | 40.794 |
| Ağıl, qışlaq və yaylaq vergisi | 100 | 3390 | 6960 | 1600 | 5400 | 200 | 1200 | 800 | 400 | 20.050 |

**Cədvəl 3.34-nün ardı**

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Otlaq, qışlaq və yaylaq vergisi | 500 | 1960 | 7100 | 760 | 2080 | 80 | 1200 | 700 | 400 | 14.780 |
| Çayır vergisi | - | - | - | - | 2560 | 120 | - | - | - | 2.680 |
| Qoyun vergisi | 2200 | 4839 | 4069 | 714 | 2052 | 117 | 722 | 357 | 174 | 15.244 |
| Gəlinlik vergisi | 180 | 6300 | 13500 | 2880 | 9720 | 360 | 2160 | 1260 | 720 | 37.080 |
| Dəşti-bani və tapu vergisi | 4750 | 23360 | 39000 | 2520 | 9350 | 1000 | 2870 | 2650 | 1050 | 86.550 |
| Dəyirman vergisi | 4500 | 3180 | 5140 | - | 930 | - | 240 | 240 | 300 | 14.530 |
| Niyabət vergisi | 9500 | 58700 | 63700 | 5300 | 23200 | 2000 | 5750 | 5500 | 2100 | 175.750 |

**Cədvəl 3.35**

Soyuqbulaq livası üzrə təyin edilmiş vergilər (*ağca ilə*)

| Nahiyələr / Ödənilən vergilər | Soyuqbulaq qəsəbəsi | Şəhr-i viran | Dəryaz | Yıltimur | Gilas | Mirabad | Tərkeş | Telyuş | Alan | Turcan | Axtaçı | Suldus | Lacan | Qıpçaq | Yekun |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çift | 80 | 288 | 147 | 142 | 234 | 37 | 48 | 17 | 15 | 127 | 144 | 106 | 198 | 89 | 1.672 |
| Nim cift | - | - | - | - | - | - | - | - | - | - | 2 | 62 | 73 | - | 137 |
| Bennak | - | 193 | 146 | 61 | 14 | - | - | - | - | 94 | 10 | 225 | 315 | 124 | 1.182 |
| Caba | - | - | 281 | 49 | 348 | 47 | 60 | 26 | 98 | 98 | 185 | - | - | - | 1.192 |
| Mücərrəd | - | 128 | 37 | 1 | - | - | - | - | - | - | - | 106 | 25 | 58 | 355 |
| İspəncə | 13 | - | - | - | - | - | - | - | - | - | - | 135 | - | - | 148 |
| Buğda vergisi | 4000 | 8175 | 7450 | 5050 | 8550 | 850 | 1400 | 700 | 650 | 5850 | 4675 | 6750 | 8600 | 4400 | 67.100 |
| Arpa vergisi | 2000 | 37615 | 3705 | 2525 | 4400 | 425 | 700 | 350 | 325 | 2925 | 2450 | 3285 | 4305 | 1915 | 66.925 |
| Darı vergisi | 800 | 1690 | 1635 | 1010 | 1760 | 170 | 280 | 140 | 130 | 1195 | 980 | 1335 | 1730 | 845 | 13.700 |
| Yulaf vergisi | - | 25 | 390 | - | - | - | - | - | - | - | - | - | 755 | 315 | 1.485 |
| Gənəgərçək vergisi | 400 | 760 | 625 | 505 | 860 | 85 | 140 | 70 | 65 | 565 | 500 | 485 | - | 120 | 5.180 |
| Mərcimək və noxud vergisi | 400 | 20 | 7465 | 505 | 460 | 75 | 140 | 70 | 65 | 585 | - | - | - | 65 | 9.850 |
| Arı pətəyi vergisi | 2000 | 3720 | 6140 | 4000 | 6654 | 780 | 1120 | 560 | 520 | 4400 | 3600 | 4680 | 5040 | 3280 | 46.494 |

**Cədvəl 3.35-in ardı**

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Pambıq vergisi | 80 | 158 | 144 | 101 | 176 | 17 | 28 | 14 | 13 | 117 | 98 | 11 | 27 | - | 984 |
| Çəltik vergisi | 1200 | 1665 | 1175 | 1429 | 1632 | 120 | 360 | 105 | 150 | 1755 | 1440 | - | 540 | 480 | 12.051 |
| Bağat vergisi | 5000 | 1980 | 660 | - | 3100 | - | - | 425 | 610 | 50 | 360 | 2750 | - | 300 | 15.235 |
| Bostan vergisi | 2500 | 1300 | 2770 | 1030 | - | - | - | - | - | 1170 | - | 1510 | 2150 | 2290 | 14.720 |
| Meyvə vergisi | 2000 | - | - | - | - | - | - | - | - | 100 | - | - | - | - | 2.100 |
| Soğan və sarımsaq vergisi | 1500 | 410 | 3160 | - | - | - | - | - | - | - | - | - | - | - | 5.070 |
| Təzə ot və yonca vergisi | 260 | 1363 | 4860 | 1010 | 1740 | 170 | 280 | 140 | 130 | 1170 | 980 | 780 | 1100 | 2200 | 16.183 |
| Saman vergisi | 1200 | 6108 | 2690 | 2020 | 1730 | 170 | 270 | 140 | 130 | 2340 | 950 | 3560 | 5620 | 2100 | 29.028 |
| Ağıl, qışlaq və yaylaq vergisi | 300 | 2600 | 3560 | 2100 | 4900 | 600 | 800 | 500 | 400 | 2800 | 2500 | 5350 | 5100 | 2250 | 33.760 |
| Otlaq, qışlaq və yaylaq vergisi | 250 | 3280 | 100 | 2100 | 5100 | 600 | 800 | 500 | 400 | 2800 | 2380 | 5300 | 5200 | 2630 | 31.440 |

**Cədvəl 3.35-in ardı**

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Çayır vergisi | - | 410 | - | - | - | - | - | - | - | - | - | 855 | 1370 | 1230 | 3.865 |
| Qoyun vergisi | 2000 | 2909 | 1463 | 1982 | 3260 | 404 | 760 | 454 | 800 | 4900 | 1252 | 3027 | 2711 | 1086 | 27.008 |
| Gəlinlik vergisi | 180 | 7560 | 6300 | 3780 | 9180 | 1080 | 1440 | 900 | 720 | 5040 | 4500 | 9720 | 9540 | 4140 | 64.080 |
| Dəştibani və tapu vergisi | 4000 | 8250 | 7700 | 5050 | 8900 | 850 | 1400 | 700 | 650 | 5850 | 4900 | 6850 | 8700 | 4350 | 68.150 |
| Dəyirman vergisi | 250 | 420 | 990 | 450 | 1050 | - | 240 | - | 60 | 480 | 670 | 930 | 810 | - | 6.350 |
| Niyabət vergisi | 12000 | 16500 | 14450 | 10100 | 17600 | 1700 | 2800 | 1400 | 1300 | 11700 | 9800 | 13600 | 17400 | 8700 | 139.050 |

Müfəssəl dəftərin məlumatları təsdiq edir ki, hər iki livada kifayət qədər əhali yaşamış, buğda, arpa, darı, küncüt, şənbələ, pambıq, çəltik və s. bitkilər əkib-becərmiş, heyvandarlıqla yanaşı digər təsərrüfat sahələri ilə də məşğul olmuşlar.

Qeyd etmək lazımdır ki, müfəssəl dəftərdə hər bir nahiyədə yerləşən kəndlərdən toplanan vergilər daha öncə də yazdığımız kimi, kəndin "hasil" bölümündə göstərilmişdir. Dəftərin məlumatlarına əsaslanaraq deyə bilərik ki, bəzi nahiyələrdə məskun kəndlərlə yanaşı, qeyri-məskun kəndlər də olmuşdur. Lakin Osmanlı üsul-idarə sisteminə uyğun olaraq qeyri-məskun kəndlər üçün də ümumi vergi hesablanmış, dəftərin "*hasil-i xümüs-ü ğallat və üşr-i hububat və rüsumat-i sairə*" hissəsində kəndin ümumi vəziyyəti əsas götürülərək 200-3300 ağça arası vergi təyin edilmişdir. Məsələn, Gavdul nahiyəsində katib dağılmış kənd üçün "*karye-i hal-i xarab*" sözü işlətməklə həmin kəndin vəziyyətinin ifadə etmişdir (14, s.199). Onu da nəzərə çatdıraq ki, katib bəzi kəndlərdə əhalinin olmasına baxmayaraq, bu kənd üçün də ayrı-ayrılıqda deyil, ümumi vergi hesablamışdır. Araşdırdığımız dəftərdə katib bəzi kəndlərin "hasil" bölümündə vergilərin yekununu qeyd edərkən, onların miqdarını nisbətən artıq göstərmişdir. Məsələn, Səracu nahiyəsinin Səracu kəndinin "hasil"inin yekununu katib 17.000 ağça hesablamışdır. Halbuki həmin kəndin bütün vergiləri üst-üstə toplandıqda cəmi 16110 ağça etməli idi (14, s. 126). Bunun səbəbini belə izah etmək olar ki, bəzən kənddən hər hansı bir iş üçün daha cüzi vergi alınaraq, digər vergilərin üstünə gəlinmiş, lakin "hasil" bölümündə həmin verginin adını qeyd etmək vacib görülməmişdir. Yeri gəlmişkən bir məqamı da nəzərə çatdıraq ki, katib müfəssəl dəftərdə Marağa livasının Benacu nahiyəsində Bircəabad kəndinin yekununu yazmağı unutmuşdur (14, s. 42). Bütün yuxarıda deyilənlər nəzərə alınaraq, müfəssəl dəftərdə mövcud olan yekunlar hesablanmış və aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 3.36**

Marağa livası üzrə nahiyələrdən
əldə edilən yekunların miqdarı (*ağça ilə*)

| **Nahiyələr** | **Yekun** | |
|---|---|---|
| Marağa şəhəri | 145.100 | 6,34% |
| Benacu | 564.450 | 24,65% |
| Səracu | 750.200 | 32,76% |
| Bukan | 85.550 | 3,74% |
| Gavdul | 340.230 | 14,86% |
| Miyandoab | 29.100 | 1,27% |
| Əcri | 178.000 | 7,77% |
| Leylan | 115.980 | 5,06% |
| Əkərtu | 81.550 | 3,56% |
| *Yekun* | **2.290.160** | |

**Cədvəl 3.37**

Soyuqbulaq livası üzrə nahiyələrdən
əldə edilən yekunların miqdarı (*ağça ilə*)

| **Nahiyələr** | **Yekun** | |
|---|---|---|
| Soyuqbulaq qəsəbəsi | 101.000 | 5,06% |
| Şəhr-i viran | 248.400 | 12,44% |
| Dəryaz | 201.800 | 10,11% |
| Yıltimur | 182.200 | 9,13% |
| Gilas | 224.200 | 11,23% |
| Mirabad | 40.900 | 2,05% |
| Tərkeş | 59.800 | 2,99% |
| Telyuş | 23.400 | 1,17% |
| Alan | 20.000 | 1,01% |
| Turcan | 178.000 | 8,91% |
| Axtaçı | 158.000 | 7,91% |

**Cədvəl 3.37-nin ardı**

| | | |
|---|---|---|
| Suldus | 169.500 | 8,49% |
| Lacan | 263.400 | 13,19% |
| Qıpçaq | 125.750 | 6,29% |
| *Yekun* | **1.996.350** | |

Beləliklə, "*Dəftər-i müfəssəl-i liva-i Marağa*"ın zəngin məlumatları üzərində apardığımız araşdırmaların nəticələrinə əsaslanaraq deyə bilərik ki, bəzi yerlərində silahlı müqavimətə, qızğın hərbi əməliyyatların nəticələrinin yaratdığı həyati çətinliklərə, köç-yerdəyişmə proseslərinə və əsrlər boyu davam etmiş təriqət barışmazlığına baxmayaraq, Osmanlı idarəçiliyi dönəmində çox əlverişli təbii-coğrafi mövqeyə malik olan Marağa və Soyuqbulaq livalarının tərkibinə daxil olan nahiyələrdəki kəndlərin əksəriyyəti məskun yaşayış məntəqələri olmuş, əhali Səfəvi hakimiyyəti dönəmində olduğu kimi, özünün ənənəvi təsərrüfat sahələrində məşğul olmağa davam etmişdir. Belə ki, bu dövrdə dəftərin məlumatlarına əsasən həmin livalarda ümumilikdə 824 məskun və 117 qeyri-məskun kəndin qeydə alındığını görürük. Bu kəndlərdə 2.919 nəfəri çift, 137 nəfəri nim çift, 4.079 nəfəri bennak, 1.628 nəfəri caba və 1.031 nəfəri mücərrəd olmaqla, cəmi 9.774 nəfər müsəlman/türk vergi mükəlləfi yaşamışdır. Bundan başqa, burada ispəncə vergisi ödəyən 327 nəfər qeyri-müsəlman da qeydə alınmışdır. Əhali Marağa livası üzrə 8.729 ha, Soyuqbulaq livası üzrə isə 12.183,5 ha olmaqla, cəmi 20.912,5 ha torpaq sahəsində təssərrüfat fəaliyyəti göstərmişdir. Livaların həm kənd təsərrüfatı sahəsində, həm də başqa təsərrüfat sahələrində çalışan əhalisinin ödədiyi vergilər, eləcə də qeyri-istehsal qaynaqlarından əldə olunan gəlirlər hesabına Osmanlı xəzinəsinə ümumilikdə ildə 4.286.610

ağça vergi ödənmişdir ki, bu da dönəmin ən yüksək göstəricilərindən biri olmuşdur.

Burada diqqətçəkən bir məsələni də xüsusi olaraq qeyd etməyi lazım bilirik. Belə ki, Osmanlı hakimiyyəti dönəmində Marağa və Soyuqbulaq livalarında başqa bölgələrlə müqayisədə istər əkinçilik və bağçılıq, istərsə də sənətkarlıq və xidmət sahələri daha çox fəaliyyət istiqamətini əhatə etmişdir ki, bu da əhalinin məşğulluğu baxımından böyük önəm daşıyırdı.

# NƏTİCƏ

Monoqrafiya üzərində işin yerinə yetirilməsi prosesində geniş mənbə bazası, xüsusilə Osmanlı arxiv sənədləri cəlb edilməklə XVIII əsrin 20-ci illərində, yəni Osmanlı hakimiyyəti dövründə Azərbaycanın tarixi əraziləri olan Marağa və Soyuqbulaq bölgələrinin sosial-iqtisadi vəziyyəti, o cümlədən şəhər həyatı və kənd təsərrüfatının inkişaf səviyyəsi, əhalinin dini və etnik tərkibi, demoqrafik durumu, həmçinin qismən bölgənin toponimikası və onomastikası ilk dəfə olaraq kompleks şəkildə tədqiq edilmişdir. Əsər qeyd edilən sahədə Azərbaycan şərqşünaslığı və tarixşünaslığında mövcud olan boşluğu xeyli dərəcədə doldurur və əldə edilən nəticələr digər bölgələrə aid analoji tədqiqatlarla birlikdə, ümumiyyətlə, araşdırılan dövrdə Azərbaycanın sosial-iqtisadi tarixinin, tarixi coğrafiyasının və etnik-dini xəritəsinin daha dolğun mənzərəsini yaratmağa imkan verir.

Tədqiqat zamanı Osmanlı tarixi sənədlərinin, xüsusilə vergi reyestrlərinin (və ya "*müfəssəl dəftərlərin*") Azərbaycanın Orta əsrlər sosial-iqtisadi tarixinə dair ən informativ, mötəbər və önəmli mənbələr qrupundan birini təşkil etdiyi bir daha təsdiq edilmişdir.

Osmanlı, fars, ərəb, rus və Qərb dillərində qələmə alınmış müxtəlif tipli sənədli və narrativ tarixi qaynaqların tədqiqata cəlb edilməsi qeyd edilən dövrdə Səfəvi dövlətinin tənəzzül tarixini, onun süquta uğramasının səbəblərini, Osmanlı-Səfəvi-Rusiya münasibətlərinin mühüm siyasi, diplomatik və hərbi aspektlərini, 1720-ci illərin əvvəllərində Ru-

siya və Osmanlı imperiyalarının hərbi əməliyyatları nəticəsində Azərbaycanın tarixi torpaqlarının bu dövlətlərin hakimiyyəti altına keçməsi kimi önəmli məsələlərin fərqli aspektlərdən işıqlandırılmasını, eləcə də həmin məsələlərə dair bəzi yeni mülahizələrin irəli sürülməsini mümkün etmişdir.

Azərbaycan ərazilərinin daha böyük hissəsini ələ keçirmiş Osmanlı imperiyasının fəth qaydalarına uyğun olaraq Marağa və Soyuqbulaqda vergi mükəlləfiyyəti daşıyan əhalinin və vergiyə cəlb olunan bütün obyektlərin ümumi siyahıyaalınması (*təhrir*) işləri aparılmış, bunun nəticəsində müvafiq reyestr və ya "*müfəssəl dəftər*" adlanan dövlət sənədi tərtib edilmişdir. Marağa və Soyuqbulaqda Osmanlı maliyyə və vergi məmurları tərəfindən aparılan siyahıyaalma işlərinin nəticəsi öz əksini "*Dəftər-i müfəssəl-i liva-i Marağa*" adlı reyestrdə tapmış və araşdırmalarımız bu sənədin 1725-1728-ci illər arasında tərtib edildiyi fikrini irəli sürməyə imkan vermişdir.

Müfəssəl dəftərin məlumatlarına görə, Marağa və Soyuqbulaq bölgələrində osmanlılar tərəfindən yeni inzibati-ərazi bölgüsünün aparıldığı, hər iki bölgənin "liva" statusu aldığı müəyyən edilmişdir. Yeni inzibati-ərazi quruluşuna əsasən Marağa livası səkkiz – Benacu, Səracu, Bukan, Gavdul, Miyandoab (Qoşaçay), Əcri, Leylan və Əkərtu; Soyuqbulaq livası isə on üç – Şəhri-viran, Dəryaz, Yıltimur, Gilas, Mirabad, Tərkeş, Telyuş, Alan, Turcan, Axtaçı, Suldus, Lacan, Qıpçaq nahiyələrinə ayrılmışdır.

Ümumiyyətlə, qeyd edilən dövrə aid Osmanlı vergi dəftərlərinin və digər arxiv sənədlərinin tədqiqi belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, Azərbaycanın Səfəvi dönəmində mövcud olmuş inzibati-ərazi bölgüsündə Osmanlı hakimiyyəti tərəfindən o qədər də ciddi dəyişikliklər edilməmişdir. Belə ki, yeni hakimiyyət yerli əhalinin narazılığına

səbəb ola biləcək qaydaların tətbiqindən çəkinərək, bir sıra hallarda Səfəvi dövründən qalma qaydaları cüzi dəyişikliklərlə saxlamağa üstünlük vermişdir. Bu vəziyyət Səfəvi və Osmanlı idarə sistemləri arasında müəyyən dərəcədə eyni və ya bənzər cəhətlərlə izah edilir. Lakin bunu da etiraf etmək lazımdır ki, onların arasında ciddi fərqliliklər də mövcud olmuşdur. Məsələn, hər iki dövlətin inzibati-idarə sistemini nəzərdən keçirərkən məlum olur ki, Səfəvi dövlətində bəylərbəyiliklər mahallara, mahallar nahiyələrə, nahiyələr isə kəndlərə bölünürdü. Osmanlı inzibati-ərazi bölgü sistemində isə ən böyük inzibati-ərazi vahidi əyalət/vilayət idi. O, öz növbəsində, sancaq/liva və nahiyələrə bölünürdü.

Tədqiqat prosesində, fərqli tarixi qaynaqlara, o cümlədən Osmanlı təhrir dəftərlərinə əsaslanaraq müəyyən olunmuşdur ki, XVIII əsrin 20-ci illərində Marağada əhalinin 92,4%-ni türk/müsəlman, 3,8%-ni erməni, 3,7%-ni isə yəhudilər təşkil etmişdir. Tarixi Soyuqbulaq şəhəri isə XVI əsrin əvvəllərində – I Şah Abbas dönəmində hərbi məntəqə kimi yaradılmış və uzun illər boyu burada Azərbaycan türkləri yaşamışdır. Onu da qeyd edək ki, müfəssəl dəftərin məlumatlarına görə Osmanlı hakimiyyəti dövründə Soyuqbulaq qəsəbəsinin əhalisinin 87,7%-i türk/müsəlman, 12,3%-i isə yəhudi olmuşdur. Qeyd etmək lazımdır ki, Soyuqbulaq 1935-ci ildə baş vermiş böyük təbii fəlakət – daşqın nəticəsində dağılmış sonra isə o, yenidən inşa edilmiş və "Mahabad" adlandırılmışdır.

Marağa və Soyuqbulaq ticarət yolunun üzərində yerləşdiyi üçün burada gömrük məntəqələri mövcud olmuşdur. Həmin gömrük məntəqələrindən xəzinəyə Marağada 600.000 ağça, Soyuqbulaqda 60.000 ağça vəsait ödənmişdir. Maliyyə vergi-reyestrinin məlumatlarına əsasən, Marağada sənaye istehsal müəssisələri – dəri məmulatı, sabun istehsal

edən emalatxanalar, tütün emalatxanası, boyaxana, qəssabxanaların olması təsbit edilmişdir. Bundan əlavə, əlverişli coğrafi mövqeyə malik olan Marağada yerli əhali tərəfindən dənli, texniki bitkilər, meyvə və bostan bitkiləri yetişdirilmiş, idxal və ixracı həyata keçirilmişdir. Burada meyvə bağlarının çoxluğuna görə əhali arıçılıqla da məşğul olmuş, bunun müqabilində dövlətə pətək vergisi ödəmişdir.

Soyuqbulaq qəsəbəsində əhalinin məşğul olduğu dəri məmulatı, boyaxana, tütün və qəssabxana kimi istehsal müəssisələri mövcud olmuşdur. Maliyyə-vergi reyestrinin məlumatına görə, Soyuqbulaqda gəlir gətirən mənbələrdən biri də Şeyx Həmzə bazarı idi. Soyuqbulaq şəhər əhalisinin sənətkarlıq və ticarətlə yanaşı, meyvəçilik, bostançılıq və heyvandarlıqla da məşğul olduğu aşkarlanmışdır.

Osmanlı hakimiyyəti illərində Marağa və Soyuqbulaqda torpaq mülkiyyəti formalarına müəyyən yeniliklər edilmiş, gəlir gətirən torpaqların əksər hissəsi, daha doğrusu, onlardan alınan vergilər dövlətin adından "*dirlik*" şəklində hərbi-inzibati xidmətin qarşılığında Osmanlı hərbi təbəqəsinin nümayəndələri, əsasən də, sipahilər arasında bölüşdürülmüşdür. Bu "*dirlik*"lər ənənəvi olaraq sipahilərin rütbə və statusuna uyğun şəkildə "*xass*", "*zeamət*" və "*timar*" formasında olmuşdur.

Vergi praktikasına gəldikdə isə, Səfəvi dövründən fərqli olaraq, osmanlıların tətbiq etdikləri diferensasiya olunmuş vergi dərəcələri və onların alınma üsulları daha sistemli olmuş, kənd təsərrüfatı, sənətkarlıq və ticarətin inkişafına daha əlverişli şərait yaratmışdır. Osmanlı idarə sistemi və vergi praktikası sonuncu Səfəvi şahı Sultan Hüseynin ölkədə tətbiq etdiyi ağır və dağıdıcı vergi siyasətindən sonra xüsusilə kəndlilərin və şəhər əhalisinin istehsal fəaliyyətləri üçün da-

ha geniş imkanlar açmışdır. Osmanlıların sosial-iqtisadi sahədə atdığı addımlar, təbii olaraq, bölgələrin işğalı nəticəsində dağıdılmış təsərrüfatların bərpasına, həmin ərazilərdə ictimai və iqtisadi həyatın, eləcə də etnodemoqrafik vəziyyətin sabitləşməsinə yol açmışdır.

Osmanşünaslıq elmində qəbul olunmuş prinsiplərə əsasən, hesabladıqda bölgələrdə ümumilikdə 44.846 nəfər türk-müsəlman əhalinin yaşadığı müəyyən edilmişdir. Bundan başqa, burada ispəncə vergisi ödəyən 327 nəfər qeyri-müsəlmanın qeydə alındığını da diqqətə çatdırmağı lazım bilirik.

Nəzərə çatdıraq ki, Azərbaycanda köçəri maldarlıq mövcud olmuş və tədqiq etdiyimiz bölgələrdə bu yaşam tərzi geniş yayılmışdır. Həmin köçəri tayfaların həyatı və onların adları haqqında ayrıca məlumat verilməsə də, bu əhalidən yığılan yaylaq-qışlaq vergisi və onun gəlirləri maliyyə vergi-reyestrində öz əksini tapmışdır.

Araşdırmalarımız nəticəsində bu da müəyyən olunmuşdur ki, dəftərdə adları qeyd olunmuş vergi ödəyicilərinin böyük əksəriyyəti ənənəvi müsəlman adları daşımış, onların bir hissəsi türk adlarına sahib olmuşdur. Bunu həmin bölgələrə aid çoxlu sayda toponimlərlə bağlı da söyləmək mümkündür.

Apardığımız hesablamalara görə Marağa və Soyuqbulaq bölgələrində əhali kənd təsərrüfatı ilə məşğul olmuşdur. Burada dənli (buğda, arpa, darı, mərcimək, noxud və s.), texniki bitkilərlə (pambıq, gənəgərçək, kətan toxumu və s.) yanaşı, Marağa livasına daxil olan Gavdul nahiyəsində küncüt və şənbələ, Miyandoab nahiyəsində şənbələ bitkisinin əkildiyi, Soyuqbulaq livasının Turcan nahiyəsində isə paxla bitkisinin becərildiyi təsbit edilmişdir. Bununla birlikdə livalarda böyük həcmdə bağ və bostan bitkiləri yetişdirilmiş, dəftərin məlumatlarına görə, bir il ərzində Marağa livasında

əhali Soyuqbulaq livası ilə müqayisədə yığılmış bağ və bostan məhsullarına görə xəzinəyə daha çox vergi ödəmişdir.

Onu da qeyd edək ki, heyvandarlıq və maldarlıq bu bölgələrin təsərrüfat həyatında mühüm yer tuturdu. Belə ki, Marağa livasında 30.488, Soyuqbulaq livasında isə 54.016 baş xırdabuynuzlu heyvan saxlandığı, həmçinin gömrük müqətaası üzrə xəzinəyə Marağada 600.000 ağça, Soyuqbulaqda 60.000 ağça vəsait ödəndiyi müəyyən olunmuşdur.

Livaların istər kənd təsərrüfatı sahəsində, istərsə də başqa təsərrüfat sahələrində çalışan əhalisinin ödədiyi vergilər, eləcə də qeyri-istehsal qaynaqlarından əldə olunan gəlirlər hesabına Osmanlı xəzinəsinə ümumilikdə ildə 4.286.610 ağça vergi ödəndiyi təsbit edilmişdir ki, bu da dönəmin ən yüksək göstəricilərindən biri olmuşdur.

Əsərdə Marağa və Soyuqbulaq livalarının sosial-iqtisadi vəziyyəti ilə əlaqədar əldə edilmiş məlumatlar və hesablamalar ümumiləşdirilərək bunların əsasında müvafiq cədvəllər tərtib edilmiş, həmçinin Marağa və Soyuqbulaqın şəhər həyatı, əhalinin məşğul olduğu ayrı-ayrı təsərrüfat sahələri, ticarət, sənətkarlıq, gömrük xidməti və onlardan xəzinəyə toplanan vergilər barədə, eləcə də bölgə sakinlərinin dini-etnik tərkibi, ərazinin coğrafiyası və toponimiyası haqqında önəmli məlumatlar üzə çıxarılmışdır.

Beləliklə, "Dəftər-i müfəssəl-i liva-i Marağa"nın zəngin məlumatları üzərində aparılan araşdırmaların nəticələrinə əsaslanaraq deyə bilərik ki, bəzi yerlərində silahlı müqavimətə, qızğın hərbi əməliyyatların nəticələrinin yaratdığı həyati çətinliklərə, köç və yerdəyişmə proseslərinə və əsrlər boyu davam etmiş məzhəb ziddiyyətlərinə baxmayaraq, Osmanlı idarəçiliyi dönəmində çox əlverişli təbii-coğrafi mövqeyə malik olan Marağa və Soyuqbulaq livalarının tərkibinə

daxil olan nahiyələrdəki kəndlərin əksəriyyəti (88,5%) məskun yaşayış məntəqələri olmuş, əhali Səfəvi hakimiyyəti dövründə olduğu kimi, özünün ənənəvi təsərrüfat sahələrində məşğul olmağa davam etmişdir.

Tədqiq edilən mənbələrin məlumatlarından belə bir nəticəyə gəlmək olur ki, Səfəvi dövlətinin tənəzzülü, davamlı müharibələr, daxili çəkişmələr və köç hadisələri regionun demoqrafik vəziyyətinə müəyyən təsir göstərsə də, XVIII əsrin ilk rübündə adı çəkilən bölgələrdə türk-müsəlman əhalinin sayca üstünlüyü davam etmişdir.

Hesab edirik ki, monoqrafiyada qeyd olunan bölgələrə aid əldə edilmiş elmi nəticələr və statistik məlumatlar gələcəkdə tarix, tarixşünaslıq, mənbəşünaslıq, iqtisadiyyat, inzibatçılıq, din, demoqrafiya, toponimika, eləcə də türkologiya və dilçilik sahələri üzrə tədqiqatların aparılmasında əhəmiyyətli ola bilər.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## *Arxiv qaynaqları*


1. Dəftər-i müfəssəl-i əyalət-i Rəvan, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 633, 393 s.
2. Dəftər-i icmal əyalət-i Rəvan, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 681, 341 s.
3. Dəftər-i icmal əyalət-i Gəncə-Qarabağ, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 699, 289 s.
4. Dəftər-i müfəssəl-i əyalət-i Tiflis, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 897, 533 s.
5. Dəftər-i müfəssəl-i əyalət-i Tiflis, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 900, 1000 s.
6. Dəftər-i müfəssəl-i əyalət-i Rəvan, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 901, 583 s.
7. Dəftər-i müfəssəl-i liva-i Ərdəbil, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 902, 404s.
8. Dəftər-i müfəssəl-i əyalət-i Gəncə-Qarabağ, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 903, 632 s.
9. Dəftər-i müfəssəl-i liva-i Təbriz, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 904, 345 s.
10. Dəftər-i müfəssəl-i sancak-i Naxçıvan, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 905, 302 s.
11. Dəftər-i müfəssəl-i əyalət-i Həmədan, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 906
12. Dəftər-i müfəssəl-i əyalət-i Həmədan, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 907
13. Dəftər-i müfəssəl-i liva-i Təbriz, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 908, 326 s.
14. Dəftər-i müfəssəl-i liva-i Marağa, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 909, 528 s.

15. Dəftər-i müfəssəl-i liva-i Xalxal və liva-i Urumi, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 910, 409 s.
16. Dəftər-i müfəssəl-i liva-i Xoy, İstanbul Başbakanlık Osmanlı Arşivi, Tapu-təhrir dəftəri, № 911, 427 s.
17. İstanbul Başbakanlık Arşivi, Mühimmə dəftəri, № 130, hökm 360, 362, 392, 393
18. İstanbul Başbakanlık Arşivi, Mühimmə dəftəri, № 131, hökm 209, 215, 339
19. İstanbul Başbakanlık Arşivi, Mühimmə dəftəri, № 132, hökm 34, 145, 230, 237, 352, 388
20. İstanbul Başbakanlık Arşivi, Mühimmə dəftəri, № 141, hökm 61
21. İstanbul Başbakanlık Arşivi, Mühimmə dəftəri, № 142, hökm 10, 96, 161
22. İstanbul Başbakanlık Arşivi, Name-yi hümayun dəftəri № 7
23. İstanbul Başbakanlık Arşivi, Fərman Dosya No: 76, gömlek No: 4587 Fon kodu: C.ADL
24. İstanbul Başbakanlık Arşivi, Fərman Dosya No: 269, gömlek No: 16193, belge adedi 2

### *Azərbaycan dilində*

25. Albayraq R. Türklərin İranı-Yaxın gələcək. I c. Bakı: Mütərcim, 2016, 628 s.
26. Albayraq R. Türklərin İranı-Yaxın gələcək. II c. Bakı: Mütərcim, 2016, 628 s.
27. Azərbaycan tarixi: 7 cilddə, III c., Bakı: Elm, 2007, 592 s.
28. Azərbaycan tarixi uzaq keçmişdən 1870-ci illərə qədər. Bakı: Azərbaycan, 1996, 872 s.
29. Bakıxanov A.A. Gülüstani-İrəm (tərcümə edəni M.Əsgərli). Bakı: Minarə, 2000, 224 s.
30. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri (Azərbaycan dilinə çevirən akademik Z.M.Bünyadov və t.e.n. E.R.Ağayeva). Bakı: Elm, 1999, 160 s.

31. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.
32. Dadaşova R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: Nurlan, 2003, 393 s.
33. Dəlili H.Ə. XVIII-XIX əsrin əvvəllərində Azərbaycanda ticarət məhsulları üzərinə qoyulan müntəzəm vergilər haqqında // Azərbaycan SSR EA-nın məruzələri, 1975, XXXI c., № 5, s. 58-61
34. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 301 s.
35. Əliyev F.M. XVIII əsrin I yarısında Azərbaycanda ticarət. Bakı: Azərb.SSR EA nəşriyyatı, 1964, 123 s.
36. Əlizadə O.T. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. Bakı: Elm, 2009, 208 s.
37. Ərdəbil livasının müfəssəl dəftəri. Araşdırmanın, transliterasiyanın müəllifi E.Arıklı. Bakı: Nurlan, 2004, 857 s.
38. Fərzəliyev Ş. Azərbaycan Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1995, 200 s.
39. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Şuşa, 2000, 576 s.
40. Xıdırov C. Şərqin tarixi abidələri. Bakı: Adiloğlu, 2004, 370 s.
41. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifi Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 184 s.
42. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarix-e aləmaray-i Abbas-i) (fars dilindən çevirən: Ş.Fərzəliyev). Bakı: Şərq-Qərb, 2010, 2 cilddə, 1141 s.
43. Jozef Tiflisi. Vaqiəti-Mir Veys və Şah Hüseyn (“Mir Veys və Şah Hüseyn arasında baş verənlər”). Osmanlıcadan tərcümə edəni və ön sözün müəllifi Şahin Fazil. Bakı: Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi, 1992, 58 s.
44. Kruşinski T. Y. Xristian səyyahının tarixi (farscadan tərcümə edən və hazırlayan: Şahin Fazil). Bakı: Azərnəşr, 1993, 105 s.

45. Qarayev E. T. Azərbaycan XVIII əsr rus və Qərbi Avropa səyyahlarının təsvirində, Bakı: ADPU, 2005, 160 s.
46. Qarayev E.T. F.İ.Soymonovun "Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: ADPU, 2006, 142 s.
47. Lori icmal dəftəri. Ön söz, mətnin tərtibi, tərcümə və qeydlərin müəllifi t.e.n. Ş.Mustafayev. Bakı: Nurlan, 2004, 87 s.
48. Mustafayev Ş.M. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etnosiyasi proseslər. Bakı: Elm, 2010, 332 s.
49. Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
50. Naxçıvan sancağının müfəssəl dəftəri. Araşdırma, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Tərcümə edənlər: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 2001, 376 s.
51. Onullahi S.M. Təbriz şəhəri XII-XVII əsrlərdə (sosial-iqtisadi tarix). Bakı: Elm, 1982, 284 s.
52. Orta əsrlər Azərbaycan tarixinə aid ərəb mənbələrindən seçmələr. Tərcümə, qeyd və şərhlərin yazılması və tərtibi: t.ü.f.d. N.Bayramlı. Bakı: AFpoliqrAF, 2016, 168 s.
53. Osmanlı sənədlərində Qarabağ. Azərbaycan dilinə tərcümə edən: Telli Qorxmaz. Bakı: Şərq-Qərb, 2011, 616 s.
54. Pyer Davit. Dünya və ya onun dörd tərəfinin ümumi təsviri; Kornel Lö Brən. Moskoviya, İran və Şərqi Hind Adalarına səyahət (iqtibaslar). Bakı: Nurlan, 2006, 89+29 s.
55. Süleymanova S. XVIII əsrdə Osmanlı-Səfəvi qarşıdurması şəraitində Azərbaycan tarixinə dair məsələlərin ərəbdilli yerli mənbələrdə işıqlandırılması // Orta əsrlər Şərqi (məcmuə). Bakı: 2000, s.139-157
56. Şardən J. C-b kovaler Şardənin Səfəvilərə və Şərqin digər yerlərinə səyahətləri "Parisdən İsfahana səyahət" Amsterdam 1711. Fransız dilindən tərcümə edən: AMEA Tarix İnstitutunun dissertantı V.Aslanov. Bakı: Elm, 1994, 96 s.

57. Tahirzadə Ə. Azərbaycan imperatorları: Nadir şah Əfşar (tərcümeyi-hal oçerki). Bakı: ikinci nəşr, Çıraq, 2005, 40 s.
58. Tiflis əyalətinin müfəssəl dəftəri (Qazax və Borçalı). Giriş, tərcümə və qeydlərin müəllifi Ş.Mustafayev. Bakı: Pedaqogika, 2001, 256 s.
59. Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri), ingilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü O.Əfəndiyevindir. Bakı: Təhsil, 2005, 112 s.
60. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı: Elm və Təhsil, 2016, 480 s.

### *Türk dilində*

61. Aydın Sancağının tapu tahrir defteri. T.T.0008 Numaralı Tapu Tahrir Defteri'nin Transiksipyonu ve tahlili. Hazırlayan Hamza Sarıkaya. T.C.Adnan Menderes Universitesi Sosyal Bilimler Enstitüsü Tarih Ana bilim dalı TAR-YL-2014-0006, Aydın: 2014, 158 s.
62. Ayntab livası mufassal defteri. 373 numaralı Ayntab livası mufassal defteri (950/1543). C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi daire Başkanlığı Yayın Nu: 64. Defter-i Hakani Dizisi V (Dizin, transkripsiyon ve Tıpkıbasım), Ankara: 2000, 95 s.
63. Barkan Ö.L. Tarihi demoqrafi araştırmaları ve Osmanlı tarihi. Türkiyat mecmuesi, cilt 10, İ:1953, s. 1-26
64. Barkan Ö.L. Timar, İslam Ansiklopedisi, cilt 13, s. 286-333
65. Bilge Sadık Müfit. Osmanlı Çağında Kafkasya 1454-1829 (Tarih-Toplum-Ekonomi. İstanbul: Kitabevi, 2015, 738 s.
66. Bilgili A.S. Osmanlı, İran ve Azerbaycan – I. (16.ve 18. yüzyıllar sosyal ve ekonomik tarihi). Erzurum: Zafer matbaası, 2004, 300 s.
67. Cavadbeyli R. Kürtlerin kökeni ve Mahabat cumhuriyyeti gerçeyi (bir kitabdan daha çok fazlası). Ankara: Birinci basım, Gece kitapliği, 2016, 344 s.

68. Cin H., Akyılmaz S.G. Tarihte toplum ve yönetim tarzı olarak feodalite ve Osmanlı düzeni. K: Selcuk Üniversitesi Basım evi, 1995, 429 s.
69. Defter-i mufassal liva-i Sivas. H.982 (M.1574/1575) tarihli ve TKG.KK.TTd.178 numaralı Defter-i Mufassal-ı Liva-i Sivas. Tıpkıbasım. T.C. Çevre ve Şehircilik Bakanlığı Tapu ve Kadastro Genel Müdürlüğü Arşiv dairesi Başkanlığı Yayın No:9, Ankara: 2014, 310 s.
70. Evliya Çelebi Seyahetnamesi. II cild, Tab'ı:Ahmed Cevdet. İlk tab'ı. Dersaadet [İstanbul] : İkdam matbaası, 1314 (1896-97), 496 s.
71. Elçilik katibinin kaleminden Safaviler Oruç bey (Don Juan) (1560-1604) Çeviri Leyla Aksüt Kuzucular. Yurt kitap – yayın, Ankara: 2014, 318 s.
72. Güçer L. XVI-XVII asırlarda Osmanlı İmperatorluğunda hububat meselesi ve hububatttan alınan vergiler. İstanbul: Sermet matbaası, 1964, IV+231 s.
73. Halacoğlu Y. XIV-XVIII yüzyıllarda Osmanlılarda devlet teşkilatı ve sosyal yapı. Ankara: TTK Basımevi, 1998, 258 s.
74. Hammer. İ.P. Osmanlı tarihi. c. 2 (çeviren Mehmet Ata, bugünkü dile özetleyerek yeniden yapan Prof. Dr.Abdülkadir Karahan). İstanbul: Üçdal neşriyatı, 1991, 534 s.
75. İnalcık H. Devleti Aliyye Osmanlı İmparatorluğu üzerine araştırmalar, Klassik dönem (1302-1606): siyasal, kurumsal ve ekonomik gelişim. Türkiye İş Bankası Kültür Yayınları, İstanbul: 2009, 377 s.
76. İnalcık H. Osmanlılarda raiyyet rüsumu. Belleten, cilt XXIII, № 92
77. İslam Ansiklopedisi, c.7, İstanbul: Milli Egitim Basım evi, 1988, s. 732-738
78. Katib Çelebi. Cihannüma. İ: Matbaa-i Amire, 1145, 725 s.
79. Kerkük livası mufassal defteri. 111 numaralı Kerkük livası mufassal tahrir defteri (Kanuni Devri). T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi daire

Başkanlığı Yayın Nu: 64. Defter-i Hakani Dizisi VIII (Dizin, transkripsiyon ve Tıpkıbasım), Ankara: 2003, 134 s.
80. Mustafa Naima. Tarih-i Naima. Htpss://archive.Org/details/tzkhtrkhto/naim oft.Naima.
81. Pakalin M.Z. Osmanlı tarih deyimleri ve terimleri sözlüğü. İstanbul: c 1. Milli Eğitim Basımevi, 1983, 873 s.
82. Saray M. Türk-İran münasebetlerinde şiiliğin rolü. Ankara: TTK Basımevi, 1976, 237 s.
83. Sefaretnamey-i Dürri efendi. "Tarih-i Raşid", cilt 5, İstanbul: Mtbaa-i Amire, 1282, s. 379-401
84. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolu. Ankara: TTK Basımevi, 1976, 237 s.
85. Şam livası mufassal defteri. 401 numaralı Şam Livası mufassal tahrir defteri (942/1535) I. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi daire Başkanlığı Yayın Nu: 118. Defter-i Hakani Dizisi XVII (Dizin, transkripsiyon ve Tıpkıbasım), Ankara: 2011, 1140 s.
86. Şemdenizade Fındıklı Süleyman Efendi Tarihi. Mür'i't – Tevarih. I (Prof. Dr. M.Münir Aktepe). İstanbul: Edebiyat Fakültesi Matbaası, 1976, 205 s.
87. Tarih-i Küçükçelebizade Asım. İstanbul: Matbaa-i Amire, 1282, 654 s.
88. Tavernier J.B. XVII asr Türkiye üzerinden İrana seyahet. Çeviren Ertuğrul Gültekin. İstanbul: Kervan kitabçılık Basın sanayi ve Ticaret A.Ş., 1980, 114 s.
89. Türkiye seyahatnameleri Serisi: 2 The opile deyrolle 1869-da Trabzondan Erzuruma. Türkçeye çeviren Reşad Ekrem Koç. İ: Çığır Kitap evi, 1938, 56+31s.
90. Uzunçarşılı İ.H. Osmanlı tarihi, Karlofça anlaşmasından XVIII yüzyılın sonlarına kadar. C.4.A: TTK Basımevi, 1988, XXIII+687 s.

## *Rus dilində*

91. Абдуллаев Г.Б. Из истории Северо-восточного Азербайджана в 60-80-х гг. XVIII века. Баку: Изд-во Акад. Наук Азерб. ССР, 1958, 211с.
92. Абдуррахманов А. Азербайджан во взаимоотношениях Турции, Росии и Ирана в первой половине XVIII в. Б: издательство АН Азерб. ССР, 1964, 99 с.
93. Алиев Ф.М. Антииранское выступления и борьба против Турецкой оккупации и первой половине XVIII в. Б: Элм, 1975, 230 с.
94. Алиев Ф.М. Миссия посланника русского государство А.П.Волынского в Азербайджане (1716-1718 гг.). Б: Элм, 1979, 122 с.
95. Ализаде А.А. Социально-экономическая история Азербайджана XIII- XIV вв. Б: 1956, 420 с.
96. Армянская анонимная хроника 1722-1736 гг. (перевод с турецкого и примечания Буниятова З.М.). Б: Элм, 1988, 64 с.
97. Арунова М.Р., Ашрафян К.З. Государство Надир-шаха Афшара. М: издательство Восточной литературы, 1958, 284 с.
98. Ашурбейли С. История города Баку. Б: Азернешр, 1992, 402 с.
99. Бартольд В.В. Работы по исторической географии и истории Ирана // Сочнения в 9 томах. VII том. М: Наука, 1971, 663 с.
100. Бидлиси Шараф-хан. Шараф-наме. Том I, перевод, предисловие, примечания и приложения Е.И.Васильевой. Москва: Издательство «Наука» Главная редакция Восточной литературы. 1967, 620 с.
101. Буниятов З.М. Государство Хорезмшахов-Ануштегинидов (1097-1231), Москва: Наука,1986, 248 с.
102. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 гг. 3 тома, I том, Спб.: 548 с.

103. Гейдаров М.Х. Города и ремесленное производство Азербайджана XIII-XVII веков. Ремесло и ремессленные центры. Б: Элм, 1982, 281 с.
104. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку: Изд. АН АССР, 1967, 200 с.
105. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XVII в. Баку: Элм, 1987, 212 с.
106. Гейдаров М.Х. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Б: Элм, 1999, 167 с.
107. Гезалова Н. Вопросы истории Азербайджана XVIII в. (на основе англоязычных источников и историографии). Москва: ИРИС груп, 2010, 244 с.
108. Джалалян Е.Х. Краткая история страны Албанской (1702-1722 гг.) Перевод с деревнеарм. языка Т.И.Тер-Григоряна. Предисловия и подготовка к изданию академика З.М.Буниятова. Б:Элм, 1989, 48 с.
109. Зевакин Е. Азербайджан в начале XVIII в. (Журнал посланника Волынского 1715-1718 гг.) Б: изд-во общества обследования и изучения Азербайджана, № 8, 1929, 31 с.
110. Иванов М.С. Очерк истории Ирана. Москва: Госполитиздат, 1952, 468 с.
111. История Ирана с деревнейших времен до конца XVIII в. (под ред. Пигулевская Н.В. и др.) Л: изд-во ЛГУ, 1958, 390 с.
112. Керимов Г.М. Шариат и его социальная сущность. М: Наука, 1978, 223 с.
113. Корнеиль де Бруин. «Извличение из путишествие Корнеиля де Бруина» (перев. с франц. Абезгуза) Архив ИИ НАНА, инв. № 481
114. Левиатов В.Н. Очерки из истории Азербайджана в ..в. Б: изд-во АН Азерб. ССР, 1948, 190 с.
115. Лопухин А.И. Журнал путешествие через Дагестан, 1718 г. В кн История, география и этнография Дагестана,

XVIII-XIX вв. (архивные материалы), Москва: Изд. восточной литературы, 1958, с. 6-58
116. Мейер М.С. Османская империя в XVIII в. Черты структорного кризиса. М: Наука, 1991, 261 с.
117. Меликов Р. Древнеперсидские надписи. Транслитерация, перевод, глоссарий. Баку: 2013, 448 с.
118. Мустафаев Ш.М. Восточная Анатолия: от Аккоюнлу к Османской империи. М: Восточная литература, 1994, 224 с.
119. Мустафаев Ш.М. Нахичеван в конце XVI в. (по данным османского «Пространного реестра вилайета Реван» от 1590 г.) // Transcaucasica, М: Издательство МБА, 2016, с. 44-61
120. Мустафазаде Т.Т. Азербайджан и русско-турецкие отношения в первой трети XVIII в. Б: Элм, 1993, 240 с.
121. Орешкова С.Ф. Русско-турецкие отношения в начале XVIII в. М: Наука, 1971, 202 с.
122. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XV начале XIX вв. Л: Изд-во ЛГУ, 1949, 182 с.
123. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке (1590-1700). Б: Элм, 1981, 238 с.
124. Эфендиев О.А. Азербайджанское государство Сефевидов. Баку: Элм, 1981, 307 с.

### *İngilis dilində*

125. Essays, speeches and Memoires of Field-Marshal Count Helmuth von Moltke. The Eastern question – The country and poeple of the Kurds. Harper & Brothers, Franklyn square, 1893, 328 p.
126. İnalcık H. Essays on Ottoman and Turkish Social history. İstanbul: 1995, 437p.
127. Lockhart L. The fall of Safavi dynasty and the afgan occupation of Persia. Cambridge: 1958. 313 p.

128. Minorsky V. Kurdistan, kurds: A Dictionary of the Geography, Etnography and Biography of the Muhammadan Peoples: Encyclopedia of Islam, First Edition, Vol.2, Luzaks, London: 1927, pp.1132-1134
129. Quataert D. The Ottoman Empire (1700-1922). Cambridge: 2005, 237 p.
130. Tadhkirat al-muluk. A manual of Safavid administration circa 1137-1725) / Persian text in facsimile. Translated and explained by V.Minorsky. London: 1943, XII+218 p.+130 p.

### *Ərəb dilində*

131. Yaği İsmayıl Əhməd. Əd-douvlə əl-Osmaniyyə fi-t-tarix il-islamiyyi il-hədis, ər-Riyad: Məktəbət əl-Abeykan, 1998, 328 s.

### *Fars dilində*

132. Cəfəriyan R. Səfəviyyə əz zühur ta zaval. Tehran: Kanun Əndişe cavan, 1387, 472 s.
133. İskənder bəy Münşi (Türkman). Tarix-i aləm aray-i Abbasi. Cild-e əvvəl. Tehran: 1392, 607 s.
134. İskəndər bəy Münşi (Türkman). Tarix-i aləm aray-i Abbasi. Cild-e dovvom. Tehran: 1392, 609 s.
135. Qurbannejad Parisa, Səlimnema Rübabə. Ketabşenasi tousifi tarix-e Azeərbaycan-e ğərbi. Urmiya: 1392, 187 s.
136. Lüğatname-ye Dehxoda: 15 cilddə, 12-ci cild. Tehran: 1993-94, 18586 s.
137. Məarif-e şehirhay-i əz Azərbaycan. Təlif-Pərviz Yekanizare (Elyar). Təbriz: Əxtər, 1384, 240 s.
138. Moin Dr. Muhəmməd. Fərhəng-i farsi. Cilde dovvom, Tehran: Müəssisey-i intişarat Əmir Kəbir, 1371, 2774 s.
139. Pənahiyan jeneral Dr. Mahmud (Təbrizi). Fərhəng-i coğrafiya-i melli Türkan İran zəmin. Cild-e sevvom, 1351, 349 s.

140. Salnamey-i ferheng-i Mahabad. Çapxaney-i Şəfəq, 1333, 245 s.
141. Səmədi Seyid Muhamməd, “Tarix-e Mahabad”, Mahabad: İntişarat Rahru, 1377, 542 s.
142. Sepəhrəvənd Məcid. Marağa dər seyri tarix. Təbriz: İntişarat əhrar Təbriz, 1381, 360 s.
143. Sistani İrəc Əfşar. Neqahi be Aqzerbaycan-e Şərqi: 2 cilddə, II c.,Tehran: Rayzan, 1369, 280 s.
144. Vəfayi Zəhra. Soyuqbulaq nam-e fəramuş şod. // Vijenamey-i Ğərb-i Azərbaycan dər tarix-e müasir. Siyasi, fərhəngi, iqtisadi, ictimai və xəbər-i türki-farsi. Urmiya: Çənlibel nəşriyye-i müstəqil. 1383. Sal-e əvvəl, şumaray-e sevvom. 35-37 s.
145. Zendedel Həsən və dəstiyaran. 28 cilddə. Ostan-e Azərbaycan-e Şərqi. I c., Tehran: Nəşr-i irangərdan, 1376 (1997), 276 s.
146. Zendedel Həsən və dəstiyaran. 28 cilddə. Ostan-e Azərbaycan-e Ğərbi. II c., Tehran: Nəşr-i irangərdan, 1376 (1997), 244 s.

## COĞRAFİ ADLAR


**A**

Adilcəvaz 59
Afan 136
Afrika 73
Ağdağ 54
Ağstafa 16
Axtaçı 7, 56, 59, 90-91, 93, 95-98, 101, 103, 109, 112, 115, 120, 122, 125, 128, 130-131, 133-134, 137, 141, 145, 149
Alan 7, 56, 91, 93, 95-96, 98, 101, 103, 109, 112,115, 120, 122, 125, 128, 130, 131, 133-134, 137, 141, 145, 149
Anadolu 10, 59
Aralıq dənizi 4
Araz çayı 35, 37, 41-42
Arpaçay 42
Asiya 21, 29, 72
Astara 25, 73
Astrabad 25, 46
Avrasiya 12
Avropa 6, 20-21, 30, 32, 61, 72-73
Avstriya 31-32
Aydın 8
Aydoğmuş 54
Ayntab 8
Azərbaycan 4-6, 8, 10-15, 17, 19-20, 22-27, 30, 33, 34, 36, 38-41, 43-44, 46, 48, 50, 54-66, 68, 71-74, 78, 80, 87, 106, 125-126, 148, 152

**B**

Bağdad 10, 30, 33, 37, 40, 42, 76
Bakı 4, 23-24, 26-29, 33, 35, 43, 72-73

Banə 56
Benacu 7, 56, 88-90, 93-94, 96, 98, 100, 102, 104, 108, 111, 113-115, 119, 122, 124-125, 127, 129, 130-132, 134, 136, 138, 144-145, 149
Bərdə 17
Bəlucistan 71
Bəsrə 30
Bidlis 61
Bircəabad 144
Borçalı 4, 8
Bukan 7, 56, 90, 93-94, 96, 98, 100, 102, 104, 108, 111, 115, 119, 122, 124, 127, 129, 131-132, 134, 136, 138, 145, 149
Bursa 72

**C**
Culfa 68-69
Cığatu (Zərinərud) 42, 54, 57

**Ç**
Çıldır 30
Çin 4
Çors 35, 49, 76, 82
Çuxursəd 46, 60

**D**
Dağıstan 17, 27, 36
Dəclə 57
Dərbənd 4, 16, 23-26, 29, 33, 35, 39, 43, 73
Dərgüzn 31
Dəryaz 7, 56, 59, 90-91, 93, 95-96, 98, 101, 103, 109, 112-113, 115, 120, 122, 124, 127, 129-131, 133-136, 141, 145, 149
Dib-Hərəkan 42
Dimdim 42
Dizaq 18
Dizəcrud 55
Dizmar 55
Dol 59

**E**
Ermənistan 69
Eysəri 60

**Ə**
Əbhər 73
Əhər 22
Əcri 7, 56, 90, 93-94, 96, 9, 101-102, 104, 108, 111, 115, 119, 122, 124, 127, 129, 131-132, 134, 136, 138, 145, 149
Əfqanıstan 61
Əkərtu 7, 55-56, 90, 93-94, 96, 98, 101-102, 104, 108, 111, 115, 117, 119, 122, 124, 127, 129, 131-132, 134, 136, 138, 145, 149
Ələşkərt 59
Əlik 55
Ənzəli 25, 28, 38
Ərciş 59
Ərdəbil 4, 37-38, 40, 46, 49, 73, 76, 84, 99, 116
Ərdalan 34, 40, 60, 76
Ərəş 72-73, 116
Ərzurum 30, 69, 73

**F**
Fars 46, 58, 60
Fars körfəzi 4, 21, 29, 32
Fərhan 41
Farnsa 32, 34
Fuz 25

**G**
Gavdul 7, 55-56, 90, 93-94, 96, 98-100, 102, 104, 108, 110-111, 113, 115-116, 119, 122-124, 127, 129, 131-132, 134, 136, 138, 144-145, 149, 152
Gəncə 4, 16-18, 26, 35, 37-38, 42, 46, 49-50, 66, 72-73, 75, 99, 105, 116

Gərmrud 50
Gilan 15, 20, 23, 26, 28, 45, 60, 69, 73, 76
Gilas 7, 56, 90-91, 93, 95-96, 103, 109, 112-113, 115-116, 120, 122-123, 128, 130, 131-134, 136, 141, 145, 149
Gözəlçə 54
Gülnabad 19
Gürcüstan 26, 35, 36

**H**
Hansar 39
Herat 46
Hələb 50, 73
Həmədan 4, 31, 35, 37, 40-41, 46, 50, 55, 76
Həsənabad 60
Həsənkeyf 61
Həştərxan 21, 23-25, 29, 32
Həştərud 50, 54-55
Hindistan 4, 29, 32, 73
Hollandiya 31, 72
Hubistan 84
Hüseynabad 56
Hürrəmabad 37
Hüveyzə 40

**X**
Xaçın 18
Xalxal 4, 8, 49, 73, 79
Xavə 60
Xəbuşan 60
Xəzər 4, 21, 23-30, 32, 34-38, 43
Xorasan 60
Xoy 4, 35, 63, 72
Xudat 17
Xuzistan 76
Xürrəmabad 60

**İ**
İngiltərə 31-33, 72
İraq 33-34, 37, 41, 54, 56, 59, 62
İran 20, 23-25, 28-29, 31-32, 36, 39, 56-58, 61-62, 72, 78, 121, 125
İrəvan 4, 8, 17-18, 20, 35, 38, 41-42, 48-49, 50, 68, 73
İsfahan 14, 18-19, 21-23, 25, 28-30, 33, 40-41, 43, 72-73, 76
İstanbul 7, 27, 33-35, 37, 41, 43, 53, 55, 73-74
İsveçrə 72
İtaliya 72
İzmir 73

**K**
Kazan 23
Kərkük 8
Kirman 46
Kirmanşah 31, 33, 35, 40-41, 55, 59
Krım 27
Kür 18, 20, 24-25, 28, 35
Kürəkbasar 16

**Q**
Qara dəniz 4, 21, 73
Qaraağac 54
Qarabağ 4, 14, 18, 26, 42, 46, 50, 72, 99, 105
Qaradağ 50
Qarakənd 134
Qars 30, 46
Qazax 4, 8
Qəbələ 16
Qəndəhar 18-19, 46
Qəsrik 56
Qəzvin 15, 32, 37-39, 46
Qıpçaq 7, 56, 90-91, 93, 95-96, 98, 101, 103-104, 109, 112, 115, 120, 122, 125, 128, 130-131, 133-134, 137, 141, 146, 149

Qızqayan 56
Qorin 35
Qum 37

**L**
Lacan 7, 56, 90-91, 93, 95-98, 101, 103-104, 109, 112-113, 115, 120, 122, 128, 130-131, 134, 137, 141, 146, 149
Leylan 7-8, 54-56, 90, 93-94, 96, 98-99, 101-102, 104, 108, 111, 115, 119, 122, 124-125, 127, 129, 131-134, 136, 138, 145, 149
Ləndişeyxan 56
Lənkəran 73
Lucca 72
Lur 60
Luristan 37, 40, 58, 76

**M**
Mahabad 54, 61, 150
Marağa 4-7, 9, 35, 38, 42, 44, 46, 49-50, 54-56, 60, 62-63, 66-67, 69-80, 82-86, 88-91, 94-96, 98-100, 102-104, 106-108, 110-111, 113, 115-119, 121-132, 134, 136-138, 144-153
Marsel 73
Məndilbaş 54
Mərənd 35, 63, 72-73, 75-76, 82, 116
Məşhəd 19, 46
Mirabad 7, 56, 90-91, 93, 95-96, 98, 101, 103, 109, 112, 115, 120, 122, 128, 130-134, 136, 141, 145, 149
Miyandoab (Qoşaçay) 7, 38, 42, 55-56, 63, 90, 93-94, 96, 98-99, 101-102, 104, 108, 110, 113, 115, 119, 122, 124, 127, 129, 131-132, 134, 136, 138, 145, 149, 152
Miyanə 54
Moreya 31
Mosul 30, 63, 73
Muğan 15, 18, 42, 72-73, 125
Mukri 55

**N**
Naxçıvan 4, 8-9, 35, 68-69, 72-73, 75, 114, 116
Neva 28
Nəhavənd 37
Niyazabad 21-24, 29

**O**
Ordubad 37, 55

**P**
Paris 25, 72
Peterburq 21, 23-24, 27, 29,-30, 33
Pələkan 60
Poti 74
Prut 21, 31

**R**
Redutqala 74
Rəşt 23, 28-29, 37
Rusiya 4, 6, 9, 11, 13-14, 20-25, 27-37, 43-44, 64, 72-73, 148

**S**
Saqqız 54, 56
Salmas 8, 35, 50
Saru-kurqan 55-56, 58
Salyan 24, 26
Səhənd dağı 54, 70
Səidabad 55
Sərab 76
Sərabad 82
Səracu 7, 55, 89-90, 93-94, 96, 98,100, 102, 104,108, 111, 113, 115-117, 119, 122, 124, 127-132, 134, 136, 138, 144-145, 149
Sərməstan 56

Siam 73
Siirt 61
Sinə 35
Sivas 8
Siyah-kuh 56
Sofiçay 54
Soyuqbulaq 4-7,9, 15, 38, 42, 44, 50, 54-58, 60-63, 76, 80-86, 89-90, 93, 95-96, 98-104, 106-107, 109-110, 112-113, 115-118,120, 122-124, 126-137, 141, 145-153
Suldus 7, 55-56, 59, 63, 90-91, 93, 95-97, 99, 101, 103-104, 109, 112, 115, 120, 122, 125, 128, 130-131, 133-134, 137, 141, 146, 149
Suleymaniyə 62-63
Sultaniyyə 38, 73
Suhumqala 74
Suriya 73

**Ş**

Şabran 17, 23, 73
Şam 8-9
Şamaxı 13-14,16-18, 22-23, 25, 27, 30, 36, 75, 116
Şəhrizor 30
Şəhri-viran 7, 56, 90-91, 93, 95-96, 98, 101, 103-104, 109, 112-113, 115, 118, 120, 122, 124, 126-127, 129-131, 133-134, 136, 141, 145, 149
Şəki 16-17
Şəmkir 17
Şəmşəddil 16
Şirvan 13-14, 16-18, 20-22, 25, 27, 34-35, 46, 107
Şiştər 50
Şulistan 58

**T**

Tasuc 35
Tatrıstan 73
Tatau (Siminərud) 57

Tehran 32, 37
Telyuş 7, 56, 90-91, 93, 95-96, 98, 101, 103, 109, 112, 115, 120, 122, 125, 128, 130-131,133-134, 137, 141, 145, 149
Təbriz 4, 8-9, 14-15, 20, 22, 33,35, 37-38, 40-41, 46, 49-50, 54-55, 66, 70, 72-73, 75, 116
Tərkeş (Türkeş) 7, 56, 90-91, 93, 95-96, 98, 101, 103, 109, 112, 115, 120, 122, 125, 128, 130-131, 133-134, 137, 141, 145, 149
Tiflis 8, 35, 42, 50, 99
Tokat 73
Trabzon 72-74
Turcan 56, 90-91, 93, 95-96, 98, 101, 103, 109, 112, 115-116, 120, 122, 125, 128, 130-131, 133-134, 137, 141, 145, 149, 152
Türkiyə 6, 8, 20-21, 27, 58, 72-73, 126

**U**
Urmiya 4, 8, 35, 38, 41, 46, 50, 54, 56-57, 59, 63, 65, 79
Uşnu 73

**Ü**
Üçkilsə 73

**V**
Van 30
Venedik 72
Vərəndə 18
Volqa 4

**Y**
Yıtimur 7, 56, 59, 90-91, 93, 95-96, 98, 101, 103, 109, 112, 115, 120, 122, 125, 127, 129, 131, 133-134, 136, 141, 145, 149
Yunanıstan 73

**Z**
Zağam (indiki Zəyəm) 16
Zəncan 37, 73

Гюляр.А.Кавказлы

# Регионы Марага и Союгбулаг в период Османского правления (20-е годы XVIII вв.)


## Резюме

В монографии под названием «Регионы Марага и Союгбулаг в период Османского правления (20-е годы XVIII вв.)» освещается регионы Марага и Союгбулаг которые входили в состав Османской империи в начале XVIII вв. Исследование велось на основе османского пространного реестра «Детер-и муфассал лива-и Марага».

Данная монография состоит из введения, трех глав, заключения и списка литературы.

Во Введение обосновывается актуальность и научное значение проблемы, указываются цели и задачи исследования, источниковая база, научная новизна и практическое значение монография.

В первой главе под названием «Переход Азербайджанской земли под власть Османской империи в 20-е годы XVIII вв.» исследуется общественно-политическая ситуация в Азербайджане, распад государства Сефевидов, оккупация северных частей Азербайджана со стороны Русской империи, а также переход остальных земель под власть Османской империи.

Во второй главе, озаглавленной как «Применение османской системы управления и ее характеристика», рассматривается османское административное деление, структура города, городская жизнь, положение ремесла и торговли, а также взимаемые с данных регионов налоги, даётся краткий обзор истории Мараги и Союгбулага.

В третьей главе – «Земледелие и налоги взимаемые с сельского хозяйства», исследуются земледельческие отношения, существовавшие в Османской империи, налоги, взимаемые с посевов, доходы, полученные от налогов со скотоводства, налоги с других видов деятельности и общие доходы по санджаку.

В заключении монографии подведены итоги проведенного научного исследования.

Gular Gafgazli

**Maraga and Soyugbulag regions during the Ottoman supremacy (20 years of the 18$^{th}$ century)**

**Summary**

The monography entitled "Maraga and Soyugbulag regions during the Ottoman supremacy (20 years of the 18$^{th}$ century)" highlights the history of Maraga and Soyugbulag under the power of the Ottoman Empire in the begging 18$^{th}$ century. This research was held on the base of the Ottoman resource "Defter-i mufassal liva-i Maraga".

The monography consists of the introduction, three chapters, conclusion and bibliography.

Introduction presents rationale and scientific importance of the problem, purpose and objectives of the study, source base, scientific novelty and practical value of the monography.

In the first chapter entitled as "Annexation of Azerbaijan territories to the Ottoman Empire in 20s of 18$^{th}$ century" the socio-political situation in Azerbaijan, dissipation of Safavy state, occupation of the Southern part of Azerbaijan by Russian Empire, and passing of the other lands of Azerbaijan to the possession of the Ottoman Empire was researched.

The second chapter, which was entitled as "The application and features of the Ottoman management system", administrative division, short view of history of Maraga and Soyugbulag, structure of cities, life of cities, the state of craft and trade, as well as taxes collected from these regions were presented.

The third chapter entitled as "Agricultural relations and taxes collected from agriculture" researches the agricultural relations which existed in the Ottoman Empire, taxes received from plant growing, income from taxes of cattle breeding, taxes received from non-agricultural ownership and total income from sanjak.

In the conclusion of the monography the results of the research are summarized.

10

TT_0909

GÜLƏR ƏLƏKBƏR qızı QAFQAZLI

# OSMANLI HAKİMİYYƏTİ DÖVRÜNDƏ MARAĞA VƏ SOYUQBULAQ BÖLGƏLƏRİ

## (XVIII əsrin 20-ci illəri)

Kompüter tərtibçisi: *Səxavət Zülfiyev*
Bədii tərtibat: *Əli Hüseynov*

Formatı: 60x84 $^{1}/_{16}$
Həcmi: 11,25 ç.v.
Tirajı: 300
Qiyməti müqavilə əsasında

---

Kitab MİHAN MMC tərəfindən hazır diapozitivlərdən istifadə olunmaqla çap edilmişdir.